**Təssisçi**

Azərbaycan Respublikasının
Ailə, Qadın və Uşaq Problemləri üzrə
Dövlət Komitəsi

**Redaksiyanın ünvanı**

AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi
80, Hökumət Evi, IV alaqapı
Tel: (+994 12) 498 80 93
www.scfwca.gov.az
e-mail: office@scfwca.gov.az

**Baş Redaktor**

**Hicran Hüseynova**

Jurnal Azərbaycan Respublikası Ədliyyə
Nazirliyində qeydiyyata alınmışdır.
Əlyazmalar geri qaytarılmır

**Nəşriyyat ünvanı**

"Günəş-B" nəşriyyatı
Bakı şəhəri, S.Rüstəm, 59
Tel. (+99912) 493-41-11
E-mail: araz.ra@rambler.ru

# MÜNDƏRİCAT

**Baş redaktordan ......................................2**

**Ailə cəmiyyətin özəyidir .........................3**

**Dövlət siyasətində qadın hüquqları ....13**

**Uşaqlar gələcəyimizin təminatıdır ......26**

**Səfərlər, görüşlər ..................................37**

**2015 I Avropa Oyunları ......................43**

**Qadın medalçılarımız ..........................46**

**Hər kəsə nümunə ola biləcək ailə modeli (Z.Əliyeva, H.Əliyev) ..........................47**

**Hüquq məsləhətxanası .........................51**

**İlkə imza atan qadınlarımız ..............58**

**Onları siz də tanıyın .........................60**

**Nəşrlərimiz .......................................62**

**Qadın dünyası ..................................63**

**Kulinariya ........................................65**



Əziz oxucular, sizlərlə növbəti görüşümüz çox maraqlı və ölkəmiz üçün əhəmiyyətli hadisələrlə keçən bir zamana təsadüf edir. Jurnalımızın bu dəfəki buraxılışında həmin tarixi hadisələrdən bəhs edən məqalələrlə tanış olacaqsınız.

Bu bir həqiqətdir ki, davamlı və dinamik inkişaf yolunu seçən Azərbaycan Respublikası bu gün regionun lider dövlətinə çevrilmişdir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən davam etdirilən bu siyasət öz müsbət töhfələrini verir. Son illər Azərbaycanda aparılan ardıcıl, məqsədyönlü və uzaqgörən siyasət nəticəsində beynəlxalq birliyin, nüfuzlu təşkilatların ölkəmizə olan inam və etibarı nəzərə çarpacaq dərəcədə artmışdır. Ölkəmizdə mövcud olan sabitlik, inkişaf, demokratiya, tərəqqi mühiti ölkənin mötəbər siyasi, iqtisadi, humanitar tədbirlərə uğurla ev sahibliyi etməsində özünü daim büruzə vermişdir. Artıq Azərbaycan Avropanın müasir infrastruktura malik lider idman ölkələrindən biri kimi tanınır və aparılan dövlət siyasəti sayəsində ölkəmiz öz mövqeyini dünyaya uğurla nümayiş etdirir. Ölkəmizdə "Bakı 2015" ilk Avropa Oyunlarının keçirilməsi isə öz növbəsində Azərbaycanın beynəlxalq münasibətlər sistemində güclü nüfuzunun olmasını bir daha sübut etdi və əldə olunan uğurlar qürurla təqdim olundu. Danılmaz faktdır ki, ölkə Prezidenti cənab İlham Əliyevin və ölkənin birinci xanımı Mehriban Əliyevanın Avropa Oyunlarına xüsusi diqqət ayırması və önəm verməsi idmançıları böyük uğurlar qazandırmağa stimullaşdırmışdır.

Qeyd etmək istərdim ki, ölkə hesabatından sonra edilən tövsiyyələrin azlığı dövlətimizin bu istiqamətdə apardığı siyasətin məntiqi nəticəsidir. Qadınlarımızın idarəetmə və qərarqəbuletmədə iştirakının ildən-ilə artması da bunun əyani göstəricisidir. Bələdiyyə seçkilərində qadınların xüsusi çəkisinin artaraq 35%-ə qalxması qadınlarımızın ictimai həyatda fəal iştirakına nümunədir. Biz əminik ki, qarşıdan gələn parlament seçkilərində də millət vəkili seçilən qadınlarımızın sayı bir qədər də artacaqdır. Bu il həm də Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının qəbul olunmasının 20 illiyidir. Platformanın əsas məqsədi qadınların siyasi, iqtisadi və sosial vəziyyətlərinin daha yaxşılaşdırılmasıdır. Beynəlxalq ictimaiyyət gender bərabərliyini məqsəd kimi və o cümlədən, sülh və inkişafa nail olmaq üçün bir vasitə kimi qəbul etmişdir. Bununla əlaqədar olaraq, dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da tədbirlər keçirilmiş, qarşıda dayanan məsələlər müzakirə edilmişdir.

Digər əlamətdar hadisə isə 1941-45 ci illər Böyük Vətən Müharibəsində Qələbənin 70 illiyidir. Bu münasibətlə Komitə "İgid oğullarla bir cərgədə" Ensiklopedik toplu hazırlamışdır.

Jurnalın bu sayında müvafiq istiqamətlərdə dövlət siyasətinin həyata keçirilməsi sahəsində aparılan işlər barəsində də müxtəlif məlumatlarla tanış olacaqsınız.

Bundan əlavə, jurnalın səhifələrində oxucuları ilkə imza atan qadınlar, qadın dünyası, uşaq aləmi, hüquq məsləhəti ilə tanışlıq və digər maraqlı yazılar gözləyir.

Əziz oxucular!

Hamınıza can sağlığı, fəaliyyətinizdə uğurlar, xoşbəxtlik və ailə səadəti arzulayıram!

***Hörmətlə, Hicran Hüseynova***



Azərbaycan Respublikasının ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zərurətini, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasını, ailə üzvlərinin ailə qarşısında məsuliyyətini, onların hüquqlarının maneəsiz surətdə həyata keçirilməsini müəyyən edir. Hər bir təbəqənin inkişafı Ailə siyasətinin düzgün həyata keçirilməsi ilə sıx bağlıdır. Ailə İnstitutunun möhkəmliyi həmin cəmiyyətin və dövlətin güclənməsi və inkişafına gətirib çıxarır. **Son illər ərzində əhalimizin sayı artaraq 9 milyon 600 mini ötmüşdür. Bu gün Azərbaycanda 2 milyondan çox ailə vardır**. Azərbaycan Hökumətinin siyasətinin mərkəzində vətəndaş və onun sosial rifahı dayanır. Bu siyasəti uğurla həyata keçirmək məqsədilə bir sıra layihələrin icrası istiqamətində müəyyən işlər görülür. Azərbaycanlıları fərqləndirən mühüm xüsusiyyətlərdən biri ailəyə olan bağlılıqdır. Bu bağlılıq müqayisə olunmayacaq dərəcədə güclüdür. Hər bir ailə öz möhkəmliyi ilə fəxr edir və pozulmaması üçün kənar təsirləri ailənin sərhəddində saxlamağa çalışır. Ailə, hər şeydən əvvəl, mənəviyyatca yaxın olan insanların qarşılıqlı münasibəti və onların bir -birinə dəstək olması deməkdir. Ailənin xoşbəxtliyi onun möhkəmliyindən asılıdır. Ailə nə qədər güclüdürsə, cəmiyyət də bir o qədər möhkəm və toxunulmazdır. Azərbaycan ailəsində valideynlər uşaqlara bağlıdır, valideyn -övlad münasibəti düzgün bağlar üzərində qurulub. Uşaqlar dünyaya gələn kimi ana nəfəsini, ata sevgisini hiss edirlər. Bu məhəbbətin nəticəsidir ki, uşaqlar böyüyə hörmət, milli adət -ənənələrə ehtiram ruhunda tərbiyə olunurlar. Məhz qarşılıqlı hörmətin mövcud olduğu ailə əsl nümunəviliyin göstəricisidir. Cənab Prezident İlham Əliyevin dediyi kimi, möhkəm ailə güclü dövlət deməkdir".

Dövlət ailə siyasətinin əsasını qoyan Ulu Öndər Heydər Əliyev hesab edirdi ki, cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, ailədə də hər bir insan özünəməxsus statusu, qayda -qanunu, əlaqələri və prinsipləri gözləməyə borcludur. Hər bir ailə üzvü öhdəsinə düşən funksiyaları yerinə yetirməli, ailənin rifahı üçün bütün bacardığını etməli, hamıya hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalı, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara tam riayət etməlidir. Çünki ailə olmasa, cəmiyyət də inkişaf edə bilməz. Cəmiyyətin inkişafı ailələrin inkişafından asılıdır. Bunun üçün isə, möhkəm qanunvericilik bazasına ehtiyac var idi. Azərbaycan Respublikası Konstitusiyasında ailənin mahiyyəti, ailə üzvlərinin vəzifə və hüquqları xüsusi maddələrlə müəyyən edilmişdir. 2000-ci ildə Ailə Məcəlləsinin qəbul olunması nəticəsində ailə üzvlərinin digər hüquq və vəzifələri ilə yanaşı, mülki hüquqları da təsbit olunmuşdur. Bu gün isə, möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən bu siyasətin daha da gücləndirirlməsi sahəsində islahatlar aparılır. Regionlarda yeni iş yerləri açmaqla, kənd yerlərində infrastrukturu yaxşılaşdırmaqla mədəni -intellektual mühit formalaşdırılmışdır. Bir sıra dövlət proqramları: «Regionların sosial -iqtisadi inkişafı» və "Yoxsulluğun azaldılması və davamlı inkişaf",«Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə" və s. əsasında,ailələrin sosial müdafiəsi sahəsində sistemli şəkildə işlər görülür. Azərbaycan dövlətinin ailənin inkişafı, cəmiyyətdə onun yerinin möhkəmləndirilməsi məqsədi ilə həyata keçirdiyi ardıcıl tədbirlər ailənin müdafiəsini və ailəyə dövlət qayğısını təmin edir. Bu gün cəmiyyətimiz öz layiqlı, sosial -mənəvi inkişafını təmin edən, həyat strategiyasını gerçəkləşdirə bilən, fəal, güclü ailələrin formalaşması üçün çalışır. Hazırda ölkəmizdə ailələrin rifahının daha da yaxşılaşdırılması istiqamətində olduqca mühüm tədbirlər həyata keçirilir. Dövlət Proqramlarının həyata keçirilməsi ilə yanaşı hüquqi bazanın gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Azərbaycan Respublikası BƏT-in "Kişi və qadın işçilər — ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli, BMT-nin "Qadınlar barəsində ayrı -seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında", "Uşaq Hüquqları haqqında",

"Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında", "Uşaqların kənd təsərrüfatında işə buraxılmasının minimum yaşı haqqında", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsi və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" və digər Konvensiyalara qoşulmuşdur.

Dövlət tərəfindən ratifikasiya edilmiş Konvensiyalara əsasən daxili qanunvericilikdə mühüm islahatlar aparılmışdır. Ölkədə Ailə Məcəlləsi, "Ailə kəndli təsərrüfatı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında", "Uşaq hüquqları haqqında", "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında" və digər Qanunlar qəbul edilmişdir. Ailə və Cinayət Məcəllələrinə dəyişikliklər və əlavələr edildi. Ailə Məcəlləsində qızlar üçün nikah yaşı 18-ə qaldırılmış və onların hüquqları kişilərlə bərabərləşdirilmişdir. Cinayət Məcəlləsində qadını, xüsusən yetkinlik yaşına çatmayan qızları nikaha daxil olmağa məcbur etməyə görə xüsusi maddə ilə məsuliyyət müəyyən edilmişdir. Xüsusilə, ailəyə, qadına və uşağa yönəlmiş tibbi xidmət infrastrukturunun, o cümlədən, reproduktiv sağlamlığın qorunması sisteminin daha da təkmilləşdirilməsi üçün "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair (2014 -2020-ci illər üçün) Dövlət Proqramının təsdiq edilməsi, eyni zamanda, Ailə Məcəlləsinə dəyişiklik edilərək tərəflərin nikahdan əvvəl icbari olaraq tibbi müayinədən keçməsi qüvvəyə minmişdir.

***Ailə siyasətinin uğurla həyata keçirilməsində tədqiqatların əhəmiyyəti böyükdür. Təhlil və analitik araşdırmalar bizə mövcud vəziyyəti öyrənmək, tövsiyələr hazırlamaq və görüləcək tədbirlər üçün əsas verir.***

Azərbaycan Hökuməti "Qadınlara qarşı zorakılığa yox deyək", "Məişət zorakılığının qarşısının alınması","XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə", "Məcburi köçkünlər və sığınacaq axtaran şəxslər/ qaçqınlar arasında cinsi zorakılığın aradan qaldırılması" layihələri, "Azərbaycanda erkən nikahın vəziyyətinin təhlili", "Kuçə uşaqlarının vəziyyətinin təhlili", " Azərbaycanda yeni doğulmuş uşaqların qeydiyyatı ilə bağlı vəziyyətin təhlili " , "Azərbaycanda ailə və nikah istitutu: sosioloji təhlil", Azərbaycanda doğulan uşaqların cinsi nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı tədqiqat və analitik hesabatlar hazırlamışdır. Həyata keçirilən layihələr, güclü dövlət Proqramları bir çox istiqamətlərdə yaxşı nəticələr göstərir. Ana və uşaq ölümünün, küçə uşaqları, erkən nikah və uşaqlara qarşı zorakılıq faktlarının azalması dövlətin apardığı uğurlu siyasətin nəticəsidir. Lakin, təəssüf yaradan faktlar da mövcuddur, bəzən biz öz övladlarına qarşı valideynlik borcunu yerinə yetirməyən, uşaqlarını taleyin hökmünə buraxan valideynlərə də rast gəlirik. Belə valideynlərin övladlarının sağlamlığına, təhsilinə, peşə və sənətə yiyələnməsinə, ailə qurmasına laqeydliyi əlbəttə ki, xoşagəlməz fəsadlara gətirib çıxarır.

Ailədaxili münasibətlər sisteminin düzgün tənzim olunması, ailənin xoşbəxtliyi bir sıra mühüm elementlərdən asılıdır ki, bunlar olmadan sağlam ailə barəsində danışmaq mümkün deyil. Bunlardan ən birincisi, valideyn olmaqdır. Əlbəttə, bu gün ata -ana olmaq nə qədər çətindirsə, valideynlik vəzifəsini yerinə yetirmək ondan da çətindir, bu vəzifə çox böyük məsuliyyət tələb edir. İnsan ailədə dünyaya gəlir. Onun ilk sosial mühiti ailəsidir və onun əldə etdiyi ilk təcrübə və biliklər məhz valideynlərindən və ailənin digər üzvlərindən əxz etdikləridir. Bu baxımdan ailə qurmaq və övlad böyütmək, onu cəmiyyətə layiq vətəndaş kimi yetişdirmək hər bir şəxsin qarşısında xüsusi vəzifələr qoyur.

Əlbəttdə ki, ailə, qadın və uşaq siyasətini həyata keçirən bir dövlət qurumu kimi, bizim bu sahələrdə bir sıra öhdəliklərimiz var. Lakin, hər bir insan özü dərk etməlidir ki, valideyn olaraq, övladının öz gələcəyini qurmasında məsuliyyət daşımalıdır. Məsələ yalnız övladının ali təhsil almasına, yaxşı işlə təmin olunmasına, ailə qurmasına kömək etməkdən ibarət deyil. Məsələn, əgər ana və ya ata uşaqları ilə mütəmadi ünsiyyət qurmurlarsa, onların həyatına, xüsusən də, keçid yaş dövründə ona etinasız yanaşırlarsa, əlbəttə, həmin uşaqlar bir

sıra sosial -psixoloji problemlərlə üzləşəcəklər. Elə valideynlər də var ki, öz qızlarını təhsildən yayındıraraq erkən yaşda nikaha məcbur edirlər. Təcrübə göstərir ki, məhz belə nikahların çoxu uğursuz olur. Bu baxımdan, maarifləndirmə işləri çox vacibdir. Əsasən də regionlarda işin daha da gücləndirilməsinə ehtiyac vardır.

***Azərbaycan ailələri uzunömürlüyü və möhkəmliyi ilə seçilir. Bu, əsasən milli mentalitetimizdən irəli gəlir.***

Ailə üzvləri arasında səmimi, mədəni münasibət, böyük -kiçik yerinin bilinməsi, valideyn -övlad münasibətlərinin düzgün qurulması bizim ailələrə xas olan keyfiyyətlərdir. Bizim analar övladları dünyaya gəldikləri gündən onları milli -mənəvi dəyərlərimizlə tərbiyə edirlər. Övladlarını milli adət -ənənələrimiz əsasında əsl vətəndaş kimi böyüdən ailələrimiz xalqımızın milli sərvəti hesab olunur. Azərbaycan ailəsində çoxəsrlik tarixə malik olan "ağsaqqal" və "ağbirçək" institutu mövcuddur. Məhz bu institutun fəaliyyəti ailə üzvləri, eləcə də ailələr arasında ünsiyyətin formalaşmasında, ailə xüsusiyyətlərinin nəsildən -nəslə ötürülməsində mühüm rol oynayır. Azərbaycan çoxmillətli bir respublikadır. Burada azsaylı xalqlar, milli etnik qruplar və milli azlıqlar yaşayırlar. Onlar yerli Azərbaycan xalqı ilə sıx münasibətdədirlər. Öz ailə mədəniyyətlərini qoruyub saxlamaqla yanaşı, qarışıq nikahlar da qururlar. Qeyd etmək lazımdır ki, Azərbaycan ailəsində qadının yeri və rolu xüsusi əhəmiyyət daşıyır. Bizim qadınlarımız istənilən sahədə uğur qazanmaqla yanaşı, çox gözəl ailə sahibi olmağı və vətənə layiqli vətəndaşlar yetişdirməyi bacarırlar. Azərbaycan qadınının ailənin bütövlüyünün qorunmasında özünəməxsus yeri vardır. Böyük mədəni irsə malik olan Azərbaycan xalqı qadının ailədə və cəmiyyətdəki roluna daim böyük ehtiramla yanaşmışdır.

***Ümumiyyətlə, bu gün ailə institutunun cəmiyyətdəki mövqeyinin möhkəmləndirilməsi və sosial proseslərə pozitiv təsirinin təmin edilməsi bütün dünyada aktual problem kimi qarşıda durur. Təsadüfi deyil ki, dünya ictimaiyyəti hər il mayın 15-də beynəlxalq səviyyədə Ailə gününü qeyd edir.*** Cəmiyyətin ailəyə olan ehtiramı qanunvericilik bazasında özünü göstərməklə yanaşı, hər il mayın 15-in dünyanın müxtəlif ölkələrində Ailə Günü kimi qeyd olunmasında da özünü büruzə verir. Bu tarix BMT-nin Baş Assambleyasının 20 sentyabr 1993 -cü il tarixli qətnaməsinə müvafiq olaraq həyata keçirilir. Ailə Bayramı xalqımızın ən sevimli bayramlarından birinə çevrilib. Dünyada bu tarix 1994 -cü ildən başlayaraq qeyd olunsa da, Azərbaycan 2008-ci ildən bu ənənəyə qoşulub. Bu xüsusi bayram olduqca əhəmiyyətli dəyərləri özündə birləşdirir. Çünki dünya miqyasında bütün insanların diqqəti ailə problemlərinin həllinə yönəlir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Ailə Bayramı hər il müxtəlif bölgələrdə təşkil olunur. Beynəlxalq Ailə Günü ərəfəsində regionlarda nümunəvi ailələr müəyyənləşdirilir. Hər il Ailə bayramında Azərbaycanın bütün rayonlarından 100 -dən çox ailə iştirak edir. Ölkəmizin əksər rayonlarından bu tədbirə toplaşmış nümunəvi ailələr müasir Azərbaycan cəmiyyətinin yüksək inkişaf səviyyəsinin təcəssümüdür. Bayramda bu ailələrin hər biri öz xüsusi bacarığını göstərir. Ailə bayramı bu günə kimi Şamaxı, Qax, Xaçmaz, İsmayıllı, Abşeron, Şəmkir rayonlarında, Lənkəran, Şəki şəhərlərində təşkil edilmişdir. Ənənə halını almış bayramda müxtəlif nominasiyalar üzrə ("Bacarıqlı əllər", "Milli mətbəx", "Yaradıcı ailə", "Nümunəvi ailə") şəhər və rayonlardan seçilmiş ailələr iştirak edir. Bayramın rəngarəngliyini təmin etmək üçün bir -birindən fərqli nominasiyaların təşkili mühüm əhəmiyyət kəsb edir. Bayramın yüksək səviyyədə təşkil olunması üçün qabaqlayıcı tədbirlər həyata keçirilir. Bayramda həm müxtəlif sərgilərlə tanışlıq, həm bölgələrin milli mətbəxini əks etdirən xörəklərin və əl işlərinin nümayişi həyata keçirilir, həm də ailələr arasında müxtəlif əyləncəli və intellektual oyunlar keçirilir. Ailə Bayramının ən sevilən hissəsi isə xalqımızın toy adət -ənənələrinin nümayişidir. Bunun üçün ya bir ailənin brilyant toyu, ya da milliliyi əks etdirən xınayaxdı kimi mərasimlər keçirilir. Kütləvi informasiya vasitələrinin, müxtəlif xarici və yerli qonaqların iştirakı ilə baş tutan Beynəlxalq Ailə Günü ölkəmizdə rəğbətlə qarşılanır, hər bir ailə bu günlə əlaqədar keçirilən tədbirlərdə iştirak etməkdə həvəslidir. Tədbirin sonunda iştirakçı ailələr diplom və qiymətli hədiyyələrlə təltif olunur.

Ailə dəyərlərinin qorunub saxlanılması sahəsində görülən maarifləndirmə işlərinin mühüm bir hissəsi kimi, 2009-cu ildən

başlayaraq, "Azərbaycan ailəsi" qısametrajlı film festivalı da keçirilir. Artıq 7 ildir ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə keçirilən "Azərbaycan ailəsi" adlı film festivalı uğurla davam etdirilir. Filmlər festivalının keçirilməsinin əsas məqsədi kinematoqrafiyanın imkanlarından istifadə etməklə ailə dəyərlərinin, milli -mənəvi dəyərlərin gənclər arasında təbliği, cəmiyyətdə bu istiqamətdə mövcud olan problemlərin işıqlandırılaraq həlli yollarının axtarılması və ailə institutunun inkişafına nail olunmasıdır. Keçən müddət ərzində 18 -i xarici rejissorlar tərəfindən olmaqla, təşkilat komitəsinə 200 -ə yaxın film təqdim edilmişdir. 2014 -cü ildən etibarən isə festival çərçivəsində "Həyatdan şəkilə" adlı foto müsabiqə də həyata keçirilir.

Ailə institutunun möhkəmləndirilməsi, reproduktiv sağlamlığın qorunması, ailə dəyərlərinin nəsildən -nəslə ötürülməsi bizim əsas məqsədlərimizdəndir. Bunlara nail olmaq üçün məktəblərdə, hərbi hissələrdə ailə münasibətlərinin formalaşması, yeni keyfiyyətlərin müsbət və mənfi təsiri haqqında seminarlar keçirir, yaşlı nəsillə gəns nəslin dialoqunu, gənc ailələrlə təcrübəli ailələrin birgə disputlarını təşkil edirik. Ailə öhdəlikləri olan işçilərin hüquqlarının qorunması və bu sahədə maarifləndirmə işlərinin daha da gücləndirilməsi üçün müxtəlif seminar və konfransların çox böyük əhəmiyyəti vardır. Ailə institutunun möhkəmləndirilməsi, reproduktiv sağlamlığın qorunması, ailə dəyərlərinin nəsildən -nəslə ötürülməsi bizim əsas məqsədlərimizdəndir. Bunlara nail olmaq üçün "Sağlam ailə sağlam cəmiyyətin təməlidir", "Nəsillərarası münasibətin cəmiyyətin formalaşmasında rolu", "Yaşlı nəslin təcrübəsindən faydalanaq", "Müasir ailənin cəmiyyətin inkişafında yeri və rolu", "Sağlam həyat naminə erkən nikaha yox deyək", "Ailə. Məktəb. Cəmiyyət" , " Bizim gücümüz birliyimizdədir" layihələri, Ağbirçəklər Şurasının üzvlərinin iştirakı ilə "Gənc ana" kursları həyata keçirilir. Qadınların iş sahəsində yaşadıqları çətinliklər, iş prosesinin ailələrə psixoloji təsiri və gənclərin iş prosesinə cəlb edilməsi ilə bağlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən birgə maarifləndirmə layihəsi başa çatdırılmışdır. Qeyd etmək lazımdır ki, bu tədbirlər yalnız Bakı, iri şəhər və rayonları deyil, bütövlükdə bütün respublikanı əhatə edir.

Bu görülən işlərin davam etdirilməsi üçün "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul olunmuşdur. Həmin Konsepsiyaya əsasən"Azərbaycan ailəsi Strategiyası"nın, gender bərabərliyi üzrə Milli Fəaliyyət Planının, Uşaq Məcəlləsinin, "Uşaq Strtegiyası"nın, "Ailə psixoloqu" İnstitutunun hazırlanması nəzərdə tutulur. Bu gün Azərbaycan öz cəmiyyətimizin, öz layiqli, sosial -mənəvi inkişafını təmin edən, həyat strategiyasını gerçəkləşdirə bilən, fəal, güclü ailələrin formalaşması üçün çalışır.

Hazırda biz, çox mürəkkəb və gərginliklərlə dolu bir dünyada yaşayırıq. Zamana uyğun olaraq onun bu və ya digər funksiyalarına yeni elementlər daxil olur. Nümunə üçün, elm və texnologiyanın inkişafının ailəyə, ailə üzvlərinin inkişafına təsirini göstərə bilərik. Bu təsir həm müsbət, həm də mənfi ola bilər. Biz daha çox bu barədə düşünməliyik. Qloballaşma prosesi özü ilə bərabər, həm də müəyyən çətinliklər də gətirir. Narkomaniya, insan alveri, ekoloji problemlər, ərzaq təhlükəsizliyi, erkən nikah, insan psixikasına təsir edən sosial - hərbi hadisələr və s. Bəşəriyyətin üzləşdiyi bu çətinliklər və amillər ailə məsələlərini bir dana önə çıxardır və onun əhəmiyyətini artırır. Biz, bu qiymətli sərvəti yad təsirlərdən qorumaqla yanaşı, dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək zənginləşdirməli, gənc nəsli daha sağlam tərbiyələndirməliyik. Sözsüz ki, bu işdə ailənin rolu danılmazdır.

Ailə siyasətini layiqincə həyata keçirən cənab Prezident İlham Əliyev Azərbaycan ailələrinə xüsusi diqqət və qayğıyla yanaşır. İlham Əliyevin Sərəncamı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması bu sahədə görülən işlərin təcəssümüdür. Ölkəmizdə ailə, qadın və uşaq siyasətini həyata keçirən Dövlət Komitəsi fəaliyyət göstərdiyi 9 il müddətində müxtəlif istiqamətli işlər görmüş, layihələr həyata keçirmiş, bir sıra uğurlar əldə etmişdir. İlk növbədə, Azərbaycanda yaşayan ailələr haqqında ümumi məlumat bazası yaradılmış, respublikanın bütün şəhər və rayonlarında anket

sorğuları keçirilmişdir. Hazırda Komitənin nəzdində 11 Uşaq və Ailələrə Dəstək Mərkəzi fəaliyyət göstərir. Uşaq və Ailələrə Dəstək Mərkəzi, alternativ qayğı modeli olaraq, icmada risk qrupuna aid olan ailə, qadın və uşaqlara göstərilən dəstəyi özündə birləşdirir, vətəndaşların müraciəti əsasında onları müxtəlif xidmətlərə yönəldir, fəaliyyətini icmanın tələbatına uyğun qurur, əhali arasında müxtəlif mövzularda maarifləndirmə işləri aparır. Mərkəzlər tərəfindən 57(əlli yeddi) mindən çox ailələrə psixoloji, hüquqi, tibbi yardım göstərilməsində köməklik edilmişdir.

Komitənin fəaliyyəti digər dövlət orqanları ilə səmərəli əməkdaşlıq şəraitində qurulur, beynəlxalq təşkilatlarla birlikdə bir sıra layihələr icra olunur, həmin layihələrdə qeyri -hökumət təşkilatları, müstəqil ekspertlər yaxından iştirak edirlər. Bu gün ölkəmizin həyatında önəmli rol oynayan, hər birimiz üçün gözəl nümunə olan Azərbaycan qadın hərəkatının lideri, Heydər Əliyev Fondunun Prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi altında həyata keçirilən ailə problemlərinin həlli istiqamətində önəmli layihələrin həyata keçirilməsini xüsusilə qeyd etmək lazımdır. Azərbaycan ailəsinin problemlərini diqqət mərkəzində saxlayan Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ailələrimizin rifahına yönəlmiş böyük layihələr uğurla reallaşır.

Bu gün Azərbaycan ailəsi dünya ölkələri sırasında seçilir və öz uğurlu modelini dünya səviyyəsində tanıtdırır, müxtəlif ölkələrlə öz təcrübəsini bölüşdürür. Müasir Azərbaycan ailəsinin qarşılıqlı hörmət və məhəbbət üzərində qurulmasının əsas səbəblərindən biri də məhz tarixin süzgəcindən keçmiş dəyərlərin qorunaraq nəsildən –nəslə ötürülməsi və hələ də tətbiq olunmasıdır. Buna görə də, Azərbaycan ailəsi dünyanın ən yaxşı ailə modellərindən hesab olunmağa layiqdir. Əgər ölkəmizdə yüzlərlə, minlərlə insanın qurduqları ailələrin uzunömürlülüyünü təsdiqləyən “gümüş”, “qızıl”, “brilyant” yubileylər keçirilirsə, deməli, Azərbaycanda ailə modeli yaşadılır. Ümummilli Lider Heydər Əliyev demişdir ki, ailədaxili münasibətlər cəmiyyətdaxili münasibətlərin güzgüsüdür. Çalışaq ailəmizdə olan problemləri vaxtında və münasib şəkildə həll edək ki, bu güzgü sağlam və dayanıqlı olsun. Ailə xoşbəxtliyin açarıdır. Sağlam gələcək üçün ailəmizi hər zaman qorumalı və nümunəviliyimizlə seçilməliyik. Uğurlu, fəxr ediləsi örnək ailələr Azərbaycan gələcəyinin təminatçısıdır.

## “Müasir dövrün çağırışları: Ailə institutu və dini dəyərlərin vəhdəti” adlı konfrans keçirilib



“Müasir dövrün çağırışları: Ailə institutu və dini dəyərlərin vəhdəti” adlı konfrans keçirilib. Tədbiri giriş sözü ilə açan Dövlət Komitəsinin sədri Hicran Hüseynova “2015-2016-cı illər üçün birgə işin təşkilinə dair tədbirlər planı” çərçivəsində keçirilən ilk tədbir olduğunu bildirib: “Müstəqillik illərində dini dəyərlərin qorunub möhkəmlənməsi prioritet məsələ olub. Onlarla məbədlər, məscidlər təmir olunub, tikilib. Ancaq təəssüflər olsun ki, əhali arasında milli-dini dəyərlər barəsində narahatlıq doğuran hallar müşahidə olunur. Hələ də insanların təfəkküründə səhv dini stereotiplər var.”

H.Hüseynova qeyd edib ki, Azərbaycan sürətlə inkişaf edir və bu inkişafa qadınlar da öz töhfəsini verir. Amma biz hələ də erkən nikah hallarına təsadüf edirik. Biz bu hallarla bağlı bəzi valideynlərlə söhbətləşəndə onlar bunu İslam dininə bağlayırlar. Bu da çox səhv yanaşmadır. Biz, Komitə olaraq, qadınlara rayonlarda kiçik və orta biznes qurmaq üçün müraciət edirik. Sonra həmin qadınlar bizə deyirlər ki, ərləri onlara işləməyə icazə vermir. Bu da zorakılığın bir nümunəsidir. Zorakılıq da sonradan ağır fəsadlara gətirib çıxarır. Halbuki İslam dini qadınlara özünütəsdiq imkanı yaradır. Dini icmalar bu cür məsələlərdə fəal olsalar, yaxşı olar. Bu gün gənc nəsillə işləmək lazımdır

ki, onlar dini ekstremizmə yox, tərəqqiyə can atsınlar. Məscidlərdən, məbədlərdən ancaq ibadət yeri üçün istifadə olunmamalı, ziyarətgahlar bir elm mərkəzinə çevrilməlidir. Dini ekstremizmin qarşısını almaq üçün siyasətçiləri, ziyalıları, din xadimlərini səfərbər etmək lazımdır".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bölgələrdə maarifləndirmə işlərinin aparılmasına xüsusi diqqət ayrılacağını söyləyib: "Ailə dəyərlərində dinin öz təsiri var. İslam dini yayıldığı coğrafiyada ailə institutuna öz təsirini göstərib və bu gün də öz təsirini saxlamaqdadır. Biz ailənin formalaşmasına diqqət yetirməliyik. Çox müsbət işlər görülüb. Amma bu gün bizim qarşımızda müstəqilliyimizi təhdid edən amillər var. Onlardan biri də dini ekstremizmdir. Biz həm də bu gün müxtəlif dinlərin ölkəyə yayılması cəhdlərini də görürük. Bu gün Azərbaycanın bəzi bölgələrində xristian missionerlər fəaliyyət göstərir, azərbaycanlı bir qadın da gedib o missionerlərlə birgə xorla başqa dini ayini oxuyur. Mən buna çox təəssüflənirəm. Buna imkan verməməliyik. Hər hansı bir ailədə radikal gənc yetişibsə, deməli, onu böyüdən ana mill -mənəvi dəyərlərin təşviqində qüsurlara yol verib. Biz bu problemləri müəyyən edib, qabaqlayıcı tədbirlər görməliyik. Bu işdə də din xadimlərinin ayrıca rolu var. Bu məsələləri yalnız dövlət qurumlarının üzərinə atmaq doğru olmaz".

Milli Məclisin vitse-spikeri Bahar Muradova ailə institutunun möhkəmlənməsində ilk növbədə qanunları əsas götürməyin vacibliyini qeyd edib: "Qlobal dəyişikliklər ölkəmizdən də yan keçmir. Bu gün səslənən çağırışların hamısı bizi inkişafa çağırmır, mürtəce çağırışlar da olur. Etnik, dini icmalar, siyasi partiyalar, ziyalılar birlikdə bu məsələlərdə fəal iştirak etməsə, problemlər yarana bilər. Necə ki, biz bunu sərhədlərimizdən kənarda görürük. Bu gün mühafizəkarlıq müasirliyin qarşısında dayanıb milli -mənəvi dəyərlərin aşınmasının qarşısını alır, bəzən də fəsadlara yol açır. Biz bu sərhədləri müəyyənləşdirməliyik. Görəsən, bu gün ailə quranların Ailə Məcəlləsindən xəbərləri varmı? Bəziləri düşünür ki, qanunlar ancaq dövlət qurumları, hüquq -mühafizə orqanları üçündür. Evdar qadın da ailəsini idarə etmək üçün qanunları bilməlidir. Qanunvericilik məsələsində maarifləndirmə işlərinə diqqət yetirməliyik".

Daha sonra millət vəkilləri Musa Quliyev, Məlahət Həsənova, Sahibə Qəhrəmanova, "Kaspi" qəzetinin təsisçisi Sona Vəliyeva, Milli Televiziya və Radio Şurasının sədr müavini Qafar Cəbiyev və başqaları Azərbaycanda ailə dəyərləri, ailə institutunun formalaşmasında və qorunub saxlanmasında milli və dini dəyərlərin rolu mövzusunda çıxış ediblər.

## "Ailə və uşaq məsələlərinə dair şəffaflığın və vətəndaşlara xidmətin təmin edilməsi" mövzusunda təlim



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, "Açıq hökumətin təşviqinə dair 2012 -2015-ci illər üçün Milli Fəaliyyət Planı"nı rəhbər tutaraq, Azərbaycan Universiteti ilə birgə "Ailə və uşaq məsələlərinə dair şəffaflığın və vətəndaşlara xidmətin təmin edilməsi" mövzusunda təlim keçirib.

Təlimdə Ombudsman Aparatının, Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələri, həmçinin müxtəlif təhsil ocaqlarında təhsil alan tələbələr iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Universitetinin rektoru Fərid Əhmədov

təşkilatçılıq və əməkdaşlıq üçün Komitəyə öz minnətdarlığını bildirib. O, həmçinin tələbələrin bu kimi maarifləndirici təlimlərdə iştirakının xüsusi əhəmiyyəti olduğunu vurğulayıb.
Daha sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva çıxış edərək təlimin əsas məqsədinin dövlət qurumlarının fəaliyyətinin insan hüquqları, xüsusən də ailə, uşaq istiqamətindəki məsələlərə dairşəffaflığının təmin edilməsi, bu məsələlərin gənc nəsil arasında təbliği olduğunu bildirib. Aynur Sofiyeva onu da əlavə edib ki, qloballaşan dünyada milli dəyərlərin daha çox qorunmasına ehtiyac var. Ailə dəyərlərinin qorunması, ailədaxili və nəsillərarası münasibətlərdə yaşlılara hörmət, uşaqlara sevginin, diqqətin təbliği Komitənin bu istiqamətdə gördüyü işlərin tərkib hissəsidir. O, belə mövzularda bundan sonra da tədbirlərin həyata keçiriləcəyini deyərək bu məsələnin hər zaman gündəmdə olmasına ehtiyac duyulduğunu vurğulayıb.
Daha sonra Ombudsman Aparatının Hüquqi Maarifləndirmə sektorunun müdiri Faiq Ağayev “İnsan hüquqlarının müdafiəsi, korrupsiya ilə mübarizə və bu sahələrdə Ombudsman Aparatının fəaliyyəti”, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nümayəndəsi Jalə Əsgərova, Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin şöbə rəisi Adıgözəl Adıgözəlov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndəsi Şamo Salayev, Milli Televiziya və Radio Şurasının Monitorinq şöbəsinin müdiri Təvəkkül Dadaşov təqdimatlarla çıxış ediblər.
Təlimin ikinci günündə isə Bakı Beynəlxalq Multikultiralizm Mərkəzinin nümayəndəsi Aynur Bəşirli, Azərbaycan Universitetinin müəllimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Əmək Müfəttişliyi Xidmətinin nümayəndəsi, Dövlət Tibbi Sosial Ekspertiza və Əlillərin Reabilitasiyası Xidmətinin nümayəndəsi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələri müvafiq mövzularda çıxışlar ediblər.
Sonda tələbələrin də interaktivliyinin təmin olunması məqsədilə, qrup şəklində müzakirələr təşkil olunub.

## “Bizim gücümüz birliyimizdədir” adlı genişmiqyaslı maarifləndirmə layihəsi

Son zamanlar asudə vaxtın təşkili müzakirə predmetinə çevrilib. Xüsusilə, informasiya texnologiyalarının inkişaf etdiyi bir zamanda insanlar arasında canlı ünsiyyət probleminin olması, onların, xüsusilə, ailə üzvlərinin marginallaşması məsələləri tez-tez gündəmə gətirilir.

Bu problemlərin qarşısının alınması istiqamətində Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən cəmiyyət üzvləri arasında Azərbaycan ailəsinə xas dəyərlərin və sağlam həyat tərzinin təbliği, ailələrin asudə vaxtının səmərəli təşkili məqsədilə “Ümumdünya Əhali Günü”nə həsr olunmuş “Bizim gücümüz birliyimizdədir” adlı genişmiqyaslı maarifləndirmə layihəsinə start verilmişdir.
Tədbirdə iştirak edən ailələr üçün:
- Milli -mənəvi və ailə dəyərlərinin təbliği;
- Ailənin asudə vaxtının səmərəli təşkili;
- Sağlam həyat tərzinin təbliği;
- Gənclərin fiziki hazırlığının önəmi;
- Demoqrafik vəziyyət;
- Ailə – məktəb münasibətlərinin düzgün təşkili;
- Ailə büdcəsinin idarə olunması;
- Ailə və cəmiyyətdə etik davranış qaydaları;

kimi mövzular ətrafında ekspertlərin çıxışları, intellektual oyun və idman yarışının, ailəliklə nahar süfrəsinə hazırlıq işlərinin təşkili nəzərdə tutulmuşdu.
İlk tədbir 10 iyul 2015-ci il tarixdə Abşeron rayonu, Xırdalan şəhərində keçirilib.
Tədbiri giriş sözü ilə açan Abşeron rayon icra hakimiyyəti başçısının müavini İradə Gülməmmədova respublikamızda uğurla həyata keçirilən dövlət ailə siyasətinə görə ölkə rəhbərliyinə minnətdarlığını bildirmişdir. O, həmçinin qeyd etmişdir ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq bu kimi maarifləndirmə tədbirlərinin həyata keçirilməsi ailə siyasətinin layiqincə yerinə yetirilməsinin göstəricisidir.
Tədbirin əhəmiyyətini xüsusi qeyd edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova belə maarifləndirmə layihələrinin

həyata keçirilməsinin əhəmiyyətini vurğulamışdır. Sədaqət Qəhrəmanova milli - mənəvi və ailə dəyərlərimizin qorunmasının vacibliyini bildirmiş, bu sahədə dövlətimiz tərəfindən həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər barədə geniş məlumat vermişdir.

Daha sonra AMEA-nın Fəlsəfə və Hüquq İnstitunun Politologiya və siyasi sosiologiya şöbəsinin müdiri, professor Rəna Mirzəzadə “Ailə – məktəb münasibətlərinin düzgün təşkili ”, AMEA -nın Fəlsəfə və Hüquq İnstitunun və Azərbaycan Turizm və Menecment Universitetinin professoru, fəlsəfə elmləri doktoru Ziba Ağayeva “Ailə büdcəsinin idarə olunması” , AQUPDK-nın Regional Mərkəzlərlə iş şöbəsinin müdiri Ceyran Rəhmətullayeva “Ailənin asudə vaxtının səmərəli təşkili və sağlam həyat tərzinin təbliği”, Etika Akademiyasının rəhbəri Günel İbrahimli “Ailə və cəmiyyətdə etik davranış qaydaları”, Abşeron rayon Statistika İdarəsinin əməkdaşı Təranə Əmirəliyeva “Demoqrafik vəziyyət”, Abşeron rayon İdman və Gənclər İdarəsinin rəisi Əsgər Əmirəliyev “Gənclərin fiziki hazırlığının önəmi” kimi mövzularla cıxış etmiş, sonra həmin mövzular ətrafında müzakirələr başlamışdır.

Tədbir zamanı iştirakçı ailələrə intellektual suallar paylanılmış, uşaqların asudə vaxtının səmərəli təşkili üçün müvafiq şərait yaradılmışdır.

Tədbirə qatılan Abşeron rayonundan olan ailələr təşkilatçılara öz minnətdarlığını bildirmiş, belə tədbirlərin keçirilməsinin faydalı olduğunu qeyd etmişlər. Tədbirin sonunda ailələrə Komitə tərəfindən hazırlanmış və çap olunmuş maarifləndirmə vəsaitləri paylanılmışdır.

Layihə respublikanın digər bölgələrində davam etdirilir.









## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Heydər Əliyev Fondunun və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə həyata keçirilən "Azərbaycan ailəsi-2015" VII film festivalı başa çatıb




Noyabrın 6-da Beynəlxalq Muğam Mərkəzində festivalın təntənəli bağlanış mərasimi keçirilib.
"Azərbaycan ailəsi" film festivalına 2014-ci il dekabrın 24-də tarixində Azərbaycan Mədəniyyət və İncəsənət Mədəniyyət Universitetinin akt zalında professor və incəsənət xadimlərinin və tələbələrin iştirakı ilə start verilib. Artıq ikinci ildir ki, film festivalı çərçivəsində "Həyatdan şəklə" adlı fotomüsabiqə də keçirilir. Bu il "Azərbaycan ailəsi" film festivalı müsabiqəsində 36 iştirakçı tərəfindən 39 film (3- bədii, 2-sənədli, 6-televiziya layihəsi ( 1-i CBC TV,2-si Kəpəz TV, 2-si İctimai TV, 1-i Cənub Regional TV tərəfindən təqdim olunub) , 14-tələbə işi, 4-sosial çarx, 1-cizgi filmi, bunlardan 9-u xarici filmdir) və 25 iştirakçı tərəfindən 94 fotoşəkil təqdim olunmuşdur.
Təqdim olunan işlər Azərbaycanın görkəmli elm və mədəniyyət xadimlərindən ibarət münsiflər heyəti tərəfindən qiymətləndirilib və qaliblər 6 nominasiya üzrə ("Ən yaxşı film", "Ən yaxşı tələbə işi", "Ən yaxçşı xarici film", "Ən yaxşı TV layihəsi", "Ən yaxşı sosial çarx", "Ən yaxşı fotoşəkil") müəyyən ediliblər. Əsas mükafatlara uyğun olaraq, müvafiq dövlət qurumları tərəfindən 12 film və 5 fotoşəkil xüsusi fərqlənən iş kimi qiymətləndirilib.
Festivalın əsas məqsədi kinematoqrafiyanın imkanlarından istifadə etməklə ailə və milli-mənəvi dəyərlərin gənclər arasında təbliğidir. Əsas hədəflərdən biri də cəmiyyətdə bu istiqamətdə mövcud olan problemləri işıqlandırmaqla onların həlli yollarının axtarılması və ailə institutunun daha da güclənməsinə nail olmaqdır. Bu filmlərdə müsbət keyfiyyətlərlə yanaşı, vacib problemlər – erkən nikah, uşaqların, xüsusilə, qızların təhsildən yayınması, insan alveri, ailənin psixoloji vəziyyəti, sağlamlıq imkanları məhdud olan insanların cəmiyyətə reinteqrasiyası də öz əksini tapıb.
Mərasimdə əvvəlcə festivala təqdim olunmuş film və fotolardan ibarət videoçarx nümayiş etdirilib. Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, professor Hicran Hüseynova çıxış edərək deyib ki, dövlətimizin demokratik və stabil inkişafı bütövlüklə ölkəmizin nüfuzunun artırmasına səbəb olub. "Əlbəttə ki, bu stabilliyin əsasında ailə dayanır. İnsan təhsil aldığı məktəblə, çalışdığı kollektivlə yanası, böyüyüb boya-başa çatdığı ailədə formalaşır. Belə ki, onun sosial mühiti ailədir. Cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, hər bir insan ailədə də özünəməxsus statusu qayda-qanun və prinsipləri gözləməyə borcludur. Çünki ailə olmasa, cəmiyyət də inkişaf edə bilməz"- deyərək Hicran Hüseynova bildirib.
Komitə sədri artıq festivalın ənənə halını aldığını, bu mötəbər yarışmanın miqyasının ildən-ilə genişləndiyini və ölkə hüdudlarından kənara çıxdığını söyləyib. Hicran Hüseynova festivalın yüksək səviyyədə keçirilməsinə dəstək göstərən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya, həmçinin BMT-nin Əhali Fonduna, Mədəniyyət və Turizm Nazirliyinə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə minnətdarlığını bildirib.
Qeyd olunub ki, bu gün dövlətimiz milli-mənəvi dəyərlərin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün böyük səylər göstərir. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət ailə siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Azərbaycan Respublikası Prezidentinin ailələrin inkişafı və

sosial vəziyyətlərinin daha da yaxşılaşdırılması istiqamətində imzaladığı müvafiq fərman və sərəncamlar, təsdiq etdiyi proqramlar bu sahəyə göstərilən dövlət qayğısının bariz nümunəsidir.

Mərasimdə eyni zamanda vurğulanıb ki, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın milli dəyərləri və müasirliyi özündə birləşdirən ailə modelinin yorulmaz təbliğatçısı kimi bu sahədə fəaliyyəti örnəkdir. Məlumat verilib ki, keçən müddət ərzində iyirmi iki xarici rejissor olmaqla təşkilat komitəsinə 210-a ona yaxın film təqdim edilib. Bu da onu göstərir ki festivala maraq ildən-ilə artır. Komitə sədri qeyd edib ki, festivala qatılan heç bir namizəd uduzmur, əsas məsələ iştirak etməkdir, çünki təqdim edilən bütün filmlər komitənin maarifləndirmə işlərində istifadə olunur.

BMT-nin Əhali Fondunun Azərbaycan nümayəndəliyinin baş müşaviri Fərid Babayev, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Xalq Artisti Şəfiqə Məmmədova, İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru Cəmil Quliyev çıxış edərək cəmiyyətdə ailə institutunu və mənəvi dəyərləri möhkəmlətmək, eyni zamanda, milli ailə ənənələrini təbliğ edib yaşatmaq baxımından, eləcə də, milli kino sənətimizin təbliği və inkişafı üçün bu festivalın əhəmiyyətini qeyd ediblər. Çıxış edənlər bu sahədə Komitədən fəaliyyətini yüksək qiymətləndiriblər. Festivalın yüksək səviyyədə təşkilinə görə Komitənin rəhbərliyinə minnətdarlıq ifadə olunub.

Sonda müxtəlif nominasiyalar üzrə “Azərbaycan ailəsi-2015″ VII film festivalının və “Həyatdan şəklə” fotomüsabiqəsinin qaliblərinə diplom və qiymətli hədiyyələr təqdim olunub.














Qadınsız heç bir cəmiyyəti, sosial təsisatı təsəvvür etmək mümkün deyil. Qadın ailənin möhkəmliyini, onun bütövlüyünü qoruyan, yeni nəsli böyüdən, tərbiyə edəndir. Qadın, ana, xanım – triadasının fəlsəfəsi özü-özlüyündə bu rolun mahiyyətini açır. Həyat yoldaşını sevən, ona hörmət edən, ailə ocağını daim qoruyan qadındır. O, dünyaya yeni insan bəxş edən, onu adət-ənənələrimizə, milli dəyərlərimizə uyğun böyüdən, tərbiyə edən anadır. O, cəmiyyətin inkişafında, dövlət quruculuğunda xüsusi rol oynayan xanımdır, vətəndaşdır. Bizim qadınlarımız istənilən sahədə uğur qazanmaqla yanaşı, çox gözəl ailə sahibi olmağı və vətənə layiqli vətəndaşlar yetişdirməyi bacarırlar.

Böyük mədəni irsə malik olan Azərbaycan xalqı qadının ailədə və cəmiyyətdəki roluna daim böyük ehtiramla yanaşmışdır.Yaşadığı tarixi dövrdən, sosial -iqtisadi vəziyyətdən, coğrafi məkandan, irqindən, dilindən, dinindən asılı olmayaraq qadın bəşəriyyətin inkişafının bütün mərhələlərində özünəməxsus aparıcı qüvvə olmuşdur. Azərbaycan qadını çətin, keşməkeşli inkişaf yolu keçmişdir. Tarixə nəzər salsaq, görərik ki, cəmiyyətin inkişafının bütün mərhələlərində qadınlar kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak etmişlər. Ölkəmizdə milli qadın siyasəti tariximizin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət statusu almışdır. Həmin dövrdə ilk dəfə olaraq müsəlman Şərqində qadına seçmək və seçilmək hüququnun verilməsi tarixi nailiyyət hesab olunurdu. Bununla da nəinki ilk dəfə Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl ölkəmizdə qadına cəmiyyət həyatında siyasi proseslərə qoşulmaq hüququ verilmişdir. Bütün müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəb 114 il bundan qabaq Bakıda yaradılmışdır. Bu məktəbləri açan Azərbaycanın xeyriyyəçi və maarifpərvər sahibkarları, ziyalılar başa düşürdülər ki, qızların təhsil alması çox vacibdir. Təhsilli qadın təhsilli milliət, təhsilli nəsil deməkdir. Azərbaycanda qadınların təhsil alması, qadınlar arasında savadsızlığın aradan qaldırılması, qadın sağlamlığı, onların iqtisadi azadlığının təmin olunması məsələləri daim öz aktuallığını saxlamışdır. Zaman keçdikcə bu istiqamətlərdə iş aparılmış və müsbət nəticələr əldə olunmuşdur.

Danılmaz tarixi faktdır ki, ölkəmizdə dövlət qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsi və dövlət səviyyəsinə qaldırılması məhz Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. 1993 -cü ildə, tariximizin həlledici dövründə xalqın tələbi və arzusu ilə onun hakimiyyətə ikinci dəfə gəlişi Azərbaycanı vətəndaş müharibəsi alovundan, parçalanıb dünya xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Qısa vaxt ərzində həm hərbi, həm də iqtisadi böhrandan çıxış yolları tapıldı və ölkədə yaranan ictimai -siyasi sabitlik, dövlət siyasətinin bütün sahələri kimi, qadın hərəkatının inkişafına da güclü stimul verdi. Ümummilli Lider qadınların idarəetmədə və hakimiyyətin bütün sahələrində irəli çəkilməsini vacib bilmişdir. O, qadın hüquqlarının müdafiəsini öz siyasi fəaliyyətinin tərkib hissəsi saymış və qarantı olmuş, milli qadın hərakatının formalaşması, genişlənərək institutlaşması üçün böyük işlər görmüşdür. Həmin illərdə qadınların cəmiyyətdəki statusunun təmin olunması ilə bağlı ölkə rəhbərinin imzaladığı fərman və sərəncamlar qadın hüquqlarının reallaşması və təminatı istiqamətində irəliyə doğru atılmış tarixi addımlar oldu. 1995-ci ildə sentyabrın 4-dən 15-dək BMT-nin təşəbbüsü ilə Pekində keçirilən Qadın məsələlərinə dair 4-cü Ümumdünya Konfransında qadınlarımızın

iştirakı isə müasir qadın hərəkatına yeni nəfəs gətirdi. Bu tədbirə hazırlıq işləri bir il əvvəl başladı. O vaxt ölkəmizdə qadın problemləri ilə məşğul olan dövlət qurumu yox idi. Elə buna görə də, Ümummilli lider Heydər Əliyev "4-cü Ümumdünya Qadın Konfransına hazırlıqla əlaqədar Azərbaycan qadınlarının Milli Komitəsinin yaradılması haqqında" 15 sentyabr 1994-cü il tarixli Fərman imzaladı. Prezident Aparatının humanitar siyasət şöbəsinin müdiri Fatma xanım Abdullazadənin sədrlik etdiyi Azərbaycan qadınlarının Milli Komitəsində dövlət strukturlarının qadın rəhbərləri və qeyri - dövlət qadın təşkilatlarının nümayəndələri təmsil olunurdu. Milli Komitə bir il ərzində Pekin konfransına ciddi hazırlaşdı. Ulu Öndər Heydər Əliyev bu məsələni xüsusi nəzarətdə saxladı. Müdrik dövlət başçısı yaxşı bilirdi ki, 20-ci əsrin sonlarında Ermənistanın hərbi təcavüzü ilə üzləşən, torpaqları işğal olunan, ərazisinin 20%-ni itirən, müharibənin ağrı-acılarını yaşayan, bir milyon qaçqın və məcburi köçkünü olan Azərbaycanın qadınlarının bu konfransda iştirakı olduqca böyük əhəmiyyət kəsb edir. Konfransda qadınların cəmiyyətdə vəziyyətinin yaxşılaşdırılması sahəsində 12 strateji istiqamət müəyyən edildi, qadın və təhsil, qadın və sağlamlıq, qadınlara qarşı zorakılıq, qadınlar və silahlı münaqişələr, qadınlar və yoxsulluq, qadınların insan hüquqları, qərar qəbuletmədə qadınların rolu və digər bu kimi vacib məsələlər diqqət mərkəzinə gətirildi. Bu gün qürurla deyə bilərik ki, həmin konfransın iştirakçısı olan qadınların əksəriyyəti rəhbər vəzifələrdə çalışır, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Gender bərabərliyinin təmin edilməsi və qadınların səlahiyyətlərinin genişləndirilməsi ölkə siyasətinin mühüm prioritetlərini təşkil edir. Bu, bütün sahə və istiqamətləri əhatə edir. Qadınlar üçün uyğun şəraitin yaradılması, məşğulluq, sağlamlıq, təhsil və sosial siyasət sahəsində gender bərabərliyinin inkişaf etdirilməsi üçün mühüm səylər göstərilmişdir. XX əsrin sonlarında iqtisadi keçid dövrünün ciddi problemləri, Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızın 20 faizinin zəbt olunması, ölkədə bir milyon Azərbaycan vətəndaşının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi işctimai - siyasi vəziyyəti çətinləşdirmişdi. Onların 400 mindən çoxunu qadınlar, 300 mindən çoxunu isə uşaqlar təşkil edirdi. Bunlar sadəcə quru rəqəmlər deyil. Bu gün biz qaçqın və məcburi köçkün, həmçinin şəhid ailəsi olan və müharibənin ağırlığını çiyinlərində daşıyan qadınlarımızın fədakarlığını xüsusi qeyd edirik. Bütün bu çətinliklərə baxmayaraq, qadınlarımız özlərində güc tapmağı bacardılar. Azərbaycanın inkişafı və müstəqilliyinin gücləndirilməsi prosesində fəal iştirak etməyə başladılar. Azərbaycan Hökuməti həmin qadınların ictimai -siyasi həyata inteqrasiya edilməsi üçün bütün qüvvəsini səfərbər etmişdir. Hazırda bu qadınlar arasında milliət vəkili, müəllimlər, həkimlər, dövlət qulluqçuları, kənd təsərrüfatında çalışanlar vardır.

Qadın siyasəti müstəqil Azərbaycan dövlətinin əsas prioritet sahələrindəndir. Qadın hüquqları həm qanunlar, həm də bir sıra məcəllələrlə (Ailə, Mülki, Cinayət, İnzibati Xətalar və s.) təsbit olunmuşdur. Qəbul olunmuş bir sıra dövlət proqramları, o cümlədən, «2008 -2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı», «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011 -2015-ci illər üçün Dövlət Proqramı», "Azərbaycan Respublikası regionlarının sosial -iqtisadi inkişafı Dövlət Proqramı"ları ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında qadınların rolunun artırılmasında mühüm xüsusiyyət kəsb edir. Həmçinin Büdcənin və digər qanunvericilik sənədlərinin gender ekspertizasından keçirilməsi də vacib məsələlərdəndir. Bu sahədə də nailiyyətlər əldə etmişik.

Müstəqilliyini yeni bərpa etmiş olkə olmağımıza, mürəkkəb vəziyyətdə yaşamağımıza baxmayaraq, daha bir mühüm beynəlxalq konvensiyaya qoşulduq. «Qadınlara qarşı ayrı -seçkiliyin bütün formalarının ləğv edilməsi» haqqında Konvensiyaya (CEDAW) qoşulmaq həmin dövr üçün böyük siyasi iradə tələb edirdi. Və Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü nəticəsində dövlətimiz bu Konvensiyanı ratifikasiya etdi. Bununla əlaqədar olaraq Azərbaycan Hökuməti dövrlərarası hesabatlar verir. Arıtq hər Hesabatdan sonra verilən tövsiyyələrin sayının azalması onu göstərir ki, Azərbaycan Hökumətinin və Dövlətin qayğısı sayəsində ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında qadınların rolunun artırılması, onların

beynəlxalq səviyyədə təmsil olunmaları təmin edilmiş, qadınlara kişilərlə bərabər imkan və hüquqlar yaradılmışdır. 18 fevral 2015 -ci il tarixdə Azərbaycan Hökumətinin Birləşmiş Millətlər Təşkilatının "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyaya dair növbəti, V Dövri Hesabatı xüsusi Komitədə dinlənilmişdi. Müzakirələr zamanı BMT komitəsinin ekspertləri ötən illərdən indiyə gədər Azərbaycan qadın hüquqlarının müdafiəsi sahəsində aparılan islahatları müsbət qiymətləndirdilər. BMT Komitəsinin nümayəndələri Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə gedən iqtisadi və sosial inkişafı, o cümlədən, dövlət qadın siyasətinin həyata keçirilməsində əldə ounan nailiyyətləri, qanunvericilik bazasının təkmilləşdirilməsini yüksək qiymətləndirdilər. Qeyd etmək lazımdır ki, beynəlxalq ekspertlər də ölkənin Birinci xanımı Mehriban Əliyevanın bu istiqamətdə xoşməramlı səfir kimi fəaliyyətini xüsusilə vurğuladılar.

Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının uğurlu dövlət idarəçiliyi, onun başçılığı ilə aparılan kompleks islahatlar, bölgələrin inkişafına yönəldilən sosial -iqtisadi proqramlar, dünya iqtisadi sisteminə sürətli inteqrasiya, neft strategiyasının real nəticələri, qeyri-neft sektorunun dirçəldilməsi, düşünülmüş və balanslaşdırılmış xarici siyasət Azərbaycanın regionda lider dövlətə çevrilməsini şərtləndirir. Müasir dövrdə qadınlarımızın ölkə həyatında rolunu yüksək qiymətləndirən cənab Prezident İlham Əliyev demişdir: "Əminəm ki, cəmiyyət qarşısında öz məsuliyyətini bütün dərinliyi ilə dərk edən Azərbaycan qadını bundan sonra da müstəqil Respublikamızın tərəqqisinə böyük töhfələr verəcəklər". 2006-cı ildə Prezident İlham Əliyev cənablarının Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması bu fikrin əməli sübutudur. Eyni zamanda hüquqi bazanın yenidən təkmilləşdirilməsi və bərabər hüquqların təmin edilməsi üçün "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanunları qəbul olunmuşdu. Bu proses davam edir. 2014-cü ildə Azərbaycan Respublikasının Prezidentinin Sərancamı ilə "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair (2014 -2020-ci illər üçün) Dövlət Proqramı təsdiq edildi, eyni zamanda, **Ailə Məcəlləsinə dəyişiklik edilərək tərəflərin nikahdan əvvəl tibbi müayinədən keçməsi qüvvəyə mindi.**

Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, yoxsulluğun ləğv olunması, davamlı iqtisadi inkişafa nail olunması, bütün sahələrdə gender bərabərliyinin təmin olunması istiqamətində hökumətin həyata keçirdiyi tədbirlər öz bəhrəsini verir. Azərbaycan əhalisinin ümumi sayının 50,2%-ni təşkil edən qadınlar cəmiyyətin müxtəlif sferalarında çalışırlar. Onların əldə etdikləri ictimai – siyasi, elmi, mədəni, sosial – iqtisadi və digər sahələrdə əldə etdikləri uğurlar, bütövlükdə dövlətimizin nailiyyətidir. Azərbaycan Respublikasının 85 rayonu üzrə İcra Hakimiyyəti başçısının qadın müavinlərinin sayı artaraq 78-ə çatmışdır. Qadın hakimlərinin də sayı yüksələrək 65 olmuşdur. Ədliyyə orqanlarında işləyənlərin 1153 nəfəri qadındır, rəhbər vəzifələrdə çalışan qadınlar 84 nəfərdir. Notariuslardan 40 nəfəri qadındır. Diplomat qadınlarımızın sayı da artaraq 181 olmuşdur. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 28%, sahibkarlar arasında isə 19%-dir. Bədən tərbiyəsi və idmanla məşğul olanların 39,8%-i qadınlardır. Milli Məclisdə qadın millət vəkillərinin sayı da artır. Əgər 1990-cı ildə bütün deputatların 4,3%-ni, 2000-ci ildə 10,7%-ni qadınlar təşkil edirdisə, bu gün parlamentdə qadınların xüsusi çəkisi 16%-ə çatıb. 2009-cu ildə Bələdiyyə üzvü seçilmiş qadınların sayı əvvəlki seçkilərə nisbətən 5 dəfə artaraq 26,7% olub. Əvvəlki bələdiyyə seçkilərində bu göstərici 4% təşkil etmişdir. 2014- cü ildə isə bu göstərici 35%-ə qalxmışdır. Bütün bu göstəricilər qadınlarımızın ildən -ilə fəallığının artmasının bariz nümunəsidir. Qadınlarımızın imkan və bacarıqlarının reallaşdırılması, keyfiyyətli fəaliyyət göstərməsi vacibdir. Elə dövlətin əsas məqsədi də onların cəmiyyətin həyatında daha fəal iştirak etməsinə nail olmaqdır.

Azərbaycanda fəaliyyətdə olan ailə, qadın, uşaq yönümlü QHT-lər respublikada formalaşan vətəndaş cəmiyyətinin çox mühüm tərkib hissəsidir. Əgər 90-cı illərin əvvəlində bir neçə qadın təşkilatı var idisə, sonralar həm qadın məsələləri ilə məşğul olan QHT-lərin, həm də rəhbəri qadın olan QHT-lərin sayı artdı. Hazırda

200 qadın təşkilatı fəaliyyət göstərir. Mən, ailə, qadın və uşaq problemlərinə dair layihələrin həyata keçirilməsinə maliyyə dəstəyi vermiş Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının rolunu xüsusilə qeyd etmək istərdim. Həmçinin, 1998, 2003, 2008 və 2013-cü illərdə keçirilmiş Azərbaycan Qadınlarının Qurultayları ölkədə qadın hərəkatının fəallaşmasının təsdiqidir. Qeyd etmək lazımdır ki, qadınlarin siyasi fəallığı da artmaqdadır. Hazırda minlərlə qadın müxtəlif partiyaların sıravi və ya Siyasi Şurasının üzvü kimi fəaliyyət göstərir. Məsələn, Yeni Azərbaycan Partiyasının qadın üzvlərinin sayı ildən -ilə artır. Beləki, əgər 2010-cu ildə partiya üzvləri arasında qadınların xüsusi çəkisi 43,5%-idisə, 2014-cü ildə bu göstərici 46%-ə qalxmışdır. Onların arasında tanınmış elm, mədəniyyət və incəsənət xadimləri, iqtisadiyyat və digər sahələrdə çalışan qadınlar vardır. Siyasi partiyalarda və qeyri -hökumət təşkilatlarında fəaliyyət göstərən, rəhbər vəzifələrdə çalışan qadınların da sayının artması cox mühüm nailiyyətdir. Xüsusilə, həmin partiyalarda yaradılan qadın şuraları və yerlərdəki şöbələri öz fəallığı ilə fərglənirlər. Yeni Azərbaycan Partiyasının sədr müavini olan Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva bir çox ictimai -siyasi xadimlərə nümunə olacaq işlər görür. Onun təşəbbüsü və dəstəyi ilə yalnız Azərbaycanda deyil, Amerikada, Avropanın bir çox ölkələrində, Müstəqil Dövlətlər Birliyi respublikalarında, müsəlman ölkələrində bir sıra sosial, elm və təhsil, İKT, mədəniyyət sahələrində layihələr həyata keçirilir. Azərbaycan mədəniyyətinin, müsiqisinin, incəsənətinin, ədəbiyyatının, tarixinin dünyada tanınmasında Mehriban xanım Əliyevanın rolu danılmazdır. Məhz bir çox ölkələrin birinci xanımları onun fəaliyyətindən yararlanır, təcrübəsindən istifadə edirlər. Əlbəttə, bu, bizim üçün fəxrdir.

Bu gün Azərbaycanın beynəlxalq təşkilatlarla münasibətlərinin tənzimlənməsində yeni mərhələ başlanmışdır. Ölkənin iqtisadi inkişafı və siyasi nüfuzu onun beynəlxalq təşkilatlarla daha sıx əməkdaşlıq etməsinə gətirib çıxarmışdır. Azərbaycan dövləti aparıcı ölkələrdə keçirilən sessiyalarda, konfranslarda iştirak edərək yeni təcrübələrin öyrənilməsinə müsbət yanaşır. Bu tədbirlərdə Azərbaycan dövləti həmin təşkilatlara üzv olur, beynəlxalq sənədlərin qəbulu prosesində də fəal iştirak edir. Digər sahələrdə olduğu kimi, gender qadın hüquqlarının qorunması istiqamətində də Azərbaycan Respublikası bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. BMT-nin Avropa İqtisadi Komissiyası və Mərkəzi Asiya Ölkələrinin iqtisadiyyatı üzrə Xüsusi Proqram çərçivəsində bir neçə konfrans və forumlar keçirilmişdir. Azərbaycan Respublikası bu tədbirlərdə fəal iştirak etmişdir. Qeyd etmək istərdim ki, 2012-ci ildə birgə təşkilatçılıqla Qadın sahibkarların III Forumu da Bakıda keçirlmişdir. SPECA - ya sədrlik edən Azərbaycan regionda qeyd olunan məsələləri xüsusi diqqətdə saxlayır. 2014-cü ildə Bakıda Mərkəzi Asiya Ölkələrinin iqtisadiyyatı üzrə Xüsusi Proqram (SPECA) çərçivəsində qadın sahibkarlığının inkişafı üzrə Beynəlxalq Konfrans keçirildi. Konfransın əsas məqsədi beynəlxalq əməkdaşlığın genişləndirilməsi, qadın sahibkarların daha səmərəli fəaliyyəti üçün imkanların yaradılmasıdır. 2014-cü ildə digər mühüm bir tədbir isə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin nazirlərinin "İnkişafda qadınların rolu" mövzusunda V konfransının keçirilməsi oldu. Möhtərəm Prezident İlham Əliyev cənablarının Konfrans iştirkaçılarına müraciəti dövlətimizin bu məsələyə xüsusi maraq və diqqət göstərdiyini bir daha sübut etdi. Qeyd etmək lazımdır ki, gender bərabəliyi, qadınların imkanlarının genişləndirilməsi inkişafın fundamental əsasıdır və qloballaşma prosesində önəmli yer tutur. Qadınlar üçün uyğun şəraitin yaradılması, məşğulluq, sağlamlıq, təhsil və sosial siyasət sahəsində gender bərabərliyinin inkişaf etdirilməsi üçün belə tədbirlərin mühüm əhəmiyyəti vardır.

***Azərbaycan qadını öz fəaliyyətini maarifçilik və xeyriyyəçilik ideyalarının yayılmasından başlayaraq, mədəni, dini, milli -mənəvi dəyər və ənənələri də nəzərə almaqla davam etdirir. Bu qadınlar bütün tarixi dövrlərdə fəal iştirak edərək, cəmiyyətimizin inkişaf etməsinə öz töhfələrini vermişlər. Onların arasında görkəmli dövlət, elm, mədəniyyət və ictimai -siyasi xadimlər vardır. Qadınların cəmiyyətdəki yeri və rolunun mühüm göstəricisi onların müxtəlif dövlət vəzifələrini tutmaları və ümumiyyətlə, fəal əmək fəaliyyəti***

***ilə məşğul olmalarıdır. Hal -hazırda qadınlarımız dövlətin yaratdığı bütün imkanlardan istifadə edirlər. Sərbəst təhsil almaqla, fiziki hazırlıqlarını inkişaf etdirməklə, peşəkarlıq səviyyələrini artırmaqla bərabər, cəmiyyətin qurucusu kimi ictimai - siyasi proseslərin fəal iştirakçısına çevrilirlər.***

***Ümummilli Lider Heydər Əliyevin sözləri ilə desək: "Qadınlar cəmiyyətin bəzəyidir, gözəlliyidir. Qadınsız cəmiyyət ola bilməz, həyat ola bilməz. Azərbaycan qadınları öz ağıllarına, zəkalarına, biliklərinə, istedadlarına görə dünya qadınları içərisində özünəməxsus yer tuturlar. Ona görə də biz qadınlarımızla fəxr edirik".***

## *BMT-nin Qadınlara qarşı ayrı - seçkiliyin bütün formalarının ləğv olunması üzrə Konvensiya ilə bağlı növbəti ölkə hesabatına hazırlıq*

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması üzrə Konvensiya ilə bağlı ölkə hesabatının hazırlanması üçün dəyirmi masa keçirilmişdir. Dəyirmi masada Ombudsman Aparatı, YAP Qadınlar Şurası, qadın Qeyri -Hökumət Təşkilatlarının və Dini icmaların rəhbərləri, nümayəndələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova qeyd etdi ki, Azərbaycan Respublikası 1995 -ci ildə BMT-nin Qadınlara qarşı ayrı -seçkiliyin bütün formalarının ləğv olunması üzrə Konvensiyasına qoşularaq, qadınların sosial durumunun yaxşılaşdırılması və onların ictimai fəallığının yüksəldilməsi istiqamətində ölkədə mühüm addımlar atılmışdı. Respublika əhalisinin 50,2 %- ni təşkil edən qadınlarımız sosial və ictimai həyatın bütün sahələrində fəal iştirak edir və dövlətimizin inkişafı üçün öz töhfələrini verirlər. Bu il bizim üçün çox vacibdir. Ölkəmiz BMT-nin Qadınlara qarşı ayrı -seçkiliyin bütün formalarının ləğv olunması üzrə Konvensiya ilə bağlı növbəti hesabatı ərəfəsindədir. Əvvəlki hesabatlardan sonra edilən tövsiyələrin əksəriyyəti tez bir zamanda öz həllini tapmışdır. Qadın məsələsi çox incə və həssas məsələdir. Qadın hüquqlarının müdafiəsi istiqamətində müvafiq dövlət qurumları ilə yanaşı, müxtəlif QHT-lərlə əməkdaşlıq edilir. Vətəndaş cəmiyyətinin bu məsələdə fəallığı hiss olunur. Lakin bu iş birliyi daha sıx olmalıdır. Qadınların qərarqəbuletmədə və idarəetmədə iştirakı artıb və bu bizi sevindirir. Aparılan tədbirlərin nəticəsi olaraq, son bələdiyyə seçkilərində 35% qadın seçilmişdir. Halbuki bu rəqəm 2004 -cü ildə 4% idi. Biz növbəti parlament seçkilərində də qadın millət vəkillərinin sayının artacağına ümid edirik. Xüsusilə, qadın sahibkarlığının inkişafı istiqamətində müsbət nəticələr var, lakin bu sahədə də fəaliyyətimizi bir qədər gücləndirməliyik. Bunun üçün isə QHT-lərlə birgə maarifləndirmə işləri aparılmalıdır.

Ombudsman Aparatının rəhbəri Elmira Süleymanova bildirdi ki, ölkəmizdə qadınların qərarqəbuletmədə və idarəetmədə iştirakı yüksəlib, ictimai fəallığı artıb. Lakin hələ də bir sıra çətinliklər var. Və biz onları aradan qaldırmaq üçün mütəmadi iş aparmalıyıq. Həmçinin, E. Süleymanova qeyd etdi ki, digər dövlətlər Azərbaycanın müsbət təcrübəsindən faydalana bilərlər. Dəyirmi masada iştirak edən təşkilat rəhbərləri və nümayəndələri hesabatla bağlı bir sıra məsələləri müzakirə etdilər. Tədbir səmərəli və işgüzar şəraitdə keçmişdir.

## *Azərbaycan Hökumətinin Birləşmiş Millətlər Təşkilatının Qadınlara qarşı ayrı -seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyaya dair V Dövri Hesabatı dinlənilmişdi*





18 fevral 2015-ci il tarixdə Azərbaycan Hökumətinin Birləşmiş Millətlər Təşkilatının Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında

Konvensiyaya dair V Dövri Hesabatı Komitədə dinlənilmişdi.

İclasda ölkə hesabatının təqdim edilməsi məqsədilə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Hicran Hüseynovanın rəhbərliyi ilə geniş tərkibli nümayəndə heyəti ilə təmsil olunurdu. Nümayəndə heyətinin tərkibi Əmək və Əhalinin Sosial Müdafiə nazirinin müavini Natiq Məmmədov, Səhiyyə nazirinin müavini Elsevər Ağayev, Təhsil nazirinin müavini Firudin Qurbanov, İqtisadiyyat və Sənaye nazirinin müavini Sevinc Həsənova, Daxili İşlər nazirinin müavini Oruc Zalov, Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, Statistika Komitəsinin sədr müavini Yusif Yusifov, Maliyyə nazirliyinin şöbə müdiri Xaqani Rzayev, Ədliyyə nazirliynin idarə rəisi Faiq Qurbanov, Xarici İşlər nazirliyinin idarə rəisi Ramin Həsənov və digər ekspertlərdən ibarətdir. Nümayəndə Heyəti ilə yanaşı Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəsi, Fövqəladə və Səlahiyyətli səfiri cənab Murad Nəcəfbəyli də iştirak edirdi.

BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi Komitəsinin sədri xanım Yoko Hayaşi iclası açaraq, gündəlikdə Azərbaycan Respublikasının V dövrü Hesabatının dinlənilməsi məsələsini iştirakçıların nəzərinə çatdırdı.

Nümayəndə heyətinin rəhbəri xanım Hicran Hüseynova Azərbaycan Respublikasının hesabat dövri ərzində qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi sahəsində həyata keçirilən tədbirlər, qəbul edilən yeni qanunvericilik aktları, milli maarifləndirmə kampaniyaları və digər məsələlərlə bağlı ətraflı məruzə etdi. Xanım Hicran Hüseynova Heydər Əliyev Fondu və onun prezidenti tərəfindən reallaşan sosial xarakterli layihələri, son illərdə tikilən və əsaslı təmir olunan xəstəxanalar, məktəblər, uşaq bağçaları və bunların qadın hüquqlarının müdafiəsinə təsiri haqqında da məlumat verdi. Qeyd etmək lazımdır ki, beynəlxalq ekspertlər də ölkənin Birinci xanımı Mehriban Əliyevanın bu istiqamətdə xoşməramlı səfir kimi fəaliyyətini xüsusilə vurğuladılar.

İclasda həmçinin Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində qaçqın və məcburi köçkün düşmüş qadınların cəmiyyətə reinteqrasiyası və reabilitasiyası ilə bağlı məsələlər qaldırılmışdı. Bununla əlaqədar olaraq xanım Hicran Hüseynova dövlət tərəfindən həyata keçirilən tədbirlər və onların müsbət nəticələri haqqında ətraflı məlumat verdi. Eyni zamanda, dövlət komitəsinin sədri bu günlərdə 23 ili tamam olacaq Xocalı soyqırımından bəhs etdi.

Müzakirələr zamanı BMT komitəsinin ekspertləri ötən illərdən indiyə qədər Azərbaycan qadın hüquqlarının müdafiəsi sahəsində aparılan islahatları müsbət qiymətləndirdilər. BMT Komitəsinin nümayəndələri Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə gedən iqtisadi və sosial inkişafı, o cümlədən dövlət qadın siyasətinin həyata keçirilməsində atılan müsbət addımları yüksək qiymətləndirdilər. Beynəlxalq ekspertlər Azərbaycanda qadın hüquqlarının müdafiəsini və gender bərabərliyinin təmin edilməsi ilə bağlı tövsiyyə və təkliflərini verdilər.

## *Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə birgə "Gənclərin peşə seçiminin gender aspekləri" adlı Konfrans keçirmişdir*



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə birgə Azərbaycan Texniki Universitetində "Gənclərin peşə seçiminin gender aspekləri" adlı Konfrans keçirib.

Tədbirdə AzTU-nun rektoru, professor Havar Məmmədov mövzunun aktuallığından, əhəmiyyətindən danışıb. Rektor ulu öndər Heydər Əliyevin yaratdığı Komitənin ölkəmizdə

gördüyü işləri yüksək qiymətləndirib. Bildirilib ki, ölkəmizdə qadınlar dövlət və hökumət strukturlarında, eləcə də elm və təhsil sahələrində aparıcı mütəxəssis kimi fəaliyyət göstərirlər. Hazırda AzTU-da təhsil alan tələbələrin də 25 faizini qızlar təşkil edir. Bu göstərici universitetin tarixində ilk dəfə qeydə alınıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Hicran Hüseynova cəmiyyətdə qadınların rolundan, rəhbərlik etdiyi qurumun bu sahədə gördüyü işlərdən söz açıb. Bildirilib ki, bu günlərdə ölkəmiz BMT-nin "Qadınlara münasibətdə ayrı -seçkiliyin bütün formalarının ləğvi" barədə Konvensiyasının beşinci dövri hesabatını verib. Hesabatda müzakirə olunan məsələlərin sırasında qızların təhsil alması da var. Azərbaycan 20 il bundan əvvəl Pekin Platformasına qoşulub və 12 istiqamət üzrə öhdəlik götürüb ki, onlardan biri də qız və qadınların təhsil almaları üçün bərabər imkanların yaradılmasıdır.

Təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, gender müxtəlifliyi təhsilalma prosesində öz təsirini göstərir. Təhsil maraqları qızlar və oğlanlar arasında müxtəlifdir. Oğlanlar adətən daha çox təbiət, texniki, humanitar fənlərə, qızlar isə daha çox humanitar fənlərə və tibb sahəsinə meyillidirlər. Son illər texniki profilli təhsil müəssisələrində qızların sayı artmaqdadır. Nazirlik gender məsələləri ilə bağlı ali və orta təhsil müəssislərində davamlı maarifləndirmə işləri aparır.

TQDK-nın sədri Məleykə Abbaszadə bildirib ki, təhsil kişilərlə qadınların hüquq bərabərliyini təmin edən təməldir. TQDK 1992-ci ildən qəbul imtahanları keçirir. 1996-cı ildən başlayaraq komissiyanın elmi -statistik araşdırmalarında gender aspektləri nəzərə alınır. TQDK tərəfindən aparılan bütün işlər təkcə Komissiyanın fəaliyyətinə təsir göstərmir. Toplanılan məlumat bazalarından, həyata keçirilən elm i-statistik araşdırmaların nəticələrindən bütün ictimaiyyətin faydalanması üçün imkanlar yaradılır. TQDK –nın sədri bildirib ki, bu il ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün 97 min 362 abituriyent ərizə verib. Onların 52,43 faizi oğlan, 47, qadınların 57 faizi isə qız olub.

Konfransda həmçinin gənclərin peşə seçimində problemlər, məşğulluq, gənclərin idmanda, sosial həyatda inkişafı və digər mövzularda müzakirələr aparılıb, bu istiqamətdə birgə layihələrin həyata keçirilməsi ilə bağlı təkliflər səsləndirilib.

## *Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının qəbul olunmasının 20 illiyinə həsr olunmuş tədbir keçirilib*




Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 8 Mart Beynəlxalq Qadınlar Gününə , Pekin Bəyannaməsi və Fəaliyyət
1995-ci ildə dünyanın 189 ölkəsinin iştirakı ilə keçirilmiş IV Ümumdünya Qadın Konfransında Pekin Bəyyannaməsi və Fəaliyyət Platforması qəbul edilmişdir. 20 il bundan öncə, Ümummilli Lideri Heydər Əliyevin səyi nəticəsində, Azərbaycan Qadınları Pekin Konfransında başda Fatma Abdullazadə olmaqla 25 hökümət və 70 QHT nümayəndəsi ilə birgə yüksək səviyyədə təmsil olunmuşlar.

Pekin Bəyannaməsi və Fəaliyyət Platforması bütün dünya qadınlarının hüquqlarının qorunacağını, sülhə və gender bərabərliyinə nail olmaq üçün inkişaf proseslərində yaxından iştiraklarına mane olan amillərin aradan qaldırılacağını bəyan etmişdir.

Platformanın əsas məqsədi qadınların siyasi, iqtisadi və sosial vəziyyətlərinin yaxşılaşdırılmasından ibarətdir.

Ulu öndər H.Əliyevin apardığı dövlət qadın siyasətinin davamı olaraq, möhtərəm prezidentimiz İlham Əliyev cənabları mütəmadi olaraq qadınlara xüsusi diqqət, qayğı göstərir, onların əməyini yüksək səviyyədə qiymətləndirir.

Ənənəvi olaraq bu il də tədbirdə möhtərəm prezidentimizin qadınlara təbrik məktubu səsləndirildi və Azərbaycan elminin və mədəniyyətinin inkişafında öz sözlərini demiş, eləcə də ictimai -siyasi sahədə mühüm xidmətləri olan bir qrup qadına Prezident təltifləri təqdim olundu.
Pekin Konfransının 20 illiyinə həsr olunmuş qısametrajlı FİLM hazırlanmış və tədbirdə nümayiş olunmuşdur. Həmçinin Pekin konfransında iştirak edən qadınlara Komitə tərəfindən xatirə hədiyyəsi təqdim olunmuşdur.
Hər il olduğu kimi bu il də dövlət ailə, qadın və uşaq siyasətinin həyata keçirilməsi sahəsində səmərəli fəaliyyət göstərmiş tanınmış ziyalılar Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mükafatlandırılmışlar. Tədbirdə xanımlarımıza 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycanın bir qrup tanınmış ziyalılarının, mədəniyyət və incəsənət xadimlərinin video təbriki səsləndirilmişdir.
Bədii hissədə məşhur müğənnilərin, uşaqların, rəqs qruplarının iştirakı ilə konsert proqramı keçirilmişdir.

## *“Qadın: ailə və cəmiyyət” mövzusunda “dəyirmi masa”*



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində ölkəmizdə səfərdə olan Çin Xalq Respublikası Ümumçin Qadınlar Federasiyasının nümayəndə heyətinin iştirakı ilə “Qadın: ailə və cəmiyyət” mövzusunda “dəyirmi masa” keçirilib.
“Dəyirmi masa”da Azərbaycan və Çin arasında möhkəm dostluq və iqtisadi, sosial, mədəni sahələrdə geniş əməkdaşlıq münasibətlərinin olduğunu deyən Komitənin sədri Hicran Hüseynova dövlətimizin qadın siyasəti haqqında məlumat verib.
Diqqətə çatdırılıb ki, müasir dövrdə qloballaşma şəraitində dünyanın bir çox, hətta inkişaf etmiş ölkələrində demək olar ki, eyni problemlərə rast gəlinir: miqrasiya və urbanizasiya prosesi, onun mənfi və müsbət tərəfləri, qaçqın və məcburi köçkünlər, qadınlara və uşaqlara qarşı zorakılıq, erkən nikah və s. Bu problemlərin həll olunmasında qadınların rolu böyükdür.
XX əsrin sonlarında iqtisadi keçid dövrünün ciddi problemləri, Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızın 20 faizinin işğal olunması, ölkədə bir milyondan artıq Azərbaycan vətəndaşının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi çətin ictimai -siyasi vəziyyət yaratmışdı. Onların 400 mindən çoxunu qadınlar, 300 mindən artığını isə uşaqlar təşkil edirdi. Bütün bu çətinliklərə baxmayaraq, qadınlarımız özlərində güc tapmağı bacardılar. Onlar Azərbaycanın inkişafı və müstəqilliyinin gücləndirilməsi prosesində fəal iştirak etməyə başladılar.
Məlumat verilib ki, Azərbaycan əhalisinin 50,2 faizini təşkil edən qadınlar cəmiyyətin müxtəlif sferalarında çalışır. Hazırda qadınlarımız həm idarəetmədə, həm də qərarqəbuletmədə təmsil olunurlar. Azərbaycanın 85 rayonu üzrə icra hakimiyyəti başçısının qadın müavinlərinin sayı artaraq 78-ə çatıb. Bələdiyyə üzvü seçilmiş qadınların sayı əvvəlki seçkilərə nisbətən artaraq 35 faizə qalxıb. Milli Məclisdə deputatların 16 faizini qadınlar təşkil edir. Hüquq mühafizə orqanlarında, elm, mədəniyyət, idman və digər sahələrdə də qadınlarımızın sayı ildən-ilə yüksəlir.
Federasiya katibliyinin rəhbəri xanım Tszyano Yan Azərbaycanda gender siyasətinin həyata keçirilməsi istiqamətində qazanılan uğurları yüksək qiymətləndirib və bu sahədə əməkdaşlığın genişləndirlməsinin vacibliyini vurğulayıb.
Daha sonra Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva bildirib ki, ölkəmizin siyasi, iqtisadi, sosial baxımdan inkişafı, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, bütün sahələrdə gender bərabərliyinin təmin olunması Azərbaycan qadınının özünü reallaşdırması üçün, eləcə də ictimai həyatın bütün sahələrində fəal iştirakı üçün imkanlar yaradır. Bu isə Azərbaycan dövləti tərəfindən aparılan güclü qadın siyasətinin məntiqi nəticəsidir.

## *“Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizin, bu günümüzün, gələcəyimizin dayağıdır” mövzusunda məqalə müsabiqəsi*

2015-ci il may ayının 6-da Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Azərbaycan xalqının Ümummilli Lideri, müasir dövrün görkəmli siyasi xadimi Heydər Əliyevin xatirəsinə həsr olunmuş “Qadınlar dövlətimizin,dövlətçiliyimizin,müstəqilliyimizi, bu günümüzün, gələcəyimizin dayağıdır” mövzusunda məqalə müsabiqəsi keçirilib.
Müsabiqədə Prezident Administrasiyasının İctimai -Siyasi Məsələlər şöbəsinin məsul işçisi Vüqar Səlimov, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu, millət vəkili



Gülçöhrə Məmmədova, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid, fəlsəfə elmləri doktoru Rəna Mirzəzadə, modelyer Fəxriyyə Xələfova, jurnalist Flora Xəlilzadə və digər nümayəndələr, jurnalistlər iştirak ediblər.
Tədbiri giriş sözləri ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova açaraq bildirib ki, müsabiqənin keçirilməsində məqsəd Ümumilli Lider Heydər Əliyevin Azərbaycan qadını haqqında söylədiyi fikir və tövsiyələri dövlət qadın siyasətinin inkişaf istiqamətlərinin proqramı kimi gənclər arasında təbliğ etmək, istedadlı jurnalistlərin yaradıcılıq imkanlarının aşkar olunmasına şərait yaratmaqdır. Hicran Hüseynova həmçinin qeyd edib ki, həyatımızın hər anını əhatə edən informasiya məkanında gender, qadın və uşaq hüquqları, məişət zorakılığı kimi spesifik yanaşma və məsuliyyət tələb edən mövzularda bəzən jurnalistlər məlumatları tam araşdırmadan, subyektiv formada çatdırırlar ki, bu da insanlara səhv informasiyaların çatdırılmasına və bir sıra xoşagəlməz halların yaranmasına gətirib çıxarır. Bu səbəbdən maarifləndirici müsabiqələrin keçirilməsində məqsəd var.
Prezident Administrasiyasının İctimai -Siyasi Məsələlər şöbəsinin məsul işçisi Vüqar Səlimov öz çıxışında dövlətin qadın siyasətinə olan xüsusi qayğısından, qanunlardan, fərman və sərəncamlardan bəhs edərək bildirib ki, Azərbaycanda qadınlarla bağlı məsələlərə dövlətin xüsusi diqqət göstərməsi onlara olan dəyərin göstəricisidir. Daha sonra “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu ölkənin ictimai həyatında qadınların fəal iştirakından söz açıb və bildirib ki, jurnalistikada qadınların hüquqlarının müdafiəsi məsələsi ayrıca bir mövzudur. Tədbirdə, həmçinin millət vəkili Gülçöhrə Məmmədova, Rəşad Məcid, Rəna Mirzəzadə, Flora Xəlilzadə çıxış etmiş, bu müsabiqənin əhəmiyyətindən, mövzunun aktuallığından bəhs edərək bildirmişlər ki, Azərbaycan qadınları qərarqəbuletmədə, dövlət əhəmiyyətli tədbirlərdə təmsil olunurlar.
Müsabiqənin sonunda qaliblər mükafatlandırılıblar. 1-ci yerə Ağayeva Məhsəti (“Aran” qəzeti”), 2-ci yerə Cəfərova Aygün (“Kaspi”), Zeynalov Zamin (“Millixəbər.az”), 3-cü yerə Kərimova Səadət (“Hacıqabul” qəzeti), Əliyeva Fərəh (“Bakupost.az”) layiq görülüblər

## *“Böyük Vətən Müharibəsində Qadınların roluna həsr olunmuş Beynəlxalq Elmi -Praktik Konfrans”*

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Respublika Veteranlar Şurası ilə birgə 1941-45-ci illər Böyük Vətən Müharibəsində Qələbənin 70 illiyi münasibətilə “1941-45-ci illər Böyük vətən Müharibəsində Qadınların Roluna həsr olunmuş Beynəlxalq Elmi-Praktik Konfrans” və “İgid oğullarla bir cərgədə” Ensiklopedik toplunun təqdimatı keçirilib.

Konfransın keçirilməsində məqsəd Böyük Vətən müharibəsində ön və arxa cəbhələrdə qəhrəmanlıq göstərmiş, müharibə illərinin bütün məşəqqətlərini, ağrı-acılarını zərif çiyinlərində daşıyan, qələbənin qazanılmasında əhəmiyyətli rol oynamış qadınlarımızın rolunu qiymətləndirməkdir. Konfransda həmçinin “İgid oğullarla bir cərgədə” Ensiklopedik toplunun təqdimatı oldu. Kitabda 1941-45 ci illər Böyük Vətən Müharibəsində ön və arxa cəbhələrdə qəhrəmanlıq göstərmiş Azərbaycanda yaşayan veteran qadınlardan bəhs olunur.




Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Böyük Vətən müharibəsində Azərbaycanın igid, mərd oğulları ilə yanaşı, qadınların və qızların da qəhrəmanlıq göstərdiklərini, ön və arxa cəbhədə, hətta dövlət işlərində yaxından iştirak etdiklərini bildirib, faşizm üzərində qələbədə onların özünəməxsus rolunu vurğulayıb. Böyük Vətən müharibəsi illərindən danışan AMEA-nın prezidenti, akademik A.Əlizadə görkəmli alim, neft -kimya elminin banilərindən biri, akademik Yusif Məmmədəliyevin rəhbərliyi altında kimyaçı alimlərin faşizm üzərində tarixi qələbəyə verdiyi töhfələrdən bəhs edib. Eyni zamanda, İnsan Hüquqları üzrə Müvəkkil, Ombudsman Elmira Süleymanova, millət vəkili Ziya Səmədzadə, AMEA-nın Humanitar elmlər bölməsinin akademik katibi Teymur Kərimli, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun şöbə müdiri Rəna Mirzəzadə, “İgid oğullarla bir cərgədə” adlı ensiklopedik Toplunun müəllifi Sabir Gəncəli-Məmmədov, Respublika Veteranlar Təşkilatının sədri Dadaş Rzayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Aynur Veysəlova, Leninqrad blokadasının iştirakçısı İrina Kadımova və digər şəxslər çıxış etdilər. Onlar Böyük Vətən müharibəsində ön və arxa cəbhələrdə qəhrəmanlıq göstərmiş Azərbaycanda yaşayan veteran qadınların rolundan danışdılar. Qeyd olundu ki, qələbə uğrunda vuruşan, şəhid olan insanların xatirəsi əbədi olaraq yaddaşlarda yaşayır, onların şərəfli həyat yolu gənc nəslə nümunədir. Sonda Böyük Vətən müharibəsi iştirakçıları mükafatlandırıldı və onlara diplomlar təqdim olundu.





## *Qadınlara qarşı ayrı seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Komitənin (CEDAW) Azərbaycana verdiyi son tövsiyələrin icrası ilə bağlı konfrans keçirilib*




Oktyabrın 21-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə konfrans keçirilib.

Konfransda BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Komitəsinin (CEDAW) Azərbaycan ilə bağlı son tövsiyələrinin icrası məsələləri müzakirə olunub.

Konfrans müxtəlif dövlət qurumlarının təmsilçiləri, QHT rəhbərləri və ictimai xadimlər iştirakı ilə baş tutub. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Komitənin (CEDAW) ölkəmizə verdiyi tövsiyələrdən danışan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova bu istiqamətdə Azərbaycanın gördüyü işlər haqda məlumat verib. Komitə sədri xanım Hicran Hüseynova ölkəmizdə qadınların qarşılaşdığı məsələlər haqqında danışaraq bildirib ki, Azərbaycanda erkən nikah faktları digər dövlətlərlə müqayisədə çox azdır. O həmçinin qeyd edib ki, insanlar özləri erkən nikaha qarşı çıxış etməyincə, rəsmi strukturların apardığı işlərin xeyri olmayacaq.

Komitə sədri son illər ərzində qadınların əldə etdiyi nailiyyətlərdən və bugünkü tədbirin əhəmiyyətindən danışıb. Diqqətə çatdırıb ki, Azərbaycanda diplomat qadınların sayı artaraq 181-ə çatıb. Ölkədə 85 rayon İcra Hakimiyyəti başçısının qadın müavinlərinin sayı artaraq 78, qadın hakimlərin sayı 65-ə çatıb. Ədliyyə orqanlarında işləyənlərin 1153 nəfəri, rəhbər vəzifələrdə çalışanların 84 nəfəri, notariusda çalışanların isə 40 nəfəri qadındır. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 28, sahibkarlar arasında 19 faizdir. Bədən tərbiyəsi və idmanla məşğul olanların 39,8 faizi qadınlardır.

Konfransda BMT-nin Əhali Fondunun (UNFPA) Türkiyədəki nümayəndəsi, Azərbaycan, Gürcüstan və Ermənistan üzrə yeni təyin olunmuş regional direktoru Karl Kulessa qeyd edib ki, Azərbaycanda məişət zorakılığına ilə mübarizə üzrə qanun qəbul edilməsi təqdirəlayiqdir və qanunvericiliyin qəbul edilməsi mühüm bir addımdır. Diqqətə çatdırıb ki, qanun tam icra olunması da çox vacibdir. O bildirib ki, qadınlara və qızlara qarşı zorakılıq insanlığın ən utancverici insan haqları pozuntusu halıdır. İllər ərzində bir sıra ölkələr ya yeni qanunlar qəbul ediblər, ya da mövcud qanunları təkmilləşdiriblər. Lakin qanunların icrası ilə bağlı müəyyən problemlər var. Bir sıra ölkələr bu istiqamətdə öhdəliklərini yerinə yetirə bilmirlər. Bu istiqamətdə razılaşdırılmış və geniş tədbirlər həyata keçirilməli, qadınların səlahiyyətləri artırılmalıdır.

K.Kulessa onu da qeyd ki, siyasi iradənin olması və səhiyyə sahəsində qadınlara imkanların yaradılması olduqca vacib məsələlərdəndir. Diqqətə çatdırıb ki, qadınlara qarşı zorakılıq cəmiyyətdə qadınlara və kişilərə fərqli yanaşmadan irəli gəlir.

Daha sonra çıxış edən Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Hikmət Eyvazov zorakılıq nəticəsində qeydə alınmış faktlar haqqında məlumat verərək bildirib ki, törədilən cinayətlərin 1780-i zorakılıqla bağlıdır. “Cinayət törədənlərin 49-u yetkinlik yaşına çatmayanlardır. Qısqanclıq zəminində qadınlara qarşı törədilən cinayətlərin sayı 600-dür. Bununla yanaşı, qadınlara qarşı cinayət törətmiş 2630 şəxs məsuliyyətə cəlb edilib”. H.Eyvazov həmçinin qeyd edib ki, bu ilin doqquz ayı ərzində qadınlar tərəfindən 1050 cinayət törədilib ki, bunlardan 70-i də qəsdən törədilib.

Daha sonra İqtisadiyyat və Sənaye nazirinin müavini Sevinc Həsənova ölkəmizdə sahibkar qadınların sayının artdığını bildirərək qeyd edib

ki, ölkə rəhbərliyi tərəfindən bu istiqamətdə müvafiq tədbirlər görülür. O, həmçinin son 3 ildə sahibkarlıqla məşğul olan qadınların sayının 17%-dən 19%-ə qalxdığını vurğulayıb.

Tədbirdə qarşıdakı dövrdə əməkdaşlıq istiqamətləri və s. məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.







## *“Məişət zorakılığının qarşısının alınması” mövzusunda beynəlxalq konfrans*

Noyabrın 13-də Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və BMT-nin Əhali Fondunun birgə təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilmişdi. Tədbirdə BMT-nin Əhali Fondunun icraçı direktoru, BMT baş katibinin müavini Babatunde Osotimehinin başçılığı ilə nümayəndə heyəti ilə bərabər, Azərbaycanın dövlət və hökumət rəsmiləri, vətəndaş cəmiyyəti və ictimaiyyətin tanınmış nümayəndələri iştirak etmişdilər.





Konfransı açıq elan edən Azərbaycan Respublikası Baş nazirinin müavini cənab Elçin Əfəndiyev çıxışında qadınlara qarşı zorakılığının qarşısının alınması sahəsində Hökumətin həyata keçirdiyi layihələrini və qəbul olunmuş yeni qanunvericilik aktları haqqında konfrans iştirakçılarına ətraflı məlumat təqdim etmişdi.

Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Hicran Hüseynova çıxış edərək deyib ki, bu gün planetin ən mühüm problemlərindən biri olan məişət zorakılığının qarşısının alınması üçün dövlət dəstəyi və güclü qanunvericilik bazası ilə yanaşı, cəmiyyət özü, xüsusilə vətəndaş cəmiyyəti zorakılıq hallarına adekvat reaksiya verməlidir. Yalnız birgə səylərlə əməli nəticələr əldə etmək mümkündür. Komitə sədri xüsusi qeyd edib ki, ölkəmizdə də qadınların sosial durumunun yaxşılaşdırılması və onların ictimai fəallığının yüksəldilməsi istiqamətində mühüm addımlar atılıb. Son illərdə dövlət qadın siyasətinin gücləndirilməsi, eləcə də hüquqi bazanın yenidən təkmilləşdirilməsi istiqamətində qəbul olunan qanunlar bir daha göstərdi ki, Azərbaycanda bu proses davamlı olub və heç bir mərhələdə dayanmayıb. Xüsusilə də Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə gedən iqtisadi və sosial inkişafı, o cümlədən dövlət qadın siyasətinin həyata keçirilməsində əldə olunan nailiyyətlər diqqətə çatdırılıb.

Mövzunun aktuallığını qeyd edən BMT-nin Əhali Fondunun icraçı direktoru, BMT baş katibinin müavini Babatunde Osotimehin bildirib ki, heç bir qadın tərəqqidən geridə qalmamalıdır. Qadın və qızlara qarşı zorakılıq hallarına qarşı ciddi tədbirlər görülməlidir. Nikah yaşının Azərbaycanda 18 yaş kimi qəbul edilməsi isə təqdirəlayiq haldır. Azərbaycan qadın və uşaq hüquqlarının qorunması istiqamətində fədakarlıq nümayiş etdirir. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ilə dünənki görüşdə mən bunun əyani şahidi oldum”, – deyə Babatunde Osotimehin bildirib.

Konfransda eyni zamanda Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov və digər qurumların rəsmi şəxslərinin iştirakı ilə müvafiq mövzu ətrafında müzakirələr aparılıb.

Qeyd edək ki, Türkiyənin ailə və sosial siyasət nazirinin müavini Əbubəkir Şahin başda olmaqla ölkəmizdə rəsmi səfərdə olan nümayəndə heyəti də konfransda iştirak edib. Konfransdan sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri xanım Hicran Hüseynovanın Türkiyə rəsmiləri ilə görüşü keçirilib. Görüşdə konfransın mövzusuna dair geniş fikir mübadiləsi aparılıb, qonaqları maraqlandıran bir sıra məsələlərə aydınlıq gətirilib. Azərbaycanın artıq çoxdan mühüm beynəlxalq tədbirlər keçirilən məkana çevrildiyini qeyd edən H.Hüseynova vurğulayıb ki, Azərbaycan qadınları ölkədə həyata keçirilən möhtəşəm layihələrdə fəal iştirak edirlər. Azərbaycanda qadın hüquqlarının qorunması, qadınların iqtisadi müstəqilliyinin artırılması, dövlət siyasətinin həyata keçirilməsində onların rolunun güclənməsi istiqamətində mühüm addımlar atılıb.

Əbubəkir Şahin Türkiyənin ailə və sosial siyasət naziri Ayşənur İslamın Hicran Hüseynovaya şəxsi salamını çatdıraraq vurğulayıb ki, Türkiyə və Azərbaycan ortaq tarixi, mədəni və dini köklərə malikdir. Ölkələrimiz arasında bu sahədə əlaqələrin genişləndirilməsi üçün böyük potensial olduğunu bildirən nazir müavini qadın hüquqlarının müdafiəsi, tibbi və sosial xidmətlərdən istifadə imkanlarının artırılması, qadınlara münasibətdə zorakılığın qarşısının alınması məsələlərinə dair beynəlxalq forumlarda Azərbaycan rəhbərliyinin dəstəyinin vacibliyini qeyd edib.

Dünyanın hər yerində uşaqlara qayğı və onların qorunması xüsusi əhəmiyyət kəsb edir. Hər bir ölkə uşaqları qorumağı, uşaqları müdafiə etməyi özünün əsas vəzifəsi hesab edir.

Uşaq hüquqlarının təmin edilməsi, onların poblemlərinin həlli ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Respublikamızın güclü iqtisadi inkişafı sosial problemlərin həlli üçün etibarlı zəmin yaradır. Bu baxımdan, son illərdə uşaqların sağlamlığının möhkəmləndirilməsi, onların müasir tələblər səviyyəsində təhsil alması, sağlam ailə mühitində yaşaması üçün mühüm sosial layihələr həyata keçirilir. Qlobal iqtisadi böhran fonunda 2009- cu ilin möhtərəm prezidentimiz tərəfindən "Uşaq ili" elan edilməsi təsadüfi deyil. Bu, uşaq siyasəti istiqamətində əlavə tədbirlərin həyata keçirilməsinə geniş imkanlar açır, dövlət orqanlarının və vətəndaş cəmiyyətinin diqqətini bir daha uşaq porblemlərinə cəlb edir. Uşaqların hərtərəfli inkişafında, intellektual və hüquqi biliklərə yiyələnməsində Ümumrespublika Uşaq Forumlarının xüsusi rolu var. Uşaqların öz hüquq və mənafeləri ilə bağlı qərarların qəbul olunmasında iştirakının təmin edilməsi ilə əlaqədar keçirilən (2009; 2011 və 2014-cü illər) forumlar Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və UNİCEF-in Azərbaycan nümayəndəliyinin dəstəyi ilə reallaşmışdır. Artıq ənənənə xarakteri daşıyan bu Forum onunla əlamətdardır ki, Forumun işini əvvəldən axıradək uşaqlar idarə edir, dövlət rəsmilərinə onları maraqlandıran suallarla müraciət edə bilir, həmçinin hökumətə öz hüquqları ilə bağlı istək və arzularını çatdırırlar. Burada vacib məqamlardan biri də forumlararası Əlaqələndirmə Şurasının işinin daha da təkmilləşdirilməsidir. Bunun üçün Bakı şəhərinin hər bir rayonunda məktəblərdə uşaq hüquqları ilə bağlı xüsusi təlimlər keçirilir. Hər məktəbdən bir nəfər olmaqla şəbəkənin yaradılması və uşaqların fəallığının artırılması və bu sahədə dövlət siyasətinin həyata keçirilməsində uşaqların fəal iştirakının təmin edilməsi əsas məsələlərdən biridir. Qeyd etmək istərdim ki, "Gələcək" Uşaqların İnkişafına Dəstək İctimai Birliyinin yaradılması bu məqsədə nail olmaq üçün göstərilən gözəl təşəbbüslədən biridir.

Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasəti artıq milli strategiya kimi formalaşmaqdadır. Bu siyasətin davamı olaraq ölkə Prezidenti cənab İlham Əliyev və ölkənin Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti, Millət Vəkili Mehriban xanım Əliyevanın uşaq məsələlərinə diqqəti bu sahəyə qayğının daha da artmasına səbəb olmuşdur. Heydər Əliyev Fondu uşaqların hərtərəfli inkişafı, onların keyfiyyətli təhsil, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması, uşaq problemlərinin həlli istiqamətində önəmli layihələr həyata keçirməkdədir. **Fondun təşəbbüsü ilə 30-a yaxın uşaq evi və internat məktəbində tərbiyə alan kimsəsiz və istedadlı uşaqlar diqqət və qayğı ilə təmin olunmuşlar.** "Ən gözəl təmir olunan uşaq evi, ən müasir internat məktəbi heç vaxt ailəni, ailə mühitini əvəz edə bilməz" deyən Mehriban xanım hər il internat və uşaq evlərində tərbiyə alan, həmçinin qaçqın və məcburi köçkün uşaqlar üçün bayram şənlikləri keçirirmişdir. Bu tədbirlər neçə-neçə qəlbi sınmış uşaq ovundurmağa, ağlamaqdan göz yaşları qurumuş gözlərin gülməsinə səbəb olmuşdur.

Məktəbəqədər yaşlı uşaqların intellektual, fiziki və psixoloji inkişafının, onların şəxsiyyətinin hərtərəfli formalaşmasının və məktəbə hazırlığının təmin edilməsi, uşaqların yaradıcılıq mühitində böyüməsi və idmanla məşğul olması üçün zəruri şəraitin yaradılması prioritet istiqamətlər sırasındadır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlara, habelə aztəminatlı, çoxuşaqlı, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlara dövlət qayğısının göstərilməsi də önəm daşıyır.

Bildiyiniz kimi, bu siyasətin reallaşmasında güclü qanunvericilik bazasının yaradılması çox vacibdir. Öz müstəqilliyini elan etdikdən sonra Azərbaycan Respublikası BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına və bu Konvensiyanın 2 Əlavə Fakültativ Protokollarına qoşulmuşdur. Keçən dövr ərzində davamlı olaraq milli qanunvericilik və normativ -hüquqi aktlar təkmilləşdirilmiş, uşaq hüquqlarının müdafiəsi, uşaqların normal formalaşması, sağlam böyüməsinə yönəldilmiş bir çox Dövlət Proqramları, Tədbirlər Planları qəbul edilmişdir.

Bu proqramlar uşaqların hüquq və maraqlarının müdafiəsi, vahid dövlət uşaq

siyasətinin formalaşdırılması, bu siyasətin tənzimlənməsi, həyata keçirilməsinin təmin edilməsi, uşaqların fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazımi həyat səviyyəsinin təmin olunması sahəsində milli konsepsiyasını inkişaf etdirməyə yönəldilmişdir. Qeyd etmək lazımdır ki, uşaq hüquqları sahəsində qanunvericilik bazası ildən -ilə daha da gücləndirilir və ötən il bu baxımdan əhəmiyyətli olmuşdur. Belə ki, Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair (2014 -2020-ci illər üçün), İnsan alverinin qurbanı olmuş uşaqların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası üzrə Proqramlarqəbul edilmişdir. "Diri doğulmanın beynəlxalq meyarları"nın tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 oktyabr 2014-cü il tarixli, 340 saylı Qərarı qüvvəyə minmişdir.

Bildiyiniz kimi, 2012-ci il mayın 8-də Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilmişdir. 2013-cü ildə keçirilən görüşdən sonra dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilmiş, monitorinq qrupu yaradılmışdır.Dövlət müəssisələrində uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruzqalma və digər məsələlərlə bağlı monitorinqi aparılmış, nəticələr araşdırılmışdır. Bütün məlumatlar Komitədə ümumiləşdirilmiş, tövsiyələr hazırlanmış və Nazirlər Kabinetinə çatdırılmışdır. 2014 -cü il ərzində 8 müəssisədən 5 -də monitorinqlər aparılmışdır, digər 3 müəssisədə isə keçirilməsi nəzərdə tutulur. Şikayət əsasında, əlavə olaraq, 2 növbədənkənar yoxlama keçirilmişdir.

Uşaqların müəssisələrə düşməsinin qarşısının alınması sahəsində əhalinin məlumatlandırılması ötən il də prioritet istiqamətlərdən olmuşdur. Komitənin regionlarda fəaliyyət göstərən mərkəzlərində həssas təbəqədən olan uşaqlar və onların ailələri üçün "açıq qapı" məsləhətləşmələri təşkil edilmişdir. Həmçinin Komitə tərəfindən valideyin himayəsindən məhrum uşaqların valideynləri ilə birgə görüşünü nəzərdə tutan maarifləndirmə tədbirləri keçirilmişdir. Onların fəaliyyəti nəticəsində 6 uşaq ailəsinə geri qaytarılmışdır, 7 uşağın müəssisəyə düşməsinin, 10 yaxın erkən nikahın qarşısı alınmışdır. Erkən nikah hallarının qarşısının alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və aparılan maarifləndirmə tədbirləri belə nikahların azalmasına səbəb olmuşdur

2013-cü ildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında təsdiq edilmiş "Uşaq əməyinin istismarının qarşısının alınması sahəsində Birgə Tədbirlər Planı"na əsasən uşaq əməyinin istismarı ilə üzləşən uşaqların hüquqlarının müdafiə edilməsi ilə bağlı tədbirlər həyata keçirilmişdir. Bu sahədə aparılan həm nəzarət həm də maarifləndirmə tədbirləri nəticəsində uşaq əməyinin istismarı hallarınının sayında azalma müşahidə edilməkdədir.

Uşaqların sağlamlıq hüququnun təmin edilməsi sahəsində "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın icrası ilə bağlı müvafiq tədbirlər görülmüşdür. Və respublikada uşaqların doxsan faizi tibbi müayinədən keçirilmişdir. Şəkərli diabet üzrə Dövlət Proqramı çərçivəsində min dörd yüzə yaxın uşaq şəkər əleyhinə dərman preparatları ilə təmin olunur və eyni zamanda, həmin uşaqlar Heydər Əliyev Fondunun dəstəyi ilə yay istirahət düşərgələrinə göndərilir. Azərbaycan talassemiyanın geniş yayıldığı hesab edilən ölkələr sırasındadır. Hər il Respublikada üç yüzə yaxın uşaq bu xəstəliklə doğulur. Son illər talassemiyanın profilaktikası və bu xəstəlikdən əziyyət çəkən insanların, eləcə də uşaqların müalicəsi istiqamətində mühüm tədbirlər görülmüşdür. "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 18 iyul tarixli, 264 nömrəli Fərmanına əsasən hazırlanmış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 yanvar tarixli, 15 nömrəli qərarı ilə təsdiq edilmiş və 2006 -2010-cu illəri əhatə edən "Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi bu xəstələrə göstərilən tibbi yardımın təkmilləşdirilməsinə, onların qan və dəmirqovucu preparatlarla təminatının yaxşılaşmasına səbəb olmuşdur. Bildiyiniz kimi, **Möhtərəm Prezident cənab İlham ƏliyevAilə Məcəlləsinə dəyişikliklər edilməsi**

**barədə Qanunu təsdiqlədi və bununla da tərəflərin nikahdan əvvəl məcburi tibbi müayinədən keçməsi məsələsi qüvvəyə mindi. Biz bu dəyişikliyin müsbət nəticə verəcəyinə inanırıq.** Sosial xidmət sahəsində dövlət tərəfindən 2014 -cü ildə icra edilən layihələr təxminən 620 nəfər sağlamlıq imkanları məhdud uşaq və onların ailələrini, beş yüz nəfər sosial təhlükəli vəziyyətdə olan uşaq və onların ailələrini, üç yüz otuz nəfər dövlət uşaq müəssisələrinə düşmə riski yüksək olan uşaq və onların ailələrini əhatə etmişdir. Dövlətimizin və cənab Prezidentimiz İlham Əliyevin xüsusi diqqəti, ölkənin Birinci xanımı Mehriban Əliyevanın qayğısı nəticəsində ötən il 3133 nəfər sağlamlıq imkanları məhdud uşaq reabilitasiya kursu keçmişdir. Uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi sahəsində də mühüm tədbirlər görülmüş, həm beynəlxalq həm də yerli səviyyədə bilik yarışları, olimpiadalar keçirilmiş, sağlamlıq imkanları məhdud, valideyn himayəsindən məhrum uşaqlar üçün düşərgələr təşkil edilmişdir. Aztəminatlı ailələrdən olan uşaqların asudə vaxtlarının səmərəli təşkili ilə bağlı uşaq istirahət düşərgələrinin sayının artırılmasına xüsusi ehtiyac vardır. Eyni zamanda, sərhəd və cəbhəyanı bölgələrdə yaşayan uşaqlara qayğı daha da gücləndirilməlidir. 2014 -2015 –ci illərdə Komitə İdman və Gənclər Nazirliyi ilə birgə layihə çərçivəsində həmin rayonlardan olan 240 uşağın yay düşərgələrində dincəlməsinə yardım etmişdir.Bu tədbir bir daha sübut etdi ki, onlara xüsusi diqqətlə yanaşılmalıdır. Onu da qeyd etmək istərdik ki, bu gün Azərbaycanda uşaqların sağlam böyüməsini təmin etmək üçün hər cür şərait var. Müxtəlif idman mərkəzləri, məktəbləri fəaliyyət göstərir, uşaqlar idmana cəlb edilir. İdman bir ölkənin dünya miqyasında tanınmasında ən böyük rolu olan sahədir. Və bu sahənin inkişafı da peşəkarlıqdan, uşaqlıqda idmanla məşğul olmaqdan asılır. Xüsusən də, Azərbaycanda keçirilmiş İlk Yay Avropa Oyunları uşaqlar, gənclər, yeniyetmələr arasında idmana marağın artmasına müsbət təsir göstərmişdir.

Praktik olaraq, bütün rayonlarda Heydər Əliyev Mərkəzləri, Gənclər Mərkəzləri və Olimpiya Kompleksləri var. Buraya daha çox uşaq cəlb olunsun, onlar yaradılmış şəraitdən və imkanlardan hərtərəfli istifadə edirlər. Yeniyetmələrin narkomaniya və digər zərərli vərdişlərə aludə olmaması üçün onlar üçün xüsusi tədbirlər həyata keçirilir.

Azərbaycan dövləti uşaq hüquqlarının müdafiəsi sahəsində gələcək strategiyasını artıq müəyyən edib. Bununla bağlı, Cənab Prezidentin Fərmanı ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası imzalanmışdır. Konsepsiyaya əsasən bir sıra mühüm sənədlərin qəbulu nəzərdə tutulmuşdur. Artıq Uşaq Strategiyası hazırlanaraq Hökumətə təqdim olunmuşdur. Uşaq Məcəlləsi ilə bağlı müəyyən işlər görülür.

Sonda bir daha qeyd etmək istərdik ki, Azərbaycanda həyata keçirilən bütün proqramlar, layihələr və tədbirlər uşaqların inkişafına uğurlu töhfələr verəcək və onların mənafelərinin təmin olunmasına yönəldiləcəkdir.

## AZƏRBAYCAN UŞAQLARININ III ÜMUMRESPUBLİKA FORUMU




Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Heydər Əliyev Fondu və UNICEF-lə birgə uşaqların öz hüquqları ilə bağlı qərarların qəbul edilməsində iştirakını təmin etmək, uşaqlara öz problemləri ilə bağlı təşəbbüslərlə çıxış etmək və təkliflər vermək imkanı yaratmaq, həmçinin ictimaiyyətin diqqətinin uşaq hüquqlarının qorunmasına yönəldilməsi məqsədilə 2009-cu ildə Azərbaycan Uşaqlarının I və 2011-ci ildə Azərbaycan Uşaqlarının II Ümumrespublika Forumunu keçirmişdir.

Forumlar ölkə üzrə bütün şəhər və rayonları təmsil edən uşaqların iştirakı ilə keçirilmişdir. Ötən müddət ərzində Forumlarda iştirak edən

uşaqlar tərəfindən səsləndirilən bütün təkliflər hökumət tərəfindən hazırlanan müxtəlif proqramlarda öz əksini tapmışdır. Forum həm də əsas verir ki, hər bir uşaq onu düşündürən, narahat edən məsələləri dilə gətirsin, problemlərin birgə həlli yollarını araşdırsın. Məhz bu Forumlar istedadlı uşaqların üzə çıxması və uşaqların öz bacarıqlarını nümayiş etdirməsi üçün bir vasitəyə çevrilmişdir. Həmçinin, Forum uşaqların ictimai fəallığının artırılmasında, iştirak hüququnun təmin edilməsində və liderlik keyfiyyətlərinin formalaşmasında çox mühüm rol oynayır.

**2014-cü il, noyabr ayının 17-də Bakı şəhərində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və UNİCEF-in Azərbaycan nümayəndəliyinin dəstəyi ilə Azərbaycan Uşaqlarının III Forumu keçirilmişdir.**

Bununla əlaqədar 2014-cü ilin aprel -may aylarında ölkənin bütün şəhər və rayonlarınn hər biri üzrə Forumda iştirak edəcək uşaqların seçilməsi məqsədilə Komitə tərəfindən regional görüşlər keçirilmişdir. Hər bir rayon və şəhər üzrə öz fəallığı və intellektual səviyyəsi ilə seçilən, fikirlərini sərbəst şəkildə ifadə edə bilən uşaqlar seçilərək forumda iştirak hüququ əldə etmişdilər.

Foruma ümumilikdə 350 nəfərə yaxın uşaq, həmçinin xüsusi istedadı olan, xüsusi qayğıya ehtiyacı olan uşaqlar, sağlamlıq imkanları məhdud, rus, gürcü, avar, ləzgi, yəhudi, tatar və digər millətlərdən olan, valideyin himayəsindən məhrum olmuş, qaçqın və məcburi köçkün ailələrdən olan uşaqlar nümayəndə qismində seçilmişdilər.

Foruma Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri, Kütləvi İnformasiya Vasitələrinin nümayəndələri dəvət olunmuşdular.

Forumun rəsmi hissəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Forum iştirakçılarına təbrik məktubu səslənmişdir. Bu Azərbaycanda dövlət tərəfindən uşaq hüquqları və onların müdafiəsinə, hərtərfli inkişafına göstərilən xüsusi diqqətin göstəricisidir.

Forum öz işini panellərdə davam etdirmişdir. Ötən müddət ərzində uşaqlar arasında sosial şəbəkələrdə, eləcədə təşkil edilmiş təlimlərdə aparılmış müzakirələrin, qrup işlərinin nəticəsində uşaqlar arasında onları maraqlandıran çoxsaylı suallar yaranmışdır. Bu suallar ümumiləşdirilmiş və toplanmış sualların cavablandırılması üçün uşaqlar tərəfindən aidiyyatı dövlət orqanlarının rəsmiləri dəvət edilmişdir.

Səsləndirilmiş suallar Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, Bakı Baş Səhiyyə İdarəsinin rəisi, Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi, Rabitə və Yüksək Texnologiyalar nazirlərinin müavinləri, Xarici İşlər Nazirliyinin İnsan Hüquqları və Demokratiya İdarəsinin rəisi və UNİCEF-in ölkə üzrə nümayəndəsi tərəfindən cavablandırılmışdır.

II Paneldə Forum zamanı müzakirə olunan 7 mövzu üzrə (1. Vətəni sevək və ona layiq olaq. 2. Uşaqlar üçün bərabər hüquq və imkanlar. 3. Təhsildə yeni standartların tətbiqi. Uşaqlar və internet təhlükəsizliyi. 4. Ətraf mühitin mühafizəsi. Sağlam həyat tərzi. 5. Asudə vaxtın səmərəli təşkili və dəyərləndirilməsi. 6. Uşaqların şəxsiyyət kimi formalaşmasında ailə və cəmiyyətin rolu və məsuliyyəti. 7. Qarabağ həqiqətlərini dünyaya çatdıraq)işçi qrupların rəhbərləri olan uşaqlar müvafiq olaraq mövzular üzrə öz düşüncələrini, təkliflərini dövlət nümayəndələrinə və Forum iştirakçılarına çatdırmışlar.



Daha sonra işçi qruplar üzrə müzakirələrə başlanılmışdır və uşaqlar işçi qruplarda aidiyyəti dövlət orqanları – Təhsil, Səhiyyə, Daxili İşlər, Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər, Rabitə və Yüksək Texnologiyalar, Mədəniyyət və Turizm, Xarici İşlər, Fövqəladə Hallar nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət

komitələrinin vəzifəli şəxsləri ilə birgə müzakirələr aparmış, onları maraqlandıran suallarla rəsmilərə müraciət etmişlər.

İşçi qruplarda aparılan müzakirələrin nəticəsi olaraq hər bir işçi qrup üzrə rəhbər və müavin təyin edilmiş uşaqlar aparılmış müzakirələrin nəticələrindən ibarət təqdimatlarla Forum iştirakçıları və Foruma dəvət almış qonaqlar qarşısında çıxış etmişlər.

Forum çərçivəsində uşaqlar bütün Azərbaycan bölgələrini əhatə etməklə yeni Əlaqələndirmə Şurası formalaşdırmışlar. Əlaqələndirmə Şurasının tərkibində xüsusi qayğıya ehtiyacı olan uşaqlar, sağlamlıq imkanları məhdud, rus, gürcü, avar, ləzgi, yəhudi, tatar və digər millətlərdən olan, valideyin himayəsindən məhrum olmuş, qaçqın və məcburi köçkün ailələrdən olan uşaqlar da təmsil olunmuşdur.

Şura növbəti Foruma qədərki dövr ərzində uşaqlar arasında birgə və səmərəli işin aparılmasını təmin edir. Əvvəlki illərdə yaradılmış Şuranın müsbət nəticəsi və mühüm əhəmiyyəti olmuşdur. Belə ki,= Şura vasitəsilə ölkədə müxtəlif bölgələri əhatə etməklə uşaqlar arasında sıx əlaqələr qurulmuş, onları maraqlandıran mövzularda təlimlər təşkil olunmuşdur. Forum iştirakçıları, eləcə də sosial şəbəkələrdə fəal müzakirələr aparmaq məqsədilə, facebook-da “III Ümumrespublika Uşaq Forumu” adlı səhifə yaratmışlar, həmin səhifəyə qoşularaq müzakirələri davam etdirir və bir -birləriylə mütəmadi olaraq əlaqə saxlayırlar.

Forumun fərqləndirici xüsusiyyəti ondadır ki, tədbiri uşaqlar özləri idarə edirlər, rəsmilərin missiyası isə yalnız onlara ünvanlanan sualları cavablandırmaqdan ibarət olur.

Forumun yekununda Azərbaycan Uşaqlarının III Ümumrespublika Forumu iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciəti səslənmiş, Forumun Yekun Bəyannaməsi və Azərbaycan uşaqları adından dünya ictimaiyyəti və beynəlxalq təşkilatlara ünvanlanmış bəyanat qəbul edilmişdir.










# *Azərbaycan Respublikası Prezidentinin Uşaqların Üçüncü Ümumrespublika Forumunun iştirakçılarına*
# *M Ü R A C İ Ə T İ*



**Hörmətli Forum iştirakçıları!**
**Əziz uşaqlar!**
Sizi–Uşaqların Üçüncü Ümumrespublika Forumunun iştirakçılarını və sizin simanızda bütün Azərbaycan uşaqlarını salamlayır, hamınıza cansağlığı, xoşbəxtlik və səadət arzulayıram.
Uşaq hüquqlarının müdafiəsi Azərbaycan dövlətinin uşaqlarla bağlı siyasətinin əsas istiqamətlərindəndir. Uşaqların problemləri ilə məşğul olan dövlət qurumlarının gündəlik fəaliyyəti hər birinizin vicdan, fikir və söz azadlığınıza hörmətlə yanaşılmasına və hüquqlarınızın tam təmin edilməsi üçün əlverişli mühitin yaradılmasına yönəlmişdir.
Azərbaycanda uşaq hüquqlarının qorunması qanunvericiliklə tənzimlənir, uşaqların sosial müdafiəsinin gücləndirilməsi ilə əlaqədar konkret tədbirlər və dövlət proqramları gerçəkləşdirilir. Artıq ölkəmizdə uşaqların sağlamlığının yaxşılaşdırılması, təlim -tərbiyəsinin düzgün təşkili, fiziki, əqli və intellektual -mənəvi inkişafı, eləcə də onların öz istedadlarını nümayiş etdirmələri üçün lazımi şərait mövcuddur. İndi başlıca məqsəd uşaqların zəngin mədəni sərvətlərimizə hörmətlə yanaşan layiqli vətəndaş kimi yetişdirilməsi və hərtərəfli şəxsiyyət olaraq formalaşdırılmasıdır.
Ölkəmizdə Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin qurbanına çevrilmiş qaçqın və məcburi köçkün uşaqları daim diqqət mərkəzindədir. Dövlətimiz bütün imkanlarını səfərbər edərək onların problemlərinin həllinə nail olmaq üçün respublikamızın ərazi bütövlüyünün bərpası istiqamətində tarazlaşdırılmış siyasət həyata keçirir. Azərbaycanın davamlı inkişafı, uşaqlarımızın xoşbəxt və firavan həyatının təmin olunması baxımından, cəmiyyətimiz qarşısında mühüm vəzifələr irəli sürür. Məhz övladlarımızın sabahı naminə bu vəzifələrin layiqincə yerinə yetirilməsi məqsədi ilə hər bir vətəndaşımız qüvvə və bacarığını səfərbər etməlidir.
Ümidvaram ki, Forumunuz çərçivəsində uşaq problemlərinə dair aparacağınız fikir mübadiləsi, səmərəli müzakirələr və qəbul edəcəyiniz qərarlar gələcək fəaliyyətinizdə sizə dəstək olacaqdır.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 noyabr 2014-cü il.***

## *Azərbaycan Uşaqlarının III Ümumrespublika Forumunun nümayəndələrinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə MÜRACİƏTİ*

**Əziz Prezidentimiz!**

Azərbaycan Uşaqlarının III Ümumrespublika Forumunun nümayəndələri adından Sizi salamlayır, rifahımız və təhlükəsiz həyatımız üçün yaratdığınız şəraitə görə dərin təşəkkürümüzü bildiririk.
Hər birimizin qəlbini sonsuz sevinc və fərəh hissi ilə dolduran təbrik məktubunuzu bizə göstərdiyiniz diqqət kimi yüksək dəyərləndiririk.
Biz çox yaxşı bilirik ki, həyatı boyu xalqımızın bu günü və aydın gələcəyi naminə çalışan Ümummilli liderimiz Heydər Əliyevin təməlini qoyduğu uşaq siyasəti bu gün də uğurla davam edir.
Biz, gözəl və yaraşıqlı məktəblərdə təhsil alır, sağlam böyüməyimiz üçün yaradılmış şəraitdən istifadə edirik.
Azad, müstəqil və firavan bir ölkədə yaşamağımızdan qürur duyuruq.
Çünki hər zaman qayğımıza qalan güclü Prezidentimiz, qüdrətli bir dövlətimiz var.

**Cənab Prezident!**

Dövlət orqanları ilə yanaşı uşaqların hərtərəfli inkişafı üçün gördüyü böyük işlərə görə ölkəmizin birinci xanımı Mehriban Əliyevaya da böyük minnətdarlığımızı bildiririk.
Heydər Əliyev Fondunun prezidenti kimi fəaliyyətini isə Vətənə sevginin göstəricisi olaraq bir örnək kimi qəbul edirik.
Biz də öz növbəmizdə Vətənin layiqli övladları və doğma Azərbaycanımız üçün faydalı ola bilmək naminə səylə çalışacağımıza söz veririk.
Bunu Forum çərçivəsində ən müxtəlif mövzularda apardığımız müzakirələr, səsləndirdiyimiz fikirlər, irəli sürdüyümüz təkliflər sübut edir.
Bu inamla da əmin olduğumuzu bildiririk ki, üzləşdiyimiz bir çox problemlər uğurla həll olunduğu kimi, Qarabağ düyünü də bu qüdrətin nəticəsində açılacaq və hər bir uşaq üçün təhlükəsiz həyat təmin olunacaq.
Məhz Sizin dəstəyinizlə ölkəmizin bütün şəhər və rayonlarından nümayəndələr iştirak etməklə keçirdiyimiz III Forum öz işini başa çatdırdı.
Biz bu Forum və onun nəticələri haqqında öz dostlarımıza və valideynlərimizə çox böyük həvəslə danışacağıq.
Onun qərarlarını yerinə yetirmək və bu ənənənin davamlı olması üçün çalışacağıq.

**Əziz Prezidentimiz!**

Bu gün bütün Azərbaycan uşaqları adından Sizi əmin edirik ki, biz hər zaman dövlətimizin adını və bayrağını uca tutacaq, onun şərəfini ləyaqətlə qoruyacaq və Azərbaycana xidmətin Heydər Əliyev yoluna sadiq qalacağıq.

***Biz Sizi çox sevirik.***
***Ən xoş və səmimi arzularla,***
***Azərbaycan Uşaqlarının III Ümumrespublika Forumunun nümayəndələri.***
***17 noyabr 2014-cü il***
***Bakı şəhəri***

## AZƏRBAYCAN UŞAQLARININ III FORUMUNUN BƏYANNAMƏSİ

**17 noyabr 2014-cü il, Bakı, Azərbaycan**

Biz, Azərbaycanın bütün şəhər və rayonundan olan 350 uşaq Azərbaycanda uşaqların müdafiəsi və inkişafına dair qazanılan nailiyyətləri, mövcud problemləri və zəruri tədbirləri nəzərdən keçirmək məqsədilə 17 noyabr 2014-cü il tarixində Azərbaycan Uşaqlarının III Forumunda bir araya gəldik.

Bundan öncə 17-18 dekabr 2009-cu il tarixində Bakı şəhərində Azərbaycan Uşaqlarının I, 17-18 noyabr 2011-ci il tarixdə isə II Forumu keçirilmişdir. Əvvəlki Forumlarda uşaqlar tərəfindən səsləndirilən fikirlərin, təkliflərin dövlət tərəfindən qəbul edilən proqramlarda, hüquqi sənədlərdə öz əksini tapması dövlətin uşaq siyasətinə böyük önəm verdiyinin nəticəsidir. Buna görə də dövlətimizə bizə göstərdiyi diqqətə görə minnətdarlığımızı bildiririk.

Biz, Azərbaycan Uşaqlarının III Forumunun nümayəndələri,
BMT-nin Uşaq Hüquqları Konvensiyası, Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu, uşaqlara dair digər beynəlxalq və milli qanunvericilik sənədlərini əsas götürərək,
Azərbaycan hökumətinin uşaqların daha yaxşı inkişafı istiqamətində həyata keçirtdiyi Dövlət Proqramlarının səmərəliliyini və əhəmiyyətini xüsusi qeyd edərək,
Uşaqların xoşbəxt, sevgi dolu, firavan, təhlükəsiz və qayğısız bir mühitdə öz bacarıqlarını inkişaf etdirmək üçün imkanlara malik olan həyata layiq olduğunu xatırladaraq,
Uşaqların yaşaması, inkişafı, müdafiəsi və ictimai həyatda fəal iştirakında valideynlərin, tərbiyəçilərin, ictimai təşkilatların və KİV-in bərabər məsuliyyət daşıdığını vurğulayaraq,
Uşaqların milli və icma səviyyələrində qərarqəbuletmə proseslərində və cəmiyyətlərin inkişafında iştirak etmək hüququnu təsdiq edərək,
BMT-in Uşaq Hüquqları üzrə Konvensiyasının qəbul edilməsinin 25-ci ildönümünü qeyd edərək,

### Qərara alırıq:

**1.** Biz ölkəmizin əsas problemi olan Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmaması və bunun nəticəsində qaçqın və məcburi köçkün yaşıdlarımızın olduğunu bir daha bəyan edirik. Dövlətimizin Qarabağ probleminin həlli istiqamətində fəaliyyəti nəticəsində dünya ictimaiyyətinin və beynəlxalq təşkilatların bu ədalətsizliyə və biganəliyə son qoymasına inanaraq tezliklə haqq -ədalətin bərqərar olmasını istəyirik.

**2.** Uşaqlara təsir edən ayrı -seçkiliyin istənilən formasının aradan qaldırılması üçün biz bütün cəmiyyət üzvlərinə müraciət edirik. Uşaqların, təhsil yaşına çatmış hər bir kəsin, əsasən də, yeniyetmə qızların davamlı təhsil alması üçün təhsildən yayınması və erkən nikaha girməsinə qarşı nəzarətin gücləndirilməsini istəyirik.

**3.** Uşaqların ailədə, cəmiyyətdə və hər bir mühitdə istənilən növ zorakılıqdan, onlara qarşı pis rəftar hallarından, etinasızlıqdan, eləcə də onların əməyinin istismarından müdafiəsi üçün bütün cəmiyyəti səfərbər olmağa səsləyirik.

**4.** Biz bütün uşaqların öz valideynlərinin yanında, ailə mühitində böyüməsini istəyirik və hal -hazırda müxtəlif səbəblərdən öz ailələrindən aralı düşmüş uşaqların valideynlərinin və yaxud yaxın qohumlarının yanına qayıtması üçün səylərin artırılmasını istəyirik. Valideyn himayəsindən məhrum uşaqlar üçün isə ailə mühitinə ən yaxın alternativ xidmətlərin yaradılmasını istəyirik.

**5.** Biz inanırıq ki, uşaqlar arasında sağlam həyat tərzinin təbliği, xüsusən də tütün məmulatları, spirtli içkilər və narkotik maddələrin zərərlərinə dair maarifləndirmə, həmyaşıdlar arasında zorakılıq və yeniyetmələr arasında sui -qəsd hallarının azaldılması üçün müvafiq proqramların hazırlanması və maliyyələşdirilməsi bundan sonra da davam edəcəkdir. Uşaqların sağlam mühitdə yaşamalarını təmin etmək üçün əhali arasında təbliğatın aparılmasını istəyirik.

**6.** Ucqar rayonlarda olan məktəblərin təmir olunması, orda yaşayan uşaqların təhsili üçün yeni məktəb binalarının tikilməsini alqışlayaraq, bu sahədə işlərin davam etdirilməsini istəyirik. Bu proqramların icrası zamanı sağlamlıq imkanları məhdud uşaqların bizimlə birgə təhsil alması üçün şərait yaradılmasına səsləyirik.

**7.** Uşaqların erkən yaşda zehni, fiziki inkişafını və təlim -tərbiyəsini təmin etmək məqsədilə müvafiq proqramların hazırlanması və icrası, eləcə də bütün ölkə ərazisində yeni uşaq bağçalarının tikilməsini istəyirik.

**8.** Uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə uşaq istirahət düşərgələrinin sayının artırılmasını, eləcə də şəhər, rayon və kənd məktəblərində dərsdənkənar məşğələlərin və klubların təşkil edilməsi, lazımi maddi -texniki baza ilə təmin edilməsini istəyirik.

**9.** Regionlarda yaşayan uşaqların təhsil və maariflənmə imkanlarının genişləndirilməsində informasiya - kommunikasiya texnologiyalarının rolunun gücləndirilməsi vacibdir. Həmçinin biz, internetin uşaqlara mümkün mənfi təsirlərinin qarşısının alınmasını istəyirik.

**10.** Ölkəmizdə bir çox televiziya kanalları fəaliyyət göstərir. Bunların sadəcə müəyyən qismi efirdə uşaqlarla bağlı proqramlar yayımlayır. Bunun üçün də ölkədə uşaq televiziyasının yaradılmasını, mətbuat və televiziyada uşaqlara daha çox diqqət ayrılmasını tövsiyə edirik. KİV birbaşa olaraq uşaqların inkişafına mənfi təsir göstərən məlumatları yayarkən mütləq şəkildə o məlumatların uşaqlara necə təsir edəcəyini və uşaqlar tərəfindən necə qəbul ediləcəyini nəzərə almalıdır.

**11.** Biz uşaqlar üçün yeni imkanların yaradılmasında biznes və maliyyə qurumlarının iştirakını mütləq hesab edirik. Biznes sektoru öz korporativ sosial cavabdehliyini artırmaqla uşaqların inkişafına mühüm töhfə verə bilər. Biz, biznes və maliyyə qurumlarını uşaqlarla bağlı sosial məsuliyyət prinsipinə diqqəti artırmağa, keyfiyyətcə yeni proqramları icra etməyə çağırırıq.

**12.** Biz bütün cəmiyyət üzvlərini ətraf mühiti onun rəngarəngliyi və gözəlliyi ilə birlikdə qorumağa, uşaqları ekologiyanın çirklənməsinin təsirlərindən və təbii fəlakətlərdən qorumağa səsləyirik.

**Azərbaycan Uşaqlarının III Forumunun nümayəndələri aşağıdakı təkliflərlə aidiyyəti üzrə qurumlara müraciət edir:**

**1.** Azərbaycan televiziya məkanında uşaqların arzu və düşüncələrini, təhsil və sağlamlığını, ictimai fəaliyyətini - bir sözlə, uşaq həyatının bütün sahələrini işıqlandıracaq Uşaq Televiziyasının yaradılması. Uşaqların özlərinin də iştirakı nəzərə alınmaqla, onların öz maraqları çərçivəsində proqramların hazırlanması.

**2.** Sağlamlıq imkanları məhdud uşaqlar və digər həssas qrupdan olan uşaqların hüquqlarının tam təminatı üçün bərabər təhsil imkanlarının yaradılması və ailə mühitindən aralı düşmüş uşaqların ailə mühitində böyüməsini təmin edəcək sosial xidmətlərin genişləndirilməsi.

**3.** Məktəblərdə uşaq hüquqları ilə bağlı uşaq şurasının yaradılması, həmin şuranın məktəbin idarəedilməsinə cəlb olunması, Azərbaycan uşaqlarının cəmiyyətdə daha fəal olmaları üçün Azərbaycanın bütün bölgələrində uşaq təşkilatlanması işlərinin sürətləndirilməsi üçün dəstəyin göstərilməsi.

**4.** Məktəb psixoloqlarının işinin gücləndirilməsi və məktəblərdə uşaq hüquqları sahəsində hüquqşünasın fəaliyyət göstərməsi.
**5.** Təhsil kurrikulumunun sadələşdirilməsi, şagirdlərin qiymətləndirilmə meyarlarına yenidən baxılması üçün aidiyyəti qurumların bu məsələyə diqqət yetirməsi.
**6.** Digər dövlətlərin uşaqları ilə qarşılıqlı əlaqələrin yaradılması, uşaq məsələlərinin qarşılıqlı müzakirəsi üçün mübadilə səfərləri, düşərgələr, festivallar və konfransların təşkilinə dair proqramların dəstəklənməsi.
**7.** Azərbaycan uşaqları arasında kommunikasiya, əməkdaşlıq, tanışlıq və informasiya mübadiləsini həyata keçirəcək internet sosial şəbəkəsinin yaradılması. Bununla da, Azərbaycan uşaqları virtual məkanda bir araya gələcəklər.

**Azərbaycan Uşaqlarının III Forumunun nümayəndələri aşağıdakı təkliflərlə Azərbaycan uşaqlarına müraciət edir:**

**1.** Qarabağ həqiqətləri barədə dünya ictimaiyyətinin məlumatlandırılması işində bütün uşaqları fəal iştirak etməyə səsləyirik.
**2.** Hər bir uşağı, xüsusilə regionlarda yaşayan uşaqları öz bölgələrində uşaq hüquqlarının təbliği sahəsində fəal olmağa çağırırıq.
**3.** Bütün uşaqları digər həmyaşıdlarına qarşı, xüsusilə sağlamlıq imkanları məhdud uşaqlara qarşı tolerant olmağa, onları öz aralarına cəlb etməyə dəvət edirik. Hər birimizi digər uşaqların hüquqlarına hörmət etməyə çağırır, bir -birimizə qarşı zorakılığa imkan verməməyə dəvət edirik.
**4.** Bütün uşaqları oxuduqları məktəbin ictimai həyatında yaxından iştirak etməyə səsləyirik. Fəal uşaqları mütəmadi yığışaraq uşaq hüquqları ilə bağlı müzakirələr təşkil etməyə və hər bir məktəbin nəzdində uşaq hüquqları şuraları yaratmağa səsləyirik.
**5.** Bütün uşaqları bizim üçün yaradılan imkanlardan, gənclər evləri, mədəniyyət mərkəzləri, kitabxanalardan və dərsdənkənar məşğələlərdən daha fəal istifadə etməyə səsləyirik.
**6.** Uşaqları tarixi -mədəni abidələrin qorunması, ətraf mühitin təmizliyi işində yaxından iştirak etməyə səsləyirik.
**7.** Regionları təmsil edən uşaqları öz regionlarında uşaq hüquqları ilə bağlı Əlaqələndirmə Şuraları yaratmağa və onun işinin Forumda yaradılmış Əlaqələndirmə Şurasının işi ilə əlaqələndirilməsinə çağırırıq.
Əminik ki, Bəyannamədə əksini tapan təkliflər dövlət orqanları tərəfindən müsbət qarşılanacaqdır və Azərbaycan uşaqlarına etdiyimiz çağırışlar reallaşacaqdır.

*Azərbaycan Uşaqlarının III Forumunun iştirakçıları*
*Bakı şəhəri, 17 noyabr 2014 -cü il*

**Azərbaycan uşaqları adından silahlı münaqişələrdən əziyyət çəkən uşaqların hüquqlarının müdafiəsi ilə bağlı dünya ictimaiyyəti və beynəlxalq təşkilatlara ünvanlanmış bəyanatın mətni**

Uşaq hüquqlarının müdafiəsi və onların problemlərinin həlli dünyamızda ən aktual məsələlərindən biridir. Dünya ölkələrində uşaq hüquqlarının müdafiəsinə beynəlxalq və regional təşkilatların böyük dəstəyi vardır. Uşaq hüquqlarının müdafiəsinə xüsusi diqqət və qayğının artırılması hər bir dövlətin əsas vəzifələrindən birinə çevrilmişdir.

Müasir dövrümüzdə uşaqların hüquqlarının tam və hərtərəfli şəkildə müdafiəsinin təmini bəzən dövlətlərin imkanları xaricində olur və bunun üçün də dünya birliyinin səylərinin birləşdirilməsini tələb edir.

Hesab edirik ki, bütün dünya dövlətləri beynəlxalq səviyyədə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə xüsusi

önəm verməli və buna görə məsuliyyət daşımalıdır. Uşaq hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar uşaqlara qarşı amansız rəftar tətbiq edənlərə, onların hüquqlarını kobudcasına pozanlara qarşı sərt tədbirlər görməlidir.

Çox təəssüflər olsun ki, bütün bunlara hər zaman əməl olunmur. Azərbaycan xalqı artıq uzun illərdir ki, erməni qəsbkarlarının soyqırımı siyasətinə məruz qalır. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20%-i işğal edilib. İşğal zamanı 1 milyona yaxın insanın, o cümlədən azyaşlı uşaqların beynəlxalq hüquqi sənədlərdə öz əksini tapmış əsas hüquq və azadlıqları kobudcasına pozulmuşdur.

Tarixin müxtəlif dövrlərində ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırımlarda uşaqlar qətlə yetirilmiş, işgəncələrə məruz qalmışlar. Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dövründə isə 175 uşaq öldürülmüş, 270 uşaq sağlamlığını itirmiş, 92 uşaq əsir düşmüş, 3393 uşaq valideynlərindən birini, 120 uşaq isə hər iki valideynini itirmiş, 114489 uşaq qaçqın, 197810 uşaq isə məcburi köçkün düşmüşdür.

12 may 1994-cü ildə münaqişə tərəfləri olan Ermənistan və Azərbaycan arasında «Atəşkəs haqqında Saziş»in bağlanması və qüvvəyə minməsinə baxmayaraq, qarşı tərəf hələ də öz çirkin niyyətlərindən əl çəkmir, atəşkəs rejimi müntəzəm olaraq pozulur, nəticədə əsgərlərimiz şəhid olur, mülki şəxslər, xüsusilə azyaşlı uşaqlar qətlə yetirilir, aldıqları xəsarət nəticəsində öz fiziki sağlamlığını itirirlər.

Belə ki, 8 mart 2011-ci il tarixində doqquz yaşlı Fariz Bədəlovun erməni snayperinin açdığı atəş nəticəsində qətlə yetirilməsi, 2011-ci il iyul ayının 14-də Tovuz rayonunun Ermənistanla həmsərhəd olan Əlibəyli kəndində uşaq oyuncağına quraşdırılmış partlayıcı qurğunun işə düşməsi ilə 1998-ci il təvəllüdlü Aygün Şahmalıyevanın faciəli ölümü erməni vəhşiliyini bir daha sübuta yetirmiş oldu.

Həmçinin, 2014-cü ilin avqust ayında erməni hərbçiləri tərəfindən açılan atəşlər nəticəsində Tovuz rayonundan 5 yaşlı Nurcan Nağıyeva, 17 yaşlı Fərid Məmmədov yaralanmış, 14 yaşlı Sərxan İsmayılov əlindən və sinəsindən qəlpə yarası almış, Gədəbəy rayonundan 15 yaşlı Şəlalə Tağıyeva ayağından güllə yarası almış, Ağstafa rayonundan 10 yaşlı Qoşqar Abbasov boyun nahiyəsindən qəlpə yarası alaraq ağır yaralanmışlar.
Ermənistan dövlətinin bu çirkin hərəkətləri beynəlxalq hüquqi aktları – Ermənistanın 1992 -ci ildə ratifikasiya etdiyi BMT-nin «Uşaq hüquqları haqqında» Konvensiyasını, "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" IV Cenevrə Konvensiyasını, Birləşmiş Millətlər Təşkilatının “Ümumdünya İnsan Haqları Bəyannaməsi”ni, “Vətəndaş və siyasi hüquqlar haqqında” Beynəlxalq Paktı, "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanı, “Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi” Bəyannaməsini kobud surətdə pozur.

Qeyd olunan beynəlxalq hüquqi sənədlərdən irəli gələn prinsip və müddəaların kobudcasına pozulması Ermənistan barəsində beynəlxalq məsuliyyət doğurur və ona qarşı ciddi və təxirəsalınmaz sanksiyaların tətbiqini zəruri edir. Ermənistan üzərinə götürdüyü beynəlxalq öhdəliklərini yerinə yetirməli, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalı, müharibədən zərər çəkən uşaqların hüquqları bərpa olunmalıdır.

## Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşları Cənubi Koreya Respublikasında həyata keçirilən "Qadın Peşə İnkişaf Proqramı"nda iştirak ediblər




Cənubi Koreya Respublikasının "Gender bərabərliyi və Ailə Nazirliyi" ilə "Qadınlar üçün Koreya Fondu"nun birgə təşkilatçılığı ilə mütəmadi olaraq həyata keçirilən təlimin əsas məqsədi Koreya Respublikasında qadınların məşğulluğa cəlb olunması ilə bağlı mövcud olan siyasətin digər ölkələrdə tanıdılması və bu istiqamətdə digər ölkələrin təcrübəsinin öyrənilməsidir.
Təlim zamanı Proqram iştirakçıları üçün dövlət və qeyri -hökümət nümayəndələri ilə görüşlər, "Gender bərabərliyi", "Gender büdcəsi", "Qadın Peşə İnkişaf Proqramlarının yaradılma səbəbləri", "Qadın resurslarının inkişafı və iqtisadiyyat", "Gender təsirinin qiymətləndirilməsi" və. s mövzular ətrafında seminarlar, Seul şəhərində və bir neçə ətraf şəhərlərdə fəaliyyət göstərən mərkəzlərə səfərlər təşkil olunmuşdur. Təlimdə Azərbaycanla yanaşı Özbəkistan, Qazaxstan, Pakistan, İndoneziya, Banqladeş, Kambociya, Lao, Nepal, Şri-lanka, Timor-Leste və Vyetnamdan olan məsul nazirlik və komitə əməkdaşları iştirak etmişdir. Təlimdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsini Raidə Əmirbəyova, Səmra Əliyeva təmsil ediblər.

## Brüsseldə "Uşağın maraqlarının əsas götürülməsi" mövzusunda konfrans keçirilib

Belçikanın Avropa Şurası Nazirlər Komitəsinin sədrliyi çərçivəsində 9-10 dekabr, 2014-cü il tarixində Brüsseldə uşaq hüquqları ilə bağlı "Uşağın maraqlarının əsas götürülməsi" mövzusunda konfrans keçirilib.
Konfransda Azərbaycan Respublikasını Xarici İşlər Nazirliyinin nümayəndəsi Vüsalə Sadıqova və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Fərid Ədilov təmsil ediblər.
Konfransın rəsmi açılışında Belçikanın Ədliyyə naziri Koen Geens və Mədəniyyət, Media, Gənclər naziri Sven Gatz çıxış ediblər. Daha sonra konfrans, plenar sessiyalarda uşaq məsələlərini əhatə edən müxtəlif mövzular ətrafında, iki gün davam edib.
Avropa İnsan Hüquqları Məhkəməsinin hüquqşünası xanım Aida Grgic "Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasında ailə məsələlərində uşaq maraqlarının əsas götürülməsi. Biz nə öyrənə bilərik?" başlığı altında geniş çıxış edərək digər ölkələrdə tətbiq edilən müsbət təcrübələrdən danışıb, diqqəti məhkəmələrdə uşaq işlərinə baxılması halları, məhkəməyə müraciət edənlərin hüquqlarına hörmət, gizliliyin qorunması məsələlərinə yönəldib.
Həmçinin, konfrans müddətində müzakirələr, qrup işləri aparılıb. Qrup işləri uşaqların öz fikirlərini sərbəst ifadə etmək, uşaq maraqlarının və digər tərəflərin maraqlarının balanslaşdırılması, uşağın maraqlarının dəyərləndirilməsi, uşaq maraqlarının əsas götürülməsi məqsədilə qərarların icrasına nəzarət, valideynlərin ayrılması zamanı uşaq maraqları, müəssisəyə və ya foster ailəyə yerləşdirilən zaman uşaq maraqları, valideynlərindən biri həbsdə olarkən uşaq maraqları, uşağın öz mənşəyini bilmək hüququ başlıqları altında konfrans iştirakçılarının iştirakı ilə aparılıb, nəticədə yekun təkliflər səsləndirilib.

## Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran xanım Hüseynova Çində səfərdə olub

2015-ci il 1-5 iyul tarixlərində Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, professor Hicran Hüseynovanın rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasında görüşlərdə olub.

İkitərəfli əlaqələrin genişləndirilməsi məqsədilə baş tutan səfər Ümumçin Qadınlar Federasiyasının (ÜQF) dəvəti ilə reallaşıb.

Hicran xanım Hüseynovanın rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin sədr müavini, Ümumçin Qadınlar Federasiyasının sədri xanım Şen Yüeyüe ilə görüşü keçirilib.

Görüş zamanı ÜQF-nin sədri Şen Yüeyüe Azərbaycanın qadın hərəkatı sahəsində təcrübəsinin əhəmiyyətli məqamlarından bəhs edərək bu sahədə əlaqələrin daha da genişləndirilməsinin hər iki tərəf üçün daha faydalı olacağını qeyd edib. O, Çində dövlət qadın siyasəti sahəsindəki vəziyyət barədə danışıb, qadınların dövlətin və cəmiyyətin idarə edilməsindəki fəal rolu barədə ətraflı məlumatlar verib.

Daha sonra Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış edərək son illər sürətli inkişafı ilə beynəlxalq aləmdə seçilən Azərbaycanda hər sahədə olduğu kimi, qadın siyasətində də qazanılan uğurlar barəsində danışıb və əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və cənab Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət qadın siyasətinin əsas istiqamətlərindən, qazanılan uğurlardan, ölkəmizin müxtəlif sahələrində qadınların siyasi, iqtisadi, humanitar, elmi və digər sahələrdə əldə etdikləri böyük nailiyyətlər haqqında məlumat verib.

Hicran xanım Hüseynova Pekində Qadın Məsələlərinə dair IV Ümumdünya Konfransının 20 illiyinin qeyd edilməsi ilə əlaqədar Azərbaycanın və Çinin birgə müxtəlif beynəlxalq təşəbbüslərlə çıxış etmək ideyasını da irəli sürüb.

Komitə sədri onu da qeyd edib ki, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyeva öz fəaliyyəti ilə Azərbaycan qadını obrazını yaradaraq şəxsi örnəyə çevrilmişdir. Hicran xanım Hüseynova həmçinin ölkənin birinci xanımının rəhbərliyi altında həyata keçirilən beynəlxalq tədbirlər, xüsusən də İlk Avropa Oyunları haqqında geniş məlumat verib.

## Vilnüs şəhərində "Qadınların iqtisadi durumunun və liderlik xüsusiyyətlərinin gücləndirilməsi üçün qadın sahibkarlığının inkişafı" mövzusunda konfrans keçirilib

2 iyul 2015-ci il tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova Vilnüs şəhərində təşkil edilmiş "Qadınların iqtisadi durumunun və liderlik xüsusiyyətlərinin gücləndirilməsi üçün qadın sahibkarlığının inkişafı" mövzusunda keçirilmiş konfransda iştirak edib.

Konfransda Almaniya, Moldova, Gürcüstan, Estoniya və Polşadan olan mütəxəssislər və eləcə də, Litvanın Sosial Müdafiə və Təhlükəsizlik naziri xanım Algimanta Pabedinskiene, Gender Bərabərliyi üzrə baş nazirin müavini Aukse Kontrimiene, Litvanın Xarici İşlər Nazirliyinin Xüsusi İşlər üzrə səfiri Nijole Zambaite, Bərabər İmkanlar üzrə Ombudsmanı Agneta Lobacevskyte və bir çox qadın təşkilatlarının sədrləri və Litva universitetlərinin professorları iştirak ediblər.

Konfransda çıxış edən xanım Sədaqət Qəhrəmanova Azərbaycanda qadın sahibkarlığının inkişafı naminə görülən tədbir və təcrübədən söz açaraq, ölkənin bu sahədə apardığı uğurlu siyasətdən danışıb.

Konfransın sonunda interaktiv sessiyalar təşkil olunub və ölkəyə gələn mütəxəssislərlə fikir mübadilələri aparılıb.

## Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində İspaniya təcrübəsi üzrə Azərbaycan nümayəndə heyətinin səfəri baş tutub

7-13 iyun 2015-ci il tarixlərində Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyevanın rəhbərliyi ilə Azərbaycan Respublikası Prezident Adminstrasiyasından Gülnar Rəsulova və Tatyana Babayeva, Xarici İşlər Nazirliyindən Seymur Mərdəliyev, Daxili İşlər Nazirliyindən Adıgözəl Adıgözəlov, Ədliyyə Nazirliyindən Aygün Bəşirova, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən Səbinə Cəfərova və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən bir qrup nümayəndənin iştirakı ilə "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində İspaniya təcrübəsi" üzrə Sevilya və Madrid şəhərlərinə səfər təşkil edilib. Səfər zamanı Andalusiya Hökumətinin Gender əsaslı Zorakılıq Əleyhinə Ofisi, Qadınlar İnstitutu, Gender əsaslı zorakılığa qarşı 3 saylı məhkəmə, Krallığın Prokurorluq İdarəsi, İspaniya Krallığının Ədliyyə Nazirliyi, Xarici İşlər və Əməkdaşlıq Nazirliyi, Daxili İşlər Nazirliyi, Məhkəmə-Hüquq Şurasının məişət və gender əsaslı zorakılıq məsələləri üzrə Müşahidə Xidməti, Gender əsaslı zorakılıq əleyhinə Hökumət İdarəsi, gender əsaslı zorakılıq qurbanları üçün "016" dövlət qaynar xətti, Madrid vilayətinin Səhiyyə, Sosial Xidmət və Bərabərlik Nazirliyinin Qadınlar üzrə Baş İdarəsi, dövlət tərəfindən maliyyələşdirilən sığınacaqlarda bir sıra görüşlər keçirilib.
Səfər proqramı çərçivəsində Azərbaycan nümayəndə heyəti müvafiq qurumlarda keçirilən görüşlərdə məişət zorakılığı ilə bağlı mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi, məişət zorakılığı ilə bağlı məlumat bankının təşkil olunması, dövlət tərəfindən maliyyələşdirilən qaynar xətt sistemi və sığınacaqların fəaliyyəti sahəsində mövcud İspaniya təcrübəsi ilə yaxından tanış olub və bu təcrübənin Azərbaycanda tətbiqi perspektivləri, eyni zamanda Azərbaycanın bu sahədə əldə etdiyi nailiyyətlər haqqında geniş fikir mübadiləsi aparıb.

## Hicran Hüseynova ölkəmizdə səfərdə olan İran İslam Respublikasının Azad İslam Universitetinin rektoru, mədəniyyət və islam irşadi nazirinin müşaviri Pərvin Dadəndiş ilə görüşüb

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova ölkəmizdə səfərdə olan İran İslam Respublikasının Azad İslam Universitetinin rektoru, mədəniyyət və islam irşadi nazirinin müşaviri Pərvin Dadəndiş ilə görüşüb. Görüşdə Azərbaycan və İran arasında ailə, qadın və uşaq problemlərinin həlli sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub.
İki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu deyən Hicran Hüseynova iranlı qonağa rəhbərlik etdiyi qurumun həyata keçirdiyi layihələr barədə məlumat verib. Ölkəmizdə məqsədyönlü gender siyasətinin aparıldığını vurğulayan Hicran Hüseynova Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətindəki fəaliyyətini diqqətə catdırıb. Komitə sədri müvafiq istiqamətlər üzrə xarici ölkələr, o cümlədən İran ilə əməkdaşlığın inkişafının əhəmiyyətini qeyd edib. Azərbaycanda həyata keçirilən dövlət qadın siyasətini yüksək qiymətləndirən Pərvin Dadəndiş İran ilə bu sahədə mövcud əməkdaşlığın inkişaf etdirilməsinin hər iki tərəf üçün faydalı olacağını bildirib.






## Nyu-Yorkda "Qadınların Vəziyyəti üzrə Komissiyanın 59-cu sessiyası"nda Azərbaycan Respublikasının qadın hüquqlarının müdafiəsi sahəsində müsbət təcrübəsi beynəlxalq cəmiyyətə çatdırılıb

2015-ci il 9-14 mart tarixlərində Nyu-Yorkda Qadınların Vəziyyəti üzrə Komissiyanın 59-cu sessiyası keçirilib. Sessiyada Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının qəbulunun 20-ci ildönümü münasibətilə Bəyannamə və Platformanın icrası ilə bağlı qlobal qiymətləndirmələr, 2015-ci ildən sonrakı dövr üçün inkişaf gündəliyinə gender perspektivlərinin daxil edilməsi barədə müzakirələr aparılıb.

Sessiyada Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, millət vəkili Sahibə Qafarova, Azərbaycan Respublikasının BMT-dəki Daimi nümayəndəsi, Fövqəladə və Səlahiyyətli səfiri Yaşar Əliyev də iştirak edib.



Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxışı zamanı öncə Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının qəbulunun 20-ci ildönümü münasibətilə tədbir iştirakçılarını təbrik edib. Xanım Hicran Hüseynova, həmçinin, Azərbaycan qanunvericilik sistemində qadın hüquqlarının müdafiəsi üçün qəbul edilən müxtəlif dövlət proqramlarından bəhs edib. Komitə sədri qadın hüquqlarının müdafiəsi sahəsindəki mövcud vəziyyət və əldə olunan nailiyyətlər haqda danışıb. Hicran xanım Azərbaycanın Pekin Bəyannaməsi və Fəaliyyət Platformasını qəbul etməsinin tarixindən söz açaraq onun əhəmiyyətini xüsusi vurğulayıb.

Komitə sədri çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu sahədə apardığı balanslaşdırılmış dövlət siyasətinin əsas istiqamətlərini qeyd edərək, Respublikamızın bu sahədə regionun lider dövlətlərindən biri olduğunu bildirib. Xanım Hicran Hüseynova Heydər Əliyev Fondu və onun prezidenti xanım Mehriban Əliyeva tərəfindən reallaşdırılan sosial xarakterli layihələri, son illərdə tikilən və təmir olunan xəstəxanalar, məktəblər, uşaq bağçaları və bunların qadın hüquqlarının müdafiəsinə təsiri haqqında məlumat verib.

Komitə sədri "Gender bərabərliyinin həyata keçirilməsi", "Qadın Hüquqları və Qadın Səlahiyyətləri daxilində və xaricində 2015 İnkişaf gündəliyi", "Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün qadınların iqtisadi səlahiyyətləri" mövzularına həsr edilmiş tədbirdə çıxış edərək qadınların iqtisadi, ictimai və s. bu kimi sahələrdə iştirakının əhəmiyyətindən, qadınların səlahiyyətlərinin genişləndirilməsinin vacibliyindən söz açıb.

Tədbir çərçivəsində Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın BMT Baş Katibinin köməkçisi və BMT Qadınlar təşkilatının icraçı direktorunun müavini Lakşmi Puri, BMT Qadınlar təşkilatının Regional Ofisinin başçısı İngibjorg Gisladottir və UNİCEF-in Əməkdaşlıq üzrə direktoru Olav Kjorven ilə ikitərəfli görüşləri olub. Görüşlər zamanı qadın hüquqlarının qorunması, sülh, gender bərabərliyinə nail olmaq üçün inkişaf prosesi və digər məsələlər müzakirə olunub. Bundan başqa, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın Türkiyə Respublikasının Ailə, Sosial Məsələlər nazirinin müavini, Küveyt Dövlətinin Qadın Məsələləri üzrə Komitəsinin sədri ilə də görüşləri olub.

## Minskdə “Sağlam ailə-sağlam cəmiyyət” mövzusunda beynəlxalq konfrans keçirilib



Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanovanın başçılıq etdiyi nümayəndə heyəti 2015-ci ilin 14-15 may tarixlərində Belarus Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəvəti ilə Minskdə keçirilən “Sağlam ailə -sağlam cəmiyyət” mövzusunda beynəlxalq konfransda iştirak edib.

Səfərin əsas məqsədi hər iki ölkənin dövlət ailə siyasətinin həyata keçirilməsi üzrə qarşılıqlı təcrübə mübadiləsi olub.

Tədbir zamanı Komitənin sədr müavini xanım Sədaqət Qəhrəmanova “Dövlət ailə siyasətinin inkişafının əsas istiqamətləri və müasir cəmiyyətin problemləri” mövzusu üzrə Azərbaycanda əldə olunan nailiyyətlərə dair geniş məzmunlu məruzə ilə çıxış edib.

Çıxışı zamanı sədr müavini müvafiq sahədə ölkəmizdə görülən işlərdən, dövlət siyasətinin əsas prioritetlərindən olan ailə siyasəti sahəsində qanunvericilikdə edilmiş dəyişikliklər haqqında ətraflı məlumat verib.

Nümayəndə heyətinin tərkibinə daxil olan Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Təminat şöbəsinin müdiri Səbinə Cəfərova “Azərbaycanda ünvanlı sosial yardımın təşkili” mövzusunda çıxış edib.

Həmçinin səfər çərçivəsində Komitənin sədr müavini Sədaqət Qəhrəmanova bir sıra yüksək səviyyəli görüşlər – Belarus Respublikasının Əmək və Əhalinin Sosial müdafiəsi naziri Marianna Şyotkina, Belarus Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Aleksandr Rumak, Belarus Respublikasının Ədliyyə nazirinin müavini Alla Bodak, Belarus Respublikasının Ticarət nazirinin müavini İrina Narkeviç və “Belarus qadınlar cəmiyyətinin” sədri Nadejda Yermakova ilə görüş keçirib.

Nümayəndə heyəti həmçinin Əlil uşaqlar üçün reabilitasiya mərkəzinin direktoru Lyudmila Kondraşova ilə də görüşərək mərkəzin iş metodikası ilə yaxından tanış olmuşdur.

Bütövlükdə səfər ailə siyasətinin daha mükəmməl olması, qadınların ictimai siyasi fəallığının artırılması istiqamətində beynəlxalq təcrübənin öyrənilməsi, təcrübə mübadiləsinin aparılması baxımından səmərəli keçmişdir.

## Ölkəmizdə səfərdə olan BMT-nin Əhali Fondunun icraçı direktoru, BMT baş katibinin müavini Babatunde Osotimehinin görüşləri

Noyabrın 12-də cənab Prezident İlham Əliyev BMT-nin Əhali Fondunun icraçı direktoru, BMT baş katibinin müavini Babatunde Osotimehini qəbul etmişdir.

BMT ilə uğurlu əməkdaşlığa görə dövlətimizin başçısına minnətdarlığını bildirən Babatunde Osotimehin əlaqələrimizin inkişaf etdirilməsinə Azərbaycan hökuməti tərəfindən yaradılan şəraitdən məmnunluğunu ifadə etmişdir. O, ölkəmizin insan haqları və uşaq hüquqları məsələsində böyük nailiyyətlər qazandığını və gender bərabərliyinə, qadın və ana hüquqlarının qorunmasına önəm verdiyini vurğulamış, Azərbaycanda bu istiqamətdə görülən işləri yüksək dəyərləndirmişdir.





Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini bərpa etməsindən ötən müddət ərzində sosial siyasətin həmişə prioritet məsələlərdən biri olduğunu və əsas diqqətin ölkənin ehtiyaclarının ödənilməsinə yönəldiyini qeyd etmişdir. Ölkə başçısı həmçinin Azərbaycanın BMT və onun ayrı-ayrı təsisatları ilə əməkdaşlığı müxtəlif sahələrdə genişləndirməkdə maraqlı olduğunu bildirmişdir.
Sonra Babatunde Osotimehin BMT-nin 1994-cü ildə Qahirədə keçirilən əhali və inkişaf üzrə Beynəlxalq konfransından irəli gələn məsələlərin reallaşdırılmasında siyasi iradə, yorulmaz fəaliyyət və böyük səylər göstərdiyinə, eləcə də Davamlı İnkişaf Proqramının Azərbaycanda dəstəklənməsi, o cümlədən qadınların və gənclərin sağlam həyat şəraiti imkanlarının genişləndirilməsi istiqamətindəki xidmətlərinə görə BMT-nin Əhali Fondu adından mükafatı Prezident İlham Əliyevə təqdim etmişdir.

Daha sonra Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Babatunde Osotimehin ilə görüşmüşdür.

Səmimi görüşə görə minnətdarlığını bildirən Babatunde Osotimehin Heydər Əliyev Fondu ilə əməkdaşlıqdan böyük şərəf hissi duyduğunu söyləmişdir. Görüşün sonunda Babatunde Osotimehin Azərbaycanda qadınların və uşaqların hüquqlarının qorunması, həmçinin gender bərabərliyi sahəsində göstərdiyi xidmətlərə görə BMT-nin Əhali Fondunun xatirə diplomunu və hədiyyəsini Mehriban Əliyevaya təqdim etmişdir.

Daha sonra Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində Azərbaycanda rəsmi səfərdə olan BMT-nin Əhali Fondunun icraçı direktorunun, BMT-nin Baş Katibinin müavini cənab Babatunde Osotimehinin, BMT-nin Əhali Fondunun Azərbaycan üzrə ölkə direktoru cənab Karl Kulessa, BMT-nin Əhali Fondunun icraçı direktorunun köməkçisi cənab Ojuolape Edvard, BMT-nin Əhali Fondunun Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisinin direktoru cənab Heimo Laakkonen və BMT-nin Azərbaycandakı rezident-koordinatoru cənab Antonius Bruk, BMT-nin Əhali Fondunun Proqram bölməsinin rəhbəri cənab Ramiz Ələkbərov, BMT-nin Əhali Fondunun nümayəndəliyinin rəhbəri cənab Fərid Babayevin iştirakı ilə Komitənin sədri xanım Hicran Hüseynova ilə ikitərəfli görüşü keçirilmişdi.

Görüş çərçivəsində komitənin sədri xanım Hicran Hüseynova qonaqları salamlayaraq, Ermənistan - Azərbayan- Dağlıq Qarabağ münaqişəsi nəticəsində qaçqınlar və məcburi köçkünlər və onların reabilitasiyası, reinteqrasiyası, qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi istiqamətində ölkə təcrübəsi haqqında məlumatı çatdırmışdır.

BMT-nin Əhali Fondunun icraçı direktorunun, BMT-nin Baş Katibinin müavini cənab Babatunde Osotimehinin Azərbaycanın insan hüquqlarının müdafiəsi, xüsusilə qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində nailiyyətlərini qeyd etmişdir.

Yekunda tərəflər gender bərabərliyinin təmin edilməsi sahəsində ikitərəfli əməkdaşlığın genişlənməsi və inkişafına dair məsələləri müzakirə ediblər.

## *Azərbaycan standartlarının möhtəşəmliyi tarixə imza atdı*

Son illər Azərbaycanda aparılan ardıcıl, məqsədyönlü və uzaqgörən siyasət nəticəsində beynəlxalq birliyin, nüfuzlu təşkilatların ölkəmizə olan inam və etibarı nəzərə çarpacaq dərəcədə artmışdır. Ölkəmizdə mövcud olan sabitlik, inkişaf, demokratiya, tərəqqi mühiti ölkənin mötəbər siyasi, iqtisadi, humanitar tədbirlərə uğurla ev sahibliyi etməsində özünü daim büruzə vermişdir. Artıq Azərbaycan Avropanın müasir infrastruktura malik lider idman ölkələrindən biri kimi tanınır və aparılan dövlət siyasəti sayəsində ölkəmiz öz mövqeyini dünyaya uğurla nümayiş etdirir.

Ölkəmizdə "Bakı 2015" ilk Avropa Oyunlarının keçirilməsi isə öz növbəsində Azərbaycanın beynəlxalq münasibətlər sistemində güclü nüfuzunun olmasını bir daha sübut etdi və əldə olunan uğurlar qürurla təqdim olundu. Avropa qitəsində ilk dəfə təşkil olunan bu mötəbər idman tədbirinin məhz Azərbaycana həvalə olunması beynəlxalq idman ictimaiyyətinin ölkəmizdə görülən bütün işlərə, xüsusən də idman sahəsində əldə edilən nailiyyətlərə verdiyi yüksək dəyərdir. Avropa üçün bu oyunlar, çoxsaylı idman növləri üzrə təşkil edilən, maraqlı və innovativ yarışları ilə seçildi.

Cənab Prezident İlham Əliyev öz çıxışlarında vurğulamışdır ki, "Biz artıq Avropa miqyasında Azərbaycan standartlarını yaradırıq. Bu standartlar dövlət quruculuğunun inkişafından, dövlətin idman siyasətinin möhkəmliyindən xəbər verir".




Danılmaz faktdır ki, ölkə prezidentinin və ölkənin birinci xanımının Avropa Oyunlarına xüsusi diqqət ayırması və önəm verməsi insanların, xüsusən də idmançıların həvəs və motivasiya hissinin yüksəlməsinə səbəb olmuşdur. Qədim Atəşgah məbədindən alovlandırılan məşəlin bütün ölkəmizi dolaşması və həmin məşəlin, Prezident və ailə üzvləri başda olmaqla, görkəmli ziyalılar, sənət adamları, idmançılar tərəfindən alovlandırılması dövlətin xüsusi qayğısının təzahürüdür. Həmçinin, idmançılarda qələbə ruhunun formalaşdırılması üçün Prezident və ailə üzvlərinin yarışlarda şəxsən iştirakı və qalibləri mükafatlandırması idmançıların qürur və fərəhinə səbəb olmuşdur.

İdmançılarımız Azərbaycanın 50 ölkə arasında, medalların sayına görə, məhz ikinci pillədə qərarlaşmasına nail olmuşdular. Ölkəmizi təmsil edən idmançılarımız öz müsahibələrində dəfələrlə dövlətin onlara olan xüsusi qayğısını vurğulamış və cənab prezidentə öz minnətdarlıqlarını bildirmişlər.

İlk Avropa Oyunlarının layiqincə həyata keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, İSESCO və UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım



Əliyevanın rəhbərliyi ilə Təşkilat Komitəsi yaradılmışdır. Onun təşəbbüsü ilə həyata keçirilən layihələr səhiyyə, mədəniyyət, sosial, ekologiya sahələrindən əlavə, idmanı da geniş əhatə edir. Mehriban xanımın fəaliyyəti müasir Azərbaycan tarixinin bir hissəsinə çevrilib, cəmiyyətin həyatında Azərbaycan qadınının rolu haqqında aydın təsəvvür yaradır. İlk Avropa Oyunlarının yüksək, güclü və peşəkar səviyyədə təşkil olunması və həyata keçirilməsində onun böyük və əvəzolunmaz əməyi vardır. Bu mötəbər işi həyata keçirməklə, o, yaradıcılıq işlərinə stimul verdi. Ölkənin birinci xanımı bu möhtəşəm oyunların yüksək səviyyədə keçirilməsi üçün bütün işlərlə -təşkilatçılıq, yaradıcılıq, idman obyektlərinin təmir və tikintisi ilə şəxsən maraqlanıb məşğul olmuşdur. Mehriban xanım Əliyevanın idmana olan xüsusi marağı, diqqət və qayğısı hər zaman hiss olunur və özünü daim büruzə verir.

Birinci xanımın İlk Avropa Oyunlarının keçirilməsinə hazırlıq üzrə Təşkilat Komitəsinə başçılıq etməsi onun fəaliyyətinin ölkənin beynəlxalq arenada nüfuzunun yüksəlməsindəki əhəmiyyətinə dəlalət edir. Təşkilat Komitəsi Azərbaycan idmanını yüksək səviyyədə nümayiş etdirmişdir. Oyunların təşkilinin məsuliyyətli bir iş olduğunu müsahibələrində də daim vurğulayan Mehriban xanım Əliyeva, həmçinin onu da qeyd etmişdir ki, I Avropa Oyunları Avropa idmanı tarixində yeni səhifə açacaq.

Bu səhifəni Azərbaycan Xalqı yazır. Mehriban xanımın Açılış mərasimindəki xüsusi, məharətli və heyrətamiz çıxışı isə alqışlarla qarşılanmışdı. Onun yüksək səriştəsi, gözəl və mahir nitqi bütün dünyaya nümayiş olunmuşdu. O, öz timsalında Azərbaycan qadını obrazını yaradaraq qadınlarımızın nələrə qadir olduğunu bir daha göstərmişdi.

Bu möhtəşəm idman yarışlarının təşkilindəki orijinallıq həm də ondan ibarət idi ki, 12 iyun tarixində reallaşan Açılış mərasimi və 28 iyun tarixində yekunlaşan Bağlanış mərasimi öz fərqliliyi ilə seçildi. Paytaxt şəhərimizdə baş tutan açılış və bağlanış mərasimini xüsusi emosiyalarla ifadə etmək mümkün deyildi. Hər kəs bu həyəcanlı anları anbaan yaşadı. Bakı Olimpiya Stadionu öz möhtəşəmliyi, əsrarəngiz gözəlliyi ilə hər kəsin diqqətini öz üzərinə çəkdi. Burda dünyanın aparıcı, bədii və texniki heyətinin iştirakı ilə ərsəyə gələn təkrarolunmaz, qeyri -adiliyi ilə seçilən şou nümayiş olundu. Stadion ən mürəkkəb səhnə mexanizmindən ibarət olan səhnəyə malik idi.

Bir məqam da xüsusilə qeyd olunmalıdır ki, İlk Avropa Oyunları Azərbaycanda gənc nəslin və uşaqların idmana olan marağının daha da artmasına öz xüsusi töhfəsini verəcəkdir. Azərbaycan gəncinin potensialı, fiziki gücü, mənəvi iradəsi çox böyükdür. Gənc nəslin, xüsusən də uşaqların idmana olan marağının formalaşdırılması, idmana olan xüsusi həvəs ruhunun aşılanması dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycanda idman yarışları artıq kütləvi xarakter daşıyır və kütləviliyin qorunub saxlanması üçün xüsusən gənc nəsil və uşaqlar idmanın inkişafında mühüm rol oynayırlar. Uşaqlar üçün bədən tərbiyəsi həyatın ayrılmaz tərkib hissəsinə çevrilir. Bunun reallaşmasında dövlət siyasətinin uğurla həyata keçirilməsi əsas rol oynayır. I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi isə öz təsirini gələcəkdə daha aydın büruzə verəcəkdir, belə ki, uşaqların idmana olan marağı daha da artacaq, onlar çempion olmağa can atacaqlar. İdman təşəbbüslərində iştirak etmək uşaqların fiziki və sosial inkişafının ayrılmaz və əhəmiyyətli hissəsidir. 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günündə qadın milli komandasının futbolçusu 17 yaşlı Aysun Əliyeva Bakı 2015 Avropa Oyunlarının məşəlini Quba rayonunda qəbul edərək bu şərəfli missiyanı yerinə yetirməyə nail olmuşdur.

Keçirilən oyunlar ərzində idman zallarının uşaqlarla bütünlüklə dolması onların idmana olan xüsusi marağının göstəricisidir. Valideynlər özlərindən əlavə uşaqları üçün də biletlər alır, onları bu möhtəşəmliyi, bu canfəşanlığı görməyə sövq edirdilər. İdman meydançalarında, zallarında uşaqların üstünlük təşkil etməsi, hətta dəstəklədikləri ölkənin adını yüksək səslə səsləndirmələri, bayraqları dalğalandırmaqla öz vətənpərvərliklərini və azərkeşliklərini göstərmələri uşaqların idmana olan

həvəsinin əyani təcəssümüdür. Uşaqlarla birgə digər həmvətənlərimiz də idman meydançalarında yığışaraq öz azərkeşliklərini, dəstəklərini bildirirdilər. Bu, xalqımızın vətənpərvərliyinin, birliyinin, dəstəyinin yüksək səviyyədə olduğunun nümunəsidir. Tək Azərbaycanda yaşayan vətəndaşlar deyil, ölkəmizin hüdudlarından kənarda yaşayan həmvətənlərimiz də ölkəmizin bu Oyunlara ev sahibliyi etməsini fəxarət hissi ilə qarşılayırdılar.




Oyunlar ərəfəsində nəzərə çarpan əsas amillərdən biri də Avropa Oyunlarının təşkilatçılığına çox sayda gənclər cəlb olunması idi. Bu gənclər öz istəkləri ilə könüllü şəkildə çalışırdılar. Könüllülər oyunların uğurlu alınmasında mərkəzi yeri tutdular və əlbəttə ki, onların əldə edəcəkləri təcrübə Azərbaycanın gələcək inkişafına öz töhfəsini verəcəkdir. Gənclər arasında könüllü mədəniyyəti tam formalaşıb və tələbə -gənclərimiz bu missiyanı uğurla yerinə yetirdilər. Yaşı az olan çox sayda uşaq bu oyunlarda könüllülük statusu almaq üçün müraciət etmişdi, bu da uşaqların necə həvəslə, yorulmaq bilmədən oyunlarda iştirak etmək istəyinin göstəricisidir. Bu gəncləri birləşdirən birinci əsas dəyər Azərbaycan sevgisidirsə, digər bir dəyər isə idmana olan həvəsdir. Bu gün Azərbaycanın Avropa Oyunlarında qazandığı bütün medallarda könüllülərin zəhməti, əməyi hiss olunur. Xarici qonaqlar da könüllülərin fəaliyyətini yüksək qiymətləndirərək onların əməyinin bu mötəbər yarışda əsas amillərdən biri olduğunu dəfələrlə vurğulayıblar. Və onların təfəkküründə Azərbaycan gəncinin potensialı canlanıb.



Ölkəmizdə qadınların idmana olan marağının artmasında da I Avropa Oyunlarının oynayacağı rol qeyd olunmalı əsas məqamlardandır. Ümumiyyətlə, Azərbaycanın hüquq sistemi kişi və qadınlar üçün bərabər hüquqlar təmin edir, idman sahəsindən əlavə, ölkə hökumətində və yerli idarəetmələrdə də qadınların tutduğu vəzifələrin sayı artır. Xüsusən də, oyunlar ərəfəsində qadın idmançılarımızın fəallığı diqqətdən yayınmayıb. Qadınların da kişilərlə birgə ağır idman növlərində təmsilçiliyi gender bərabərliyinin təminatından xəbər verir. Həmçinin qız uşaqlarının idmana cəlb olunması olduqca müsbət nəticədir. Çünki bir çox ailələrdə qızların idmanla məşğul olmasına imkan yaradılmırdı. İdmana xüsusi marağı olan qızlarımız bu istəklərini yerinə yetirmək üçün daim mübarizə aparıblar. Dövlətin xüsusi qayğısı və yaratdığı mühüm şəraitin nəticəsidir ki, bütün qızlarımız hazırda rahat şəkildə idmanla məşğul olurlar, hətta valideynlər özləri qız uşaqlarını idmana cəlb etməyə çalışırlar. Xüsusən də, Mehriban xanım Əliyevanın Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsindən sonra qızların gimnastikaya olan xüsusi marağı daha da artmış, gimnastika idman növünün inkişafına təkan vermişdir. O cümlədən I Avropa Oyunlarında bir daha bütün Avropa şahid oldu ki, Azərbaycanda kifayət qədər güclü qadın idmançılar fəaliyyət göstərir. Belə ki, bu mötəbər yarışın müxtəlif istiqamətləri üzrə Azərbaycanı təmsil edən 285 idmançıdan 116-nı qadınlar təşkil edib. Azərbaycan qadınları idman bacarıqlarını böyük şücaətlə Avropa Oyunlarında nümayiş etdiriblər. Qadınlarımız da, kişi idmançılarımız kimi, onlara göstərilən etimadı doğruldaraq uğurlar qazanmağa müvəffəq oldular. Hətta oyunlar ərəfəsində ölkəmizə ilk medalı bir xanım karateçimiz İlahə Qasımova qazandırdı. 17 gün ərzində baş tutan oyunlarda Azərbaycan idmançılarının qazandığı 56 medaldan 14 medalın sahibi qadınlar oldu. Təkcə qılıncoynatma yarışında əkiz bacılar gümüş və

bürünc medal qazanmaqla fəxri kürsüyə qalxmış, Azərbaycan bayrağının qoşa dalğalanmasına səbəb olmuşdular.

Və sonda bir daha qeyd etməliyik ki, İlk Avropa Oyunları yalnız idman oyunu deyil, eyni zamanda Azərbaycanın təbliğ edilməsidir. Bakıdakı əla təşkilatçılıq, qonaqlar və fiziki məhdudiyyəti olan insanlar üçün hər cür imkanlar, obyektlərin dünya və Avropa standartlarına uyğun təşkili Azərbaycanın öz öhdəliyini çox gözəl şəkildə yerinə yetirdiyini bir daha sübut etdi. Bu oyunlar həm də Azərbaycanın yenidən tanıdılması üçün bir fürsət oldu və təbii ki, ölkəmiz də bu fürsəti yüksək şəkildə dəyərləndirdi. Azərbaycanın hazırlığı bütün beynəlxalq tələblərə cavab verirdi. Bu tədbirin müvafiq səviyyədə təşkil edilməsi və keçirilməsi ilə Bakı hər cür əhəmiyyətli tədbirləri keçirmək qabiliyyətini bütün dünyaya nümayiş etdirdi, oyunların keçirilməsi regiondakı sülh və sabitlik barədə dünya ictimaiyyətinə göndərilmiş özünəməxsus ismarıc oldu.

Avropa idman tarixində bu möhtəşəm oyunların keçirilməsi Azərbaycan imzasını bir daha təsdiq etdi. Hər zaman, hər yerdə Azərbaycanın adı ilk Avropa Oyunlarının keçirildiyi ölkə kimi xatırlanacaq, milyonlarla insanın yaddaşına həkk olunan bu oyunlar möhtəşəm, təkrarolunmaz və tarixi bir idman bayramı kimi unudulmayacaq. Çünki İlk Avropa Oyunları bizim birliyimizi, gücümüzü hamıya nümayiş etdirdi. Başda ölkə rəhbəri olmaqla, bütün Azərbaycan xalqı bu möhtəşəm tədbirin uğurla həyata keçirilməsi və sonlandırılması yolunda çalışdı. Hər bir azərbaycanlı ölkəmizlə, idmançılarımızla qürur duydu, fərəh hissi keçirdi. Birinci xanım Mehriban Əliyeva ölkə başçısına müraciət edərək çıxışında qeyd etmişdir: “17 gün ərzində Azərbaycan xalqı bir komanda və Siz bu komandanın şərəfli kapitanı idiniz. Belə olan halda, əlbəttə, qalib gəlməmək mümkün deyildi... Cənab prezident, biz hər birimiz ölkəmizin əsgərləriyik və Azərbaycanın gələcəyi naminə tam gücümüzlə xidmət etməyə hazırıq”.

## Qadın medalçılarımız



***“Bakı 2015” İlk Avropa Oyunlarının yekununda Azərbaycan 56 medal əldə etmişdir. Və bunlardan 14-nü qadınlar qazanmışdır. Avropa Oyunları sübut etdi ki, ölkəmizdə kifayət qədər qabiliyyətli, güclü, yenilməz qadınlar vardır. Ölkə rəhbərliyinin, xalqımızın idmaçılarımıza göstərilən münasibəti gənclərimizin idmana olan həvəslərini artırır, asudə vaxtlarının səmərəli təşkilində müsbət rol oynayır. Bu nəticələr bir daha onu göstərdi ki, Azərbaycan dövləti gənclərimizin fiziki sağlamlığının qayğısına qalır. Xüsusilə də paraolimpiyaçılarımızın qələbəsi hər kəsdə qeyri-adi ruh yüksəkliyi yaşatdı. 3 qızıl, 5 gümüş, 6 bürünc medal qazanaraq xalqımıza sevinc dolu anlar bəxş edən qəhramanlarımız həm də gənc qızlarımızın idelına çevrildilər.***



Müxtəlif peşəli, geniş dünyagörüşlü insanların, həm də əsl ailə həyatını təcəssüm etdirməsi bu gün də gənclərə nümunədir. Belə insanların məhşur ailələrin üzvləri olması isə onların həyatlarının, bir -birinə və övladlarına olan münasibətlərinin hər zaman bir örnək kimi qəbul edilməsinə səbəb olur. Azərbaycan xalqının sadiq oğlu, Ümummilli Lider Heydər Əliyevin ailəsi də gənclərimizə örnəkdir. Bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış Heydər Əliyev bu uğurun arxasında hər zaman ailəsinin dayandığını bildirirdi. Böyük şəxsiyyətlərin arxasında böyük qadınlar dayanır. O qeyd edirdi ki, “.... Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin rolu böyük olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib”. Milli, maddi və mənəvi dəyərlərimizi təbliğ etmək və gənc nəsillərə ötürmək xalqımızın gələcəyi üçün çox böyük əhəmiyyətə malikdir.

Bu bir həqiqətdir ki, Zərifə xanım xalqın yaddaşında novator və istedadlı alim, bilikli və bacarıqlı həkim, tanınmış ictimai xadim, gözəl və qayğıkeş ana kimi qalıb. Zərifə xanım müdrik, nikbin, təmkinli, səbrli, dözümlü qadın olaraq biliyi, bacarığı, səmimi, xoş rəftarı, söhbətləri, insanlara qayğı və mərhəməti ilə hamının rəğbətini qazanmışdı.

Azərbaycan ailə modelinin əsas simalarından olan Heydər Əliyev ailəsinin ideal sayılmasında Zərifə xanımın xüsusi əməyi olmuşdur. O, valideynlərindən götürdüyü bütün yüksək milli -mənəvi keyfiyyətləri sonradan Heydər Əliyevlə qurduğu ailəsində tətbiq etməyə başlamışdı. Elmi və ictimai fəaliyyətinin çox geniş olmasına baxmayaraq, Zərifə xanımın həyatda ən ağır məsuliyyəti Ümummilli Lider Heydər Əliyev ilə ailə qurması idi. Çünki bu incə təbiətli, kövrək qadın öz zərif çiyinlərində dünya şöhrətli siyasətçinin yaxın silahdaşı və övladlarının anası olmaq missiyasını şərəflə daşımış, Ulu Öndərin inam və etibarını hər addımında doğrultmuşdu. Birgə yaşadıqları o xoşbəxt illərdə Heydər Əliyev həmişə gərgin iş rejimi ilə gecə -gündüz işləmiş, xalqının gələcəyi yolunda ömrünü şam kimi əritmişdi. Ən ağır, ən təhlükəli vaxtlarda belə Zərifə xanım həyat yoldaşını tək qoymamış, onun dayağına çevrilmişdi. Cəmiyyətin həyatında fəal rol oynayan Zərifə xanım ailəsinə son dərəcə bağlı olan bir qadın, gözəl ana idi. Öz analıq missiyasını sevdiyi peşəsi ilə birləşdirən bu xanımı bir qadın, bir alim və həkim kimi cəmiyyətin inkişafına xidmət edən ailəsindən ayrı düşünmək olmazdı. Böyük zəka sahibi olan Zərifə xanım analıq vəzifəsinin öhdəsindən də çox gözəl gəlirdi. O, hər zaman övladları ilə də səmimi olmuş, onlara dost münasibəti bəsləmişdi. Zərifə xanım öz ömür - gün yoldaşı Heydər Əliyev ilə birlikdə qəlblərində daim Azərbaycan sevgisi yaşayan,

vətənimizin qüruru sayılan övladlar yetişdirmişlər. Zərifə xanım özünə xas olan xeyirxahlıq, alicənablıq, insanseverlik, səmimilik kimi xüsusiyyətlərini övladlarına da ötürmüşdü. Onun təmkinliliyi, səbirliliyi, dürüstlüyü, düşüncəsi, ağlı, savadı və digər müsbət xüsusiyyətləri övladlarının seçdikləri yolda özünü biruzə verir, onların bu yolu getməklərinə daim kömək edir.

Zərifə xanım çox ünsiyyətcil gözəl insan idi, onun danışığında səmimilik, mülayimlik müşahidə olunurdu. Kimsənin xətrinə dəyməyi sevməzdi. Hətta dəvət edildiyi tədbirləri geri çevirməz, canla -başla iştirak edərdi. Onun həyat enerjisi o qədər güclü idi ki, bundan yan keçmək olmazdı. Zərifə xanım həm gözəl dost, həmdə yaxşı sirdaş idi. Yaxşı dostun dar gündə tanınmasını o, həmişə sübut edirdi. Daim dostlarının yalnız yaxşı deyil, pis günlərində də yanlarında olur, dərdlərini öz dərdi kimi qəbul edirdi. Bir çoxları bu nəcib insanı çox savadlı, diqqətli, mərhəmətli və mehriban həkim və elm xadimi olmaqla yanaşı, həm də yaxşı bir dost kimi xatırlayırlar.

Zərifə Əliyeva Azərbaycanın səhiyyə sahəsində silinməz iz buraxmışdır. O, şöhrətli alim, görkəmli oftalmoloq kimi öz töhfələrini verməklə gənc oftalmoloqların inkişafı naminə də çalışmışdır. Novator alimin zəngin elmi irsi, öz sahəsi üzrə apardığı tədqiqatlar, müəllifi olduğu əsərlər ölkəmizin tibb sahəsinin genişlənərək inkişaf etməsində çox mühüm əhəmiyyət kəsb edir. Onun əsərləri oftalmoloqların daim müraciət etdiyi, yaşanan zamandan asılı olmayaraq onları qane edən, bilik və təcrübələrini artırmağa kömək edən dərsliklərdir. Akademik Zərifə xanımın Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıtması və öz dəsti -xətti ilə hər zaman seçilməsi də onun fərqliliyindən, qabilliyətindən xəbər verir. Qeyd etmək lazımdır ki, o, həmçinin, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü olan ilk oftalmoloq olmuşdur.

Zərifə xanım belə düşünürdü ki, müalicəsinin uğurlu olması üçün həkim ilk növbədə insanların ağrısını hiss etməlidir. "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir." Qeyd etmək lazımdır ki, Zərifə xanım Azərbaycanda oftalmologiya sahəsində ilk akademik qadın olmuşdur. O, təkcə tibb sahəsinə maraq göstərmirdi, o, həmçinin ədəbiyyatı, musiqini də çox sevirdi. Onun ədəbiyyat sahəsindəki bilikləri, incəsənət, xüsusən də təsviri incəsənət, rəsm əsərləri haqqında mülahizələri onun həmsöhbətlərini heyrətləndirirdi. O, həmçinin, fortepiano üzrə musiqi təhsili da almışdı və bu alətdə çox gözəl əsərlər ifa edirdi.

Xəstələrə dünya işığı bəxş etmiş Zərifə xanım Əliyeva gələcəyimiz olan uşaqları bir ana kimi sevir, onlara xüsusi qayğı və nəvazişlə yanaşırdı. O deyirdi ki, uşaqlıq çağları hər bir kəsin özünü dərk etməsində həlledici mərhələdir və ömrü boyu müraciət etdiyi uşaqlıq dünyasını heç nə ilə əvəz etmək mümkün deyil, insan məhz uşaqlıqda xeyrin və şərin nə olduğunu anlayır.

Artıq uzun illərdir ki, tanınmış oftalmoloq alim, akademik Zərifə xanım Əliyeva bizim aramızda yoxdur. Hər dəfə bu gözəl insanı xatırlayanda dərin kədər hissi keçiririk. Zərifə xanım bir həkim, alim və vətəndaş kimi bütün ömrü boyu xalqı üçün çalışmışdı və o, səhiyyənin inkişafında oynadığı rol, insanların sağlamlığı yolunda gördüyü işlərlə əbədi olaraq xatirələrdə, xalqın yaddaşında daim yaşayacaqdır.

Zərifə xanımın ömür -gün yoldaşı Ümummilli Lider Heydər Əliyev ailənin cəmiyyətdəki rolunu xüsusi olaraq qeyd edirdi: "Ailə dəyərləri, ailə ənənələri, milli -mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir". Ailəni, ailə münasibətlərini son dərəcə yüksək dəyərləndirən Heydər Əliyevin fikrincə, cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, ailədə də hər bir insan özünəməxsus statusa, qayda -qanuna, əlaqələrə və prinsiplərə riayət etməlidir. Hər bir ailə üzvü öhdəsinə düşən funksiyaları yerinə yetirməli, ailənin rifahı üçün bacardığını etməli, ailə üzvlərinə hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalı, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara sadiq olmalıdır. Çünki ailə olmasa, cəmiyyət də inkişaf edə bilməz. Cəmiyyətin inkişafı ailələrin inkişafından asılıdır. Ailə İnstitutunun möhkəmliyi cəmiyyətin və dövlətin

gücləndirilməsinə, inkişaf etməsinə zəmin yaradır. 90-cı illərdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə ailənin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycan mühüm beynəlxalq Konvensiyalara qoşulmuş və respublukamızda müvafiq qanunlar qəbul edilmişdir. Həmin Konvensiyalara əsasən daxili qanunvericilikdə mühüm islahatlar aparılmışdır.

Müstəqil dövlətimizin ali sənədinin - Konstitusiyanın müəllifi olan Heydər Əliyev burada ailənin mahiyyətini, ailə üzvlərinin vəzifə və hüquqlarını xüsusi maddələrlə müəyyən etmişdir. Eləcə də, 2000-ci ildə Ailə Məcəlləsinin qəbul olunması nəticəsində ailə üzvlərinin digər hüquq və vəzifələri ilə yanaşı, mülki hüquqları da təsbit olunmuşdur. Ailə üzvlərinin sağlamlığı, xüsusilə ana və uşaqların sağlamlığının mühafizəsi çox önəmli məsələlərdir. Heydər Əliyev ailədə sağlam uşaqların doğulması, eləcə də, narahatlıq doğuran məsələlərdən biri olan, qan qohumluğunun qarşısının alınması istiqamətində xüsusi fəallıq göstərir, tibb işçilərinə göstərişlər verir və ən müxtəlif səviyyələrdə müzakirələr aparırdı. O, 1995-ci ildə "Respublika Ailə -Sağlamlıq Mərkəzi"nin açılışında çıxış edərkən qan qohumluğu evliliyi və onun fəsadları barədə deyirdi : ".... bizim xalqımızın, millətimizin sağlamlığı üçün, həm fiziki, həm zehni cəhətdən sağlamlığı üçün yaranan problem qohumların bir -biri ilə ailə qurmasıdır. Təəssüf ki, bu, bizim millətimizin, xalqımızın qədimlərdən qalmış ənənəsidir. Biz ənənə və adətlərimizin çoxuna hörmət bəsləyirik, onları inkişaf etdiririk və inkişaf etdirməliyik. Amma o adətlər, o ənənələr insan üçün, cəmiyyət üçün zərərlidirsə biz onlardan xilas olmalıyıq, imtina etməliyik. Bax, bu adət-ənənələrdən biri də keçmişdən bizə miras qalmış, millətimizə xas olan adət -qohumların evlənməsi, ailə qurmasıdır. Siz, tibb işçiləri və alimləri bunun həm ailələr üçün, həm də ümumiyyətlə millətimizin gələcəyi üçün nə qədər zərərli olduğunu bilirsiniz. Amma nədənsə, bu sahədə ciddi tədbirlər görülmür. Belə adət -ənənələrin zərərli olduğu insanlara çatdırılmır, izah edilmir, bu sahədə lazımi profilaktik işlər, yəni izahat işləri aparılmır. Məhz bunların nəticəsində, - yəqin ki, siz bu sahədə tədqiqatlar aparmısınız, bilirsiniz, - çox adamlar anadangəlmə şikəst olur, yaxud əqli cəhətdən inkişaf etmir. Beləları yaşasalar da, fiziki cəhətdən çatışmazlıq onları həmişə incidir". Bu bir həqiqətdir ki, sağlam ailə sağlam nəsil, sağlam millət deməkdir. Bu baxımdan, Ulu Öndərin imzaladığı "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunu xüsusilə qeyd etmək lazımdır. Məhz bu xidmətin və qayğının nəticəsidir ki, ildən -ilə ailələrin sayı çoxalaraq, hazırda iki milyonu ötmüşdür.



Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu şərəflə davam etdirən, artıq dünya siyasi xadimləri sırasında öz layiqli yerini tutan Cənab Prezident İlham Əliyev tərəfindən bu sahədə islahatlar aparılmışdır. Xüsusilə, ailə, qadın və uşaq hüquqlarının müdafiəsinin reallaşdırılması üçün 1998-ci ildən fəaliyyət göstərən Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinin əsasında, Möhtərəm Prezident İlham Əliyevin Sərəncamı ilə, 2006-cı ildə bu sahədə vahid dövlət siyasətini həyata keçirən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdı. Ailənin möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində hüquqi islahatlar aparılmışdır. Azərbaycan Respublikasının "Gender (kişi və qadınların) bərabərliyinin təminatları", "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunları hüquqların bərabərliyi istiqamətində atılmış ən uğurlu addımlardandır. Ailə

Məcəlləsinə edilən dəyişiklik əsasında qızlar və oğlanlar üçün nikah yaşı 18-ə qaldırılmışdır. Azərbaycan Respublikası Cinayət Məcəlləsində yetkinlik yaşına çatmayan qızları nikaha daxil olmağa məcbur etməyə görə xüsusi maddə ilə məsuliyyət müəyyən edilmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban xanım Əliyeva qadınların problemlərinə, onların ictimai həyatda fəal rolunun təmin edilməsinə böyük qayğı ilə yanaşır. Məhz "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun qəbul olunmasında Mehriban xanım Əliyavanın xüsusi təşəbbüsü olmuşdur.

Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümummilli lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək, genişmiqyaslı proqram və layihələrin reallaşmasına dəstək üçün yaradılan Heydər Əliyev Fondu bu missiyanı şərəflə həyata keçirir. Artıq 10 ildir ki, fəaliyyət göstərən Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələri reallaşdıraraq yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial -iqtisadi inkişafına öz töhfəsini verir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə tikilən xəstəxanalar, məktəblər, internat evləri qadınların və uşaqların sağlamlığının müdafiəsinə, onların daha keyfiyyətli təhsil almasına şərait yaratmışdır. Bir məsələni xüsusilə vurğulamaq lazımdır ki, bu gün Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü və Fondun maliyyə dəstəyi ilə yalnız Azərbaycanda deyil, Amerikada, Avropanın bir çox ölkələrində, Müstəqil Dövlətlər Birliyi respublikalarında, müsəlman ölkələrində bir sıra sosial, elm və mədəniyyət sahələrində layihələr həyata keçirilir. Azərbaycan mədəniyyətinin, müsiqisinin, incəsənətinin, ədəbiyyatının, tarixinin dünyada tanınmasında bu Fondun rolu danılmazdır. Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın şəxsi dəstəyi və köməyi nəticəsində reallaşan genişmiqyaslı tədbirlər ana və uşaq ölümünün qarşısının alınması, hemofiliya, talassemiya və şəkərli diabet xəstəliklərinin azalması istiqamətində profilaktik və müalicəvi işlərin aparılmasına müsbət təsir göstərir. Azərbaycanın ən ağrılı problemi olan Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı törədilən genosid haqqında məlumatların dünyaya yayılmasında və təbliğ olunmasında Heydər Əliyev Fondunun və onun vitse -prezidenti Leyla xanım Əliyevanın rolu çox böyükdür.

Ailənin bütövlüyünün qorunmasında Azərbaycan qadınının özünəməxsus yeri vardır. Böyük mədəni irsə malik olan Azərbaycan xalqı qadının ailədə və cəmiyyətdəki roluna daim böyük ehtiramla yanaşmışdır. Ümummilli Lider Heydər Əliyev ailədə ananın rolunu yüksək qiymətləndirirdi: ".... Amma ən əziz amil odur ki, hər bir insan dünyada həyatına görə, bütün varlığına görə anaya borcludur. "Ana" sözü müqəddəsdir. Təsadüfi deyil ki, biz Vətənə də "Ana Vətən" deyirik, torpağa da "Ana torpaq" deyirik. Anaya hörmət, ana qarşısında borcunu yerinə yetirmək hər kəsin ən ali vəzifəsi olmalıdır. Ana cəmiyyətimizə yararlı olan zəkalı, istedadlı insanlar böyüdərək, onları vətənə bəxş edir. Ana ailənin dayağıdır. Hər bir ailənin səadəti, əmin - amanlığı birinci növbədə ananın rolundan və onun fəaliyyətindən asılıdır. Hər birimiz anaya borcluyuq və hər bir qadın da ana olmaqla xoşbəxt olur. Müharibələrdə vuruşan qəhrəman, cəsur Azərbaycan övladlarını boya - başa çatdıran bütün analar, qadınlar cəmiyyətimizdə xüsusi yer tuturlar. Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, Umummmillli Lider Heydər Əliyevin ən böyük xidmətlərindən biri də 1994-cü ildə atəşkəslə bağlı sənədi imzalaması olmuşdur. Bu atəşkəs ana və bacıların axan göz yaşlarını dayandırdı. Dahi şəxsiyyət Heydər Əliyev öz xanımı haqqında çox haqlı olaraq demişdi: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda hesab edirəm ki, ailəmin çox böyük rolu olub...Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval -ruhiyyədədirlər. Onlar bu əhval -ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar." Bu bir kişinin, bir atanın öz həyat yoldaşı və ömrünün sadiq sirdaşı haqqında etdiyi ən böyük etirafdır.

## Qeyri -rəsmi nikahın hüquqi problemlləri



Yaxın vaxtlaradək kişi ilə qadının qeyri -rəsmi nikahda, yəni mülki nikahda yaşaması nadir hallarda olurdu. İndi isə vəziyyət dəyişib. Bir çoxları öz ailə münasibətlərinin rəsmləşdirilməməsinə üstünlük verirlər. Və yaxud da müəyyən müddət birgə yaşadıqdan sonra nikaha daxil olurlar. Bu məsələyə yanaşmalar müxtəlifdir. Bəziləri ailə münasibətlərinin bu formada qurulmasına olduqca pis baxırlar, bəziləri isə gələcəkdə baş verəcək mübahisələrdən sığortalanmaq üçü qeyri -rəsmi nikaha üstünlük verirlər, xüsusilə də kişilər. Ölkəmizdə qeyri -rəsmi qurulan ailələrin əksəriyyətinin dini kəbininin olması onlar üçün kifayət hesab edilir, dövlət qeydiyyatına isə ehtiyac olmayan formal prosedur kimi baxırlar. Azərbaycan Respublikasının Ailə Məcəlləsinə əsasən yalnız müvafiq dövlət orqanında qeydiyyatdan keçmiş nikahların hüquqi statusa malik olmasına baxmayaraq, təəssüflə deyilməlidir ki, qeyr i-rəsmi nikahların sayı artmaqdadır və bu hallar ailə münasibətləri sistemində müəyyən qədər yer almışdır.

Ailə Məcəlləsinin 9.4-cü maddəsinə əsasən "Ər -arvadın hüquq və vəzifələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən nikahın bağlanmasının dövlət qeydiyyatı günündən yaranır". Yalnız qanunvericiliyə uyğun olaraq rəsmi qaydada dövlət orqanlarında (Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin ərazi qeydiyyat şöbələri) bağlanmış nikah qanuni sayılır.

Ailə hüququ üzrə fəaliyyət göstərən hər bir vəkil, hüquqşünas qeyri -rəsmi nikahda yaşayan şəxslərin problemləri ilə tez -tez rastlaşmalı olurlar.Tərəflərin ailə münasibətləri barədə məlumatsız olması əksər hallarda çoxsaylı problemlərin yaranmasına gətirib çıxarır. Təcrübə göstərir ki, qeyri -rəsmi nikahın mahiyyəti və hansı hüquqi nəticələr yaratması ilə bağlı suallara aydınlıq gətirilməsinə ehtiyac vardır.

## Qeyri -rəsmi nikah nədir?

"Qeyri -rəsmi nikah" anlayışı özlüyündə hüquqi termin deyil, bu ifadə kişi ilə qadının qeydiyyat şöbəsində dövlət qeydiyyatından keçmədən birgə yaşayışını müəyyən edir. Qanun isə müvafiq qaydada rəsmiləşdirilmiş nikahdan başqa hər hansı digər formaları tanımır. Çox zaman rəsmi nikahda olsalar da uzun müddət ayrı yaşayan, bir -biri ilə maraqlanmayan insanlar ər -arvad kimi tanınır, uzun illər birgə yaşayan, uşaq dünyaya gətirən, lakin qeydiyyatdan keçməyən şəxslər isə bu statusa malik olmurlar.

## Aliment məsələsi

Qeyri -rəsmi nikahda olan şəxslərin münasibətləri pozulduqda onlar arasında daha çox aliment öhdəliyi ilə bağlı mübahisələr ortaya çıxır. Bilmək lazımdır ki, qanunvericiliyə əsasən qeyri -rəsmi nikahda olan valideynlərin uşaqları, rəsmi nikahda dünyaya gələn uşaqlar ilə eyni hüquqi statusa malikdirlər. Ona görə də, aliment öhdəlikləri anoloji qaydada Ailə Məcəlləsinin müvafiq maddələrinə uyğun yaranır. Lakin qeyd etmək lazımdır ki, rəsmi nikahdan fərqli olaraq qeyri -rəsmi nikahda ərin atalıq prizumpsiyası mövcud olmur. Bu zaman atalığın müəyyən edilməsi üçün ata tərəfindən qeydiyyat şöbəsinə atalığın tanınması haqqında öz şəxsi ərizəsi təqdim edilməlidir. Əks halda, atalığın məhkəmədə sübuta yetirilməsi halı yarana bilər. Atalığın məhkəmə qaydasında müəyyən edilməsinə o vaxt ehtiyac yaranır ki, tərəflər rəsmi nikahda deyillər və ata öz atalığını təkzib edir.

Ana və ya istənilən maraqlı şəxs (məsələn, nənə və ya baba) atalığın müəyyən edilməsi və alimentin ödənilməsi tələbinə dair məhkəmədə iddia qaldıra bilər. Təəssüflər olsun ki, məhkəmələrdə bu tipdən olan işlərin sayı çoxluq təşkil edir.

Bu cür mübahisələrin xüsusi çətinlikləri olur. Birincisi, gənc ananın hüquqşünas və ya vəkil xidmətindən istifadənin əvəzini ödəmək imkanının olmaması, ikincisi, atalığın yüz faizlik təsdiqi üçün məhkəmə tibbi -genetik ekspertiza xərcinin kifayət qədər baha olmasıdır. Nəticədə valideynlərin öz münasibətlərini rəsmiləşdirməməsindən uşaqlar əziyyət çəkir.

## Əmlak bölgüsü aparılırmı?



Qeyri -rəsmi nikahda yaşayan ər və arvadın əmlak münasibətləri də maraq yaradan məsələlərdəndir. Birgə yaşayış özlüyündə birgə əldə edilmiş əmlakla bağlı hüqquqi nəticələr yaratmır. Belə çıxır ki, qeyri -rəsmi nikahda yaşayanlar münasibətlərini rəsmiləşdirənədək əldə etdikləri əmlak onların hər birinin əmlakıdır və mübahisə yarandıqda əmlakın birgə qazanılmış vəsait hesabına alındığını sübut etmək çətin olur.

Rəsmi nikahda yaşayan ər -arvad arasındakı münasibətlərlə qeyri -rəsmi nikahda yaşayan kişi və qadın arasındakı münasibətlər oxşar olsa da, onlar status baxımdan fərqlidirlər. Çünki qeyri -rəsmi nikahda yaşayan qadınla kişinin birgə yaşamasına, birgə təsərrüfat aparmasına baxmayaraq Ailə Məcəlləsi tərəfindən tənzimlənən ər -arvad münasibətlərinə dair müddəalar onlara şamil edilmir.

Ailə Məcəlləsinin 32 -ci maddəsinə görə, nikah müddətində ər -arvadın əldə etdikləri əmlak (hədiyyə və mirasdan başqa), əmlakın kimin adına rəsmiləşdirilməyindən asılı olmayaraq, onların ümumi birgə mülkiyyəti sayılır. Və boşanma zamanı həmin əmlak ər -arvad arasında bərabər bölünür (uşağın kimlə qalmasından asılı olaraq nisbət dəyişə bilər). Tərəflərdən biri nikah dövründə ev təsərrüfatı ilə, uşaqlara qulluq etməklə məşğul olduqda və ya digər üzürlü  səbəblərə görə müstəqil qazancı olmadıqda o, ümumi əmlak üzərində hüquqa malikdir.

Qeyri -rəsmi nikahda yaşayan qadınlar əmlak və qeyri -əmlak hüquqlarından istifadə məsələsində çıxılmaz vəziyyətə düşürlər. Qeyri -rəsmi nikahda yaşayıb  ev işləri və uşaqlarla məşğul olduğuna görə və ya «əri»  işləməyinə icazə vermədiyi üçün işləməyən qadınlar faktiki ərindən ayrılanda istifadə etdikləri əmlakdan da məhrum olurlar.

Qeyri -rəsmi nikahda yaşayarkən nikah müqaviləsinin bağlanması mümükün olmur. Bununla belə, Mülki Məcəllə müəyyən hallarda şəxslərə ümumi əmlakdan istifadə və ya əmlakın bölgüsü ilə bağlı müqavilə bağlamağı qadağan etmir. Nikah müqaviləsindən fərqli olaraq, bu cür müqavilələr  notarial təsdiq edilmir ki, bu da onların bağlanmasını asanlaşdırır. Lakin hələ ki, bizim ölkədə nəinki qeyri -rəsmi nikahda yaşayan tərəflərin əmlak hüquqları haqqında müqavilələr, hətta nikah müqavilələrinin bağlanması belə nadir hallarda olur.

Qeyri -rəsmi nikahda yaşayanların mənzil problemləri

Əksər hallarda qeyri -rəsmi nikahda yaşayanları yaşayış sahəsi ilə bağlı məsələlər də narahat edir. Məsələn, bir şəxsin qeyri -rəsmi nikahda olduğu digər şəxsin evindən istifadə hüququ varmı və o, münasibətlərə son qoyulduqda yaşayış sahəsindən çıxarıla bilərmi?

2000 -ci il sentyabrın 1-dən qüvvəyə minmiş Mənzil  Məcəlləsinin 228.5-ci maddəsinə görə yaşayış sahəsindən istifadə hüququna yalnız mülkiyyətçi ilə birgə yaşayan ailə üzvləri (əri, arvadı, valideynləri, uşaqları) malikdirlər. Qanunvericiliyə görə qeyri -rəsmi nikahda yaşayan ər və ya arvad yalnız münasibətlərini rəsmiləşdirdikdən sonra ailə üzvü sayılırlar.

Qeyri -rəsmi nikahda yaşayan şəxsin mənzildən istifadə hüququnun yaranması üçün  Mülki Məcəllənin 228.1 və 228.2-ci maddələrinə əsasən mülkiyyətçi ilə  notariat qaydasında təsdiqlənmiş yazılı razılaşmanın olması və bu hüququn  daşınmaz əmlakın dövlət reyestrində qeydə alınması tələb olunur. Əgər göstərilən qaydada mənzildən istifadə hüququ əldə edilmişdirsə, mənzildən çıxarıldığı halda şəxsin hüquqnun məhkəmə müdafiəsi həyata keçirilə bilər.

## Qeyri -rəsmi həyat yoldaşı sizin vərəsəniz ola bilərmi?

Rəsmi nikahda olan ər və ya arvad qanun üzrə vərəsədir və mirasdan bərabər pay hüququna malikdir. Hətta vəsiyyətnamədə vərəsə kimi qohum olmayan digər şəxslər göstərilsə belə ərin və ya arvadın həmin mirasda məcburi pay hüququ vardır.

Qeyri -rəsmi nikah zamanı isə faktiki nikah münasibətlərinin olması faktı təsdiq edilməlidir. Bu adətən qeyri -rəsmi nikahda olan şəxsin ölümündən sonra o biri tərəfin vərəsəliyə iddiası olduqda edilir. Bu zaman faktiki nikah münasibətlərinin məhkəmə yolu ilə təsdiq edilməsinə nail olmaq mümkündür. Bu, maraqlı şəxsin məhkəməyə təqdim etdiyi sübutlar əsasında həyata keçirilə bilər.
Ümumilikdə isə belə nəticəyə gəlmək olar ki, yuxarıda qeyd edilən istisnaları nəzərə almasaq qeri -rəsmi nikah hüquq müstəvisindən kənardadır. Buna görə də, seçim edərkən hüquqi aspektllərin nəzərə alınması da vacibdir.

## Aliment haqqında



Aliment (lat. alimentum - "yemək", "qidalanma") aralarında olan izdivac və ya qohumluq əlaqələrinə görə bir şəxsin digər şəxsə qanuna uyğun olaraq verməli olduğu dolanacaq xərci mənasında işlədilir.
Qanunvericilikdə alimentlə bağlı bir sıra müddəalar öz əksini tapmışdır.
"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə əsasən, valideynlərin uşaqlar üzərində bərabər hüquq və vəzifələri vardır. Uşaq qabiliyyətinin inkişaf etdirilməsi, onun maddi və mənəvi hüquqlarının təmin edilməsi, hüquq və mənafeyinin mühafizəsi valideynlərin əsas vəzifəsidir.
Eyni zamanda həmin qanunda qeyd edilir ki, uşağın Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş minimum dolanacaq xərclərindən az olmayan maddi təminat almaq hüququ vardır.
Ailə Məcəlləsinə əsasən uşağın saxlanması üçün valideyndən vəsait (aliment ) tələb edilə bilər.
Alimentin saziş əsasında ödənilməsi.
Valideynlər arasında alimentin ödənilməsi ilə bağlı hər hansı mübahisə olmadıqda və razılığa gəlindiyi halda tərəflər arasında aliment ödənilməsi barədə saziş (alimentin miqdarı, ödənilmə qaydası və şərtləri) bağlanılır.
Aliment ödənilməsi barədə saziş yazılı formada bağlanır, notariat qaydasında təsdiq olunur və bu zaman icra vərəqəsi qüvvəsinə malik olur.
Saziş üzrə aliment borclunun təqsiri üzündən ödənilmirsə bu cür hal aliment alan tərəfindən məhkəmədə mübahisələndirilə bilər.
Saziş əsasında müəyyən olunmuş aliment öhdəliklərinə tərəflərdən birinin ölümü nəticəsində, sazişin müddəti bitdikdə və ya sazişdə nəzərdə tutulmuş əsaslar üzrə xitam verilir.
Xarici ölkəyə daimi yaşamaq üçün gedən borclu şəxs ailə üzvləri ilə aliment ödənilməsi barədə saziş bağlaya bilər.

## Alimentin məhkəmə qaydasında təyin edilməsi.

Valideynlər arasında aliment ödənilməsi barədə razılıq olmadıqda uşaqların saxlanması üçün vəsait (aliment) valideynlərdən məhkəmə qaydasında tutulur.
Aliment iddiası üzrə tələb olunan sənədlərin siyahısı:

- Nikahın bağlanılması haqqında şəhadətnamənin surəti
- Uşağın doğum haqqında şəhadətnaməsinin surəti
- Iddiaçı və cavabdehin gəliri haqqında arayış
- Dövlət rüsumunun ödənilməsini təsdiq edən qəbz
- Iddia ərizəsinin surəti

Aliment alınmasına dair iddia üzrə iddiaçı dövlət rüsumu ödəməkdən azaddır.
Əgər aliment ödənilməsi barədə saziş üzrə əvvəllər aliment ödənilməyibsə, aliment almaq hüququnun yarandığı vaxtdan asılı olmayaraq, istənilən müddətdə məhkəməyə aliment tutulması barədə ərizə ilə müraciət etmək mümkündür. Aliment məhkəməyə müraciət edildiyi vaxtdan tutulur.

## Alimentin ödənilməməsinə görə məsuliyyət.

İnzibati Xətalar Məcəlləsinin 313-cü maddəsində də qeyd edilir ki, məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərinin yerinə yetirilməməsinə və ya icra məmuru tərəfindən müəyyən olunmuş müddətdə borclunu müəyyən hərəkətləri etməyə və ya müəyyən hərəkətləri etməkdən çəkinməyə məcbur edən icra sənədinin üzürsüz səbəbdən icra edilməməsinə görə –

fiziki şəxslər beş yüz manatdan min manatadək miqdarda cərimə edilir və ya işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla on günədək inzibati həbs tətbiq olunur.

Aliment məhkəmə qətnaməsinin qüvvəyə mindiyi gündən ödənilməli, valideynin iş yerinə xəbər verilməlidir. Borclu olan tərəf alimenti ödəmədən ölkəni tərk edə bilməz. Aliment ödəməkdən yayınan şəxs Cinayət Məcəlləsinin 306-cı maddəsi ilə (Məhkəmə qərarını icra etməkdən boyun qaçırma) məsuliyyətə cəlb edilə bilər. Borclu min manatdan üç min manatadək miqdarda cərimə və ya yüz altmış saatdan iki yüz qırx saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Məhkəmə aliment verməyə borclu olan şəxsin onu verməkdən boyun qaçırması nəticəsində alimentin ödənilmədiyini müəyyən edərsə, əvvəlki dövr üçün aliment 3 illik müddət həddində verilə bilər.

## Alimentin miqdarı və ödənilmə qaydası.

Bəzən belə fikir yaranır ki aliment yalnız valideynlər boşandığı halda tutulur. Lakin valideynin məhkəməyə uşaqlarının saxlanmasına görə aliment tutulmasına dair iddia tələbi ilə müraciət etməsi üçün həyat yoldaşından boşanması əsas deyil. Elə hallar olur ki ailədə valideynlərdən birinin məsuliyyətsizliyi nəticəsində uşaqların maddi təminatı zəifləyir, onların normal inkişafına ziyan dəyir. Bu halda alimentin tutulması məhkəmə qaydasında təmin edilə bilər.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 76-cı maddəsinə əsasən valideyndən məhkəmə qaydasında hər ay aşağıdakı miqdarda aliment tutulur:

- 1 uşağa görə—qazancın və (və ya) valideynlərin başqa gəlirlərinin dörddə bir hissəsi;
- 2 uşağa görə—qazancın (başqa gəlirlərin) üçdə bir hissəsi;
- 3 və daha çox uşağa görə—qazancın (başqa gəlirlərin) yarısı.

Bu payların miqdarı məhkəmə tərəfindən tərəflərin ailə və maddi vəziyyəti, eləcə də başqa hallar nəzərə alınmaqla azaldıla və artırıla bilər.

Eyni zamanda alimentin miqdarı sabit pul məbləğində də müəyyən edilə bilər.

Bu əsasən aşağıdakı hallara şamil edilir:

- aliment verməyə borclu olan valideynin qazancı (gəliri) qeyri -müntəzəm, dəyişən olarsa və ya bir hissəsini natura və ya xarici valyuta ilə alırsa;
- borclunun qazancı və ya sair gəliri yoxdursa;
- alimentin valideynin qazancından(gəlirindən) müəyyən hissə kimi tutulması mümkün olmadıqda və ya çətinlik yaratdıqda.

Uşaqların xəstə olması səbəbindən məhkəmə tərəfindən müəyyən edilmiş aliment uşağın saxlanmasına kifayət etmirsə, valideyn keçmiş həyat yoldaşından övladının müalicəsi üçün əlavə pul vəsaiti verməsini tələb edə bilər.

Eyni zamanda, valideynlər əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan yetkinlik yaşına çatmış övladlarını saxlamağa borcludurlar. Aliment ödənilməsi barədə saziş olmadıqda, əmək qabiliyyəti olmayan yetkinlik yaşına çatmış övladların saxlanması üçün alimentin miqdarı, tərəflərin ailə və maddi vəziyyəti, diqqətəlayiq olan digər maraqları nəzərə alınmaqla, məhkəmə tərəfindən hər ay ödənilməli olan sabit pul məbləğində müəyyən edilir.

Borclunun işlədiyi təşkilatın müdiriyyəti saziş və ya icra vərəqəsi əsasında hər ay onun əmək haqqından və ya başqa gəlirindən aliment tutaraq aliment alan tərəfə verməyə və ya göndərməyə borcludur.

Aliment verməyə borclu olan şəxs iş və ya yaşayış yerinin dəyişməsi haqqında, həm də əlavə qazancı (əvəzçiliklə işlərinə görə və s.) haqqında həmin müddətdə icra məmuruna məlumat verməlidir.

Aliment borclunun qazancından və ya digər gəlirlərindən tutulur. Qazanc və ya digər gəlirlər çatışmadıqda aliment onu ödəməli olan şəxsin bankdakı hesabında olan pul vəsaitindən tutulur. Bu vəsaitlər çatışmadıqda tələb aliment ödəməli olan şəxsin başqa əmlakına yönəldilə bilər.

## Aliment ödənilməsinə xitam verilməsi.

Məhkəmə qaydasında tutulan alimentin ödənilməsinə aşağıdakı hallarda xitam verilir:

- uşaq yetkinlik yaşına çatdıqda və ya yetkinlik yaşına çatmamış tam fəaliyyət qabiliyyəti əldə etdikdə;
- aliment ödənilən uşaq övladlığa götürüldükdə;
- aliment alan şəxsin maddi yardıma ehtiyacının ödənildiyi və ya əmək qabiliyyətinin bərpa olunduğu məhkəmə tərəfindən müəyyən olunduqda;
- aliment alan şəxs və ya aliment ödəyən şəxs öldükdə;
- əmək qabiliyyəti olmayan və ya ehtiyacı olan aliment alan ər və ya arvad yeni nikaha daxil olduqda.

Respublikamızda alimentin ödənilməsinə dair məhkəmə qərarlarının icra edilməməsi və ya icrasının gecikdirilməsi ilə bağlı şikayətlərin çoxluğu müşahidə ol-unur. Bu onun göstəricisidir ki əksər valideynlər müxtəlif səbəblərdən öz borclarını ödəmirlər və bunun nəticəsində uşaqlar maddi təminatsız qalırlar. Bu isə birbaşa uşaq hüquqlarının pozulması deməkdir.
Fransa, İngiltərə, Avstriya, Daniya, Norveç, Finlyandiya və Ukrayna kimi bir çox xarici ölkələrdə alimentin ödənilməsi dövlət vəsaiti hesabına həyata keçirilir. Həmin ölkələrdə bu institut özünü doğruldub və əsas prinsip pul vəsaitinin ödənilməsidir. Bunun sayəsində, himayəsində uşaq olan valideyn məhkəmə qətnaməsi ilə müəyyən edilən alimenti borclu tərəfdən gözləməyərək dövlət vəsaiti hesabına ala bilər. Bundan sonra məhkəmə icraçıları alimenti ödəməkdən yayınan valideyndən dövlətin ödədiyi miqdarda aliment məbləğini alır və bununla ödənilmiş vəsait yenidən dövlətin hesabına qayıdır.
Bu mexanizm tətbiq edilən ölkələrdə 90% büdcə vəsaiti qayıdır.
Boşanmaların sayının artması, buna məruz qalan anaların əksər hissəsinin işləməyən, himayəsində azyaşlı uşaqlar olan, yeganə təminat vasitəsi kimi alimentə daha çox ehtiyacı olan evdar qadınlar olduğunu, alimentin borclu tərəfindən ödənilməsi ilə bağlı çoxsaylı müraciətləri nəzərə alaraq ölkəmizdə qeyd edilən mexanizmin həyata keçirilməsi vacibdir.

## Yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi və onlar tərəfindən törədilən hüquqpozmaların profilaktikası sahəsində Daxili İşlər Orqanlarının fəaliyyət istiqamətləri

Cəmiyyətin perspektiv inkişafının sosial ehtiyatını gənc nəsil təşkil etdiyi üçün onların hüquqlarının müdafiə olunması vacib olduğu kimi, onlar tərəfindən törədilən hüquqpozmaların öyrənilməsi zamanı



qarşılıqlı əlaqədə olan sosial -demoqrafik və psixoloji xüsusiyyətlərin kompleks şəkildə tədqiq edilməsi də məqsədəuyğundur.
Bu xüsusiyyətlərin tədqiqi yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquqpozmaların səbəb və şəraitinin, həmçinin onlara qarşı tətbiq ediləcək profilaktik tədbirlərin dairəsinin müəyyən edilməsinə kömək edir.
Bununla bağlı Respublikamızda yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi, eləcə də onlar tərəfindən törədilən hüquqpozmaların qarşısının alınması və profilaktikası sahəsində qanunvericilik bazası yaradılmışdır.
Hazırda respublikamızda uşaq hüquqlarının müdafiəsi ilə əlaqədar fəaliyyət göstərən əsas qanun ”Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının qanunudur.
Bu qanun Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq hüquqları Bəyannaməsinə, Uşaq hüquqlarına dair BMT Konvensiyasına və digər beynəlxalq hüquq normalarına uyğun olaraq

Azərbaycan Respublikasında uşaqların hüquq və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, eləcə də digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir, uşaq hüquqlarına əməl edilməsi və uşaq baxımsızlığına qarşı mübarizənin təşkili sahəsində digər icra hakimiyyəti orqanları ilə yanaşı Daxili İşlər Orqanlarına da geniş səlahiyyətlər verir və qanunun tələblərinin pozulmasında təqsirkar şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

Bununla yanaşı"Yetkinlik yaşına çatmayanların baxımsızlığı və hüquq pozuntularının profilaktikası haqqında" 24.05.2005-ci il tarixli Azərbaycan Respublikası Qanununun və bu qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 09.08.2005-ci il tarixli 274 nömrəli Fərmanının icrası iləəlaqədar daxili işlər orqanlarında uşaq baxımsızlığının və hüquqpozmalarının profilaktikası, habelə uşaq hüquqlarının müdafiəsi ilə bağlı fəaliyyətin təşkili qaydalarının müəyyən edilməsi məqsədilə DİN-in 24.02.2007-ci il tarixli əmri ilə təsdiq edilmiş"Yetkinlik yaşına çatmayanların baxımsızlığı və hüquqpozuntularının profilaktikasında daxili işlər orqanlarının fəaliyyətinin təşkilinə dair Təlimat"da və"Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 08 may 2012-ci il tarixli fərmanında daxili işlər orqanları əməkdaşlarının hüquqları müyyən edilməklə yanaşı onların qarşısında mühüm vəzifələr qoyulur.

Daxili işlər orqanları əməkdaşları yetkinlik yaşına çatmayanlarla yanaşı, həm də sosial təhlükəli vəziyyətdə olan ailələrlə (yetkinlik yaşına catmayanların tərbiyyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən və onların davranışına mənfi təsir göstərən və ya onlarla qəddar rəftar edən ailə) fərdi və ümumi profilaktik tədbirlər (fərdi profilaktik tədbir - sosial təhlükəli vəziyyətdə olan ailə, habelə davranışına nəzarət olunmayan uşaq və ya hüquq pozuntusu törədən yetkinlik yaşına catmayan şəxslə fərdi qaydada həyata kecirilən profilaktik fəaliyyət; ümumi profilaktika tədbirləri – dövlət və qeyri -hökumət təşkilatları ilə birgə sosial təhlükəli vəziyyətdə olan ailələr, habelə davranışına nəzarət olunmayan uşaqlar və ya hüquq pozuntusu törədən yetkinlik yaşına catmayanlarla həyata kecirilən profilaktika və reabilitasiya fəaliyyətinin məcmusu ) həyata keçirir.

## Aşağıda sadalanan yetkinlik yaşına çatmayanlar barəsində fərdi və ümumi profilaktik tədbir həyata keçirilir:

1. Baxımsızlar (təlim -tərbiyə vermək, yaxud saxlamaq vəzifəsinin valideynləri və ya digər qanuni nümayəndələri tərəfindən yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi nəticəsində davranışına nəzarət olunmayan uşaqlar) və kimsəsizlər (müəyyən yaşayış və qalmağa yeri olmayan uşaqlar).
2. Çətin tərbiyə olunanlar (ailə şəraitində tərbiyəsi mümkün olmayan, təhsil aldığı məktəbdə daxili nizamnamə tələblərini pozan və təhsildən müntəzəm yayınan, birgə yaşayış qaydalarına uyğunlaşmayan, səfil həyat tərzi keçirməyə, habelə hüquq pozuntusu törətməyə meyl göstərən uşaqlar).
3. Avaralıqla məşğul olanlar (valideynlərin və ya digər qanuni nümayəndələrinin, həmçinin təlim - tərbiyə müəssisəsinin qayğı və nəzarətindən kənarda qalan, yaşamaq üçün yeri və vəsaiti olmayan, mütəmadi olaraq xırda oğurluq və ya dilənçilik yolu ilə dolananlar).
4. Əxlaqsız həyat tərzi sürənlər, müxtəlif hüquqpozmalara görə daxili işlər orqanları tərəfindən qeydiyyata alınmış, lakin islah olunması mümkün olmayanlar, habelə ümumi orta təhsildən qərəzli olaraq yayınanlar.
5.Tütün məmulatlarından istifadə edənlər, alkoqollu içkilər və qanunvericiliklə müəyyən edilmiş qaydaları pozmaqla tibbi göstəriş və həkim təyinatı olmadan narkotik vasitələr və psixatrop maddələr qəbul edənlər.
6. İnzibati Xətalar Məcəlləsi ilə qorunan münasibətlərə zərər vuran əməli törədənlər.
7. Cinayət Məcəlləsinin 88 və 89-cu maddələrinə əsasən tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq etməklə cinayət məsuliyyətindən və ya cəzadan azad edilənlər.
8. Cinayət Məcəlləsində nəzərdə tutulmuş ictımai təhlükəli əməli törətmiş, lakin məsuliyyətə cəlb olunması üçün cinayət qanunvericiliyi ilə müəyyən olunmuş yaş həddinə catmayanlar (cinayət törədənə qədər 16 yaşı tamam olmuş şəxslər cinayət məsuliyyətinə cəlb edilir.14 yaşı tamam olmuş

şəxslərin cinayət məsuliyyəti isə yalnız CM-in 20.2-ci maddəsində sadalanan cinayətlərə görə mümkündür)
9. Həbs istisna olmaqla barəsində qətimkan tədbiri secilmiş şübhəli və ya təqsirləndirilən şxslər.
10. Amnistiya və əfvetmə aktı əsasında, yaxud Cinayət Məcəlləsinin 90-cı maddəsinə əsasən şərti olaraq vaxtından əvvəl cəzadan azad edilən şəxslər.
11.Tərbiyə müəssisəsindən buraxılan şəxslər.
12. Müəyyən müddətə azadlıqdan məhrumetmə cəzası istisna olmaqla digər cəza növlərinə məhkum olunan şəxslər (CM-in 85-ci maddəsinə əsasən yetkinlik yaşına catmayanlar yalnız cərimə, ictimai işlər, islah işləri və müəyyən müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum edilə bilərlər).
13. 16 yaşı tamam olana qədər özbaşına və qərəzli şəkildə evdən, xüsusi təlim -tərbiyə və digər uşaq müəssisələrindən gedən şəxslər.
14. İtkin düşmüşlər və valideynləri və ya digər qanuni nümayəndələri tərəfindən atılmış, yaxud imtina edilmiş şəxslər.
15. Haqqında cinayət işinin başlanması rədd edilmiş və ya başlanmış cinayət işinə xitam verilmiş şəxslər.
Bununla yanaşı xidmətin əməkdaşları yetkinlik yaşına catmayanların tərbiyəsi, təhsili və ya saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən, onların davranışına mənfi təsir göstərən, yaxud onlarla qəddar və zorakı rəftar edən, habelə uşaqlarını avaralığa, dilənciliyə və digər hüquqa zidd əməllərə cəlb edən valideynlər və ya qanuni nümayəndələrlə də fərdi və
ümumi profilaktik tədbirləri həyata keçirirlər.
Xidmətin əməkdaşları profilaktik fəaliyyətlə yanaşı yetkinlik yaşına çatmayanların hüquqlarını və qanuni mənafelərini müdafiə edir, onların xoşagəlməz sosial vəziyyətə düşməsinin səbəb və şəraitini aydınlaşdırır, qanunvericiliklə müəyyən olunmuş əsaslara uyğun olaraq dövlətin köməyinə və qayğısına ehtiyacı olanları dövlət və qeyri -hökumət uşaq müəssisələrində yerləşdirir, azmış, atılmış, imtina edilmiş, yaşayış yeri və ya yaşamaq üçün maddi imkanı olmayan yetkinlik yaşına çatmayanları isə dövlət və qeyri dövlət sosial reabilitasiya mərkəzlərinə və sosial sığınacaqlara göndərir.
Bununla yanaşı xidmətin əməkdaşları yetkinlik yaşına çatmayanların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini lazımınca yerinə yetirməyən valideynlər və digər qanuni nümayəndələr, yaxud vəzifəli şəxslər barəsində müraciətlərə baxır və yetkinlik yaşına çatmayanların baxımsızlığına və qanuna zidd əməllər törətməsinə imkan yaradan səbəb və hallar barədə müvafiq dövlət orqanlarına məlumat verir.
Ümumiyyətlə xidmətin əməkdaşları yetkinlik yaşına çatmayanlara qarşı, eləcə də onlar tərəfindən hər hansı neqativ fəaliyyətlə bağlı halları öz səlahiyyətləri çərçivəsində araşdıraraq aradan qaldırır, lazım gəldikdə isə müvafiq dövlət orqanlarına, idarə, təşkilat və müəssisələrə məlumat və ya təkliflər verir.
Bununla əlaqədar olaraq, bu xidmət polisin digər strukturları, habelə dövlət və qeyri -hökumət təşkilatları ilə əlaqəli işi təşkil edir və həyata keçirir. Belə ki, polisin istintaq və təhqiqat, ictimai təhlükəsizlik, dövlət yol polisi, pasport -qeydiyyat, əməliyyat xidməti aparatları və digər strukturları yetkinlik yaşına çatmayanların baxımsızlığı, hüquq pozuntularının profilaktikasının və hüquqlarının müdafiəsi tədbirlərində yaxından iştirak etməklə, bu vəzifələrin həyata kecirilməsində hər biri öz xidməti fəaliyyəti ilə əlaqədar xidmətə lazımi məlumatları verir.
Bundan başqa xidmət öz fəaliyyətini yetkinlik yaşına çatmayanların baxımsızlığı, hüquq pozuntuları və hüquqlarının müdafiəsi tədbirlərini şəhər (rayon) icra hakimiyyəti yanında yetkinlik yaşına çatmayanların işləri və huquqlarının müdafiəsi üzrə Komissiyalar, əhalinin sosial müdafiəsi orqanları və sosial xidmət müəssisələri, təhsil orqanları və təhsil müəssisələri, qəyyumluq və himayə orqanları, gənclərlə iş üzrə orqanlar və gənclərin işləri üzrə orqanların müəssisələri, səhiyyə orqanları, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və onların yerli təşkilatları, dövlət və qeyri -hökumət uşaq təşkilatları, habelə uşaq hüquqlarının müdafiəsi ilə məşğul olan beynəlxalq təşkilatlarla qarşılıqlı iş və məlumat mübadiləsi əsasında qurur və həyata kecirir.
Qanunvericiliyə əsasən xidmətin əməkdaşları yetkinlik yaşına çatmayanları və valideynləri profilaktiki qeydiyyata götürür, onlara fərdi profilaktiki iş tərtib edərək (FPİ) müvafiq profilaktik tədbirlər həyata kecirir. Yetkinlik yaşına çatmayanlar 11-18 yaşadək profilaktik qeydiyyata götürülür. Valideynlər üçün isə yaş həddi müəyyən edilmir.

Azərbaycanda müxtəlif sahələrdə fəal xanımların rolu hər zaman danılmazdır. Azərbaycanda ilkə imza atan bir çox xanımlar bu addımları ilə bərabər, bəzən əsl Şərq hadisəsinə çevriliblər. Məsələn; ilk təyyarəçi xanım Leyla Məmmədbəyova həm də Şərqin ilk qadın pilotu olmuşdur. Yaxud "Gəlin qayası" operasını yazan Şəfiqə Axundova bununla Şərqdə ilk dəfə opera bəstələyən xanım kimi tanınmışdır.

Bu yazımızda Azərbaycanda ayrı -ayrı illərdə və ayr ı-ayrı sahələrdə ilkə imza atmış xanımları diqqətinizə təqdim edirik.

## *İlk kinoaktrisa, ilk xanım neft mühəndisi və ilk xanım kimyaçı akademik*



-Hər üç sahəni yanaşı yazmağımız heç də təsadüfi deyil. Belə ki, ilk kimyaçı alimimiz, Azərbaycanın ikinci akademik xanımı olan İzzət Orucova bu sahələrin hər üçündə ilkə imza atıb. Cəfər Cabbarlının "Sevil" filmində eyniadlı obrazı oynamaqla ilk kinoaktrisa statusunu qazanıb.

## *İlk qadın akademik*



– Adi bir meşəbəyi qızı olan Validə Tutayuq biologiya sahəsində ilk qadın elmlər doktoru, professordur. 1968-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilərək böyük ilkə imza atıb. Məhz akademiyanın həqiqi üzvü seçildikdən sonra, nəhayət Azərbaycan elminin ilk qadın akademiki olub.

## *İlk qadın təyyarəçi*



– Təkcə Azərbaycanın deyil, eləcə də Şərqin ilk qadın təyyarəçisi olan Leyla Məmmədbəyova müharibə başlayarkən (II Dünya Müharibəsi) mayor rütbəsinə qədər yüksələ bilmişdi. Lakin yetkinlik yaşına çatmayan 4 uşağın anası olduğu üçün onu müharibəyə göndərmirdilər. Buna baxmayaraq, SSRİ miqyasının ikinci, Şərqin isə birinci xanım təyyarəçisi olan Leyla Məmmədbəyova Azərbaycan tarixinə düşə bilmişdi.

## *İlk xanım hərbi təyyarəçi*



–II Dünya Müharibəsində hərbi təyyarəçi kimi yüksək nüfuz qazanan və kapitan rütbəsinə qədər yüksələn Züleyxa Seyidməmmədova sonradan yüksək postlarda irəli çəkildi. Xanım Seyidməmmədova hətta bir müddət Azərbaycan SSR ictimai təminat naziri vəzifəsində də çalışıb.

## *İlk qadın baş redaktor*



- 1911-ci ildə çap olunan ilk qadın jurnalı "İşıq"ın təsisçisi, dövrün maarifpərvər ziyalısı Xədicə Əlibəyova Azərbaycan mətbuat tarixinə ilk xanım baş redaktor kimi düşüb.

## *İlk xanım opera müğənnisi*



– Azərbaycanın ilk xanım opera müğənnisi Şövkət Məmmədova böyük Üzeyir Hacıbəylinin kadrı olub. Hacı Zeynalabdin Tağıyevin maddi dəstəyi ilə Milanda konservatoriyada oxuyan Şövkət xanıma həyatının ən pis vaxtlarında Ü.Hacıbəyli kömək edib və onu ilk dəfə səhnəyə çıxarıb. İlk xanım opera müğənnimiz səhnəyə çıxan zaman qoçular onu az qala öldürəcəkmiş. Bu zaman da ona Üzeyir bəy və dostları kömək edib.

## *İlk xanım balerina*



- Azərbaycanın balet sahəsində ilk qaranquş olan Qəmər Almaszadə adi bir çəkməçi qızı olub. Uzun müddət baletə gedən zaman atasına idmanla məşğul olduğunu deyərək aldadırmış. Lakin çox sonralar atası əsl həqiqəti bilir. Qızının bu seçimi ilə barışır. Hətta hərdən gizlincə teatra gedib tamaşaçılar arasında qızının ifasını izləyirmiş.

## *İlk xanım nazir*



-İlk qadın nazirimiz xarici işlər naziri kimi Tahirə Tahirova olub. O, həm də neft sənayesi üzrə ali təhsil alan ilk azərbaycanlı qadın mütəxəssis idi. T.Tahirova 1957 –ci ildə Azərbaycan SSR xarici işlər naziri vəzifəsinə təyin olunsa da, icrasına 1959-cu ildən başlayıb və 1983-cü ildə nazirlikdəki fəaliyyətinə son qoyub. SSRİ Ali Sovetinin (4-cü çağırış), Azərbaycan SSR Ali Sovetinin (3, 5, 7-ci çağırış) deputatı olub.

## *İki sahənin naziri olmuş ilk xanım*



– Bu, ayrı -ayrı vaxtlarda həm xarici işlər, həm də təhsil naziri olmuş Elmira Qafarovadır. 1983 -1987-ci illərdə Azərbaycan SSR xarici işlər naziri vəzifəsində çalışıb. 1987-1989-cu illərdə E.Qafarova Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsində çalışıb, 1989-cu il dekabrın 30 -da Gəncə şəhərinin adının bərpa olunması və 1990 -cı il martın 13 -də Azərbaycan xalqının milli bayramı olan "Novruz bayramı"nın rəsmən qeyd edilməsi haqqında fərmanlar imzalayıb.

1990 -cı ilin may ayında Azərbaycan SSR Ali Sovetinin sədri seçilib və 1990 -1992-ci illərdə bu vəzifədə çalışıb.

## *İlk xanım olimpiya çempionu*



Zemfira Meftahaddinova XXVII Yay Olimpiya Oyunlarında qızıl medal almaqla Azərbaycan idman tarixinin ilk xanım olimpiya çempionu olub. “Şöhrət” ordeni ilə təltif edilən stend atıcısı hazırda həm də polis polkovnik -leytenantı kimi də fəaliyyət göstərir.

## *İlk heykəltəraş qadın*



1929-cu ildə anadan olan şuşalı qız Münəvvər Rzayeva Azərbaycanın ilk qadın heykəltaraşı hesab olunur. “Ayna Sultanova” heykəlinin müəllifidir.

## *İlk qadın riyaziyyatçı professor*



-Azərbaycanda ilk dəfə qadınlar arasında riyaziyyat üzrə elmlər doktoru adını almaq Tamilla Nəsirovaya nəsib olur. O, 1994 -cü ildə Ukrayna EA -nın Riyaziyyat İnstitutunda “Semimarkov prosesləri’ mövzusunda doktorluq dissertasiyasını müdafiə edib, bir il sonra BDU -nun ehtimal nəzəriyyəsi və riyazi statistika kafedrasının professoru seçilib. Tamilla xanım 1996 -cı ildən 1999 -cu ilədək Türkiyənin Karadəniz Teknik Universitetində professor vəzifəsində çalışıb.

## *Prezident təltifinə layiq görülən əməkdar müəllim*



Azərbaycan qadını tarixin hər dövründə öz sənət , peşə vəzifəsi ilə yanaşı, vətəndaşlıq borcunu da ləyaqətlə yerinə yetirməyi bacarır. Hal-hazırda belə qadınlarımız kifayət qədərdir. Belə tanınmış xanımlardan biri də Musayeva Bella Sirac qızıdır. Ömrünü müqəddəs bir peşəyə həsr edən Bella xanım bu sənətin incəliklərinə yiyələnərək, gənc kadrların yetişdirilməsində xüsusi rol oynamışdır.

1965-ci ildə M.F. Axundov adına Azərbaycan Pedaqoji İnstitutunu fərqlənmə ilə bitirərək, Moskva Dövlət Universitetində namizədlik dissertasiyasını müdafiə etmişdir. 1986-1988-ci illərdə həmin universitetinin doktorantı olmuşdur. 1991-ci ildə Moskva Dövlət Universitetinin filologiya fakültəsinin Elmi Şurasında doktorluq dissertasiyasını müdafiə etmişdir. 2000-2007-ci illərdə Bakı Slavyan Universitetinin filologiya fakültəsinin dekanı olmuşdur. O, təkcə, ölkəmizdə deyil, onun hüdudlarından kənarda da dilimizin, mədəniyyətimizin tanınması üçün öz səylərini əsirgəməmişdir. Məhz buna görə də 2007-ci ildə Bakı Slavyan Universitetinin rəhbərliyi tərəfindən Moskva Dövlət Linqvistika Universitetinin tərcümə fakültəsində Azərbaycan dili fənnini tədris etmək üçün ezam olunmuşdur. 2009-cu ildən Moskva Dövlət Linqvistika Universitetində Bakı Slavyan Universitetinin fəal yardımı ilə yaradılmış Azərbaycan dili və Mədəniyyəti Mərkəzinin direktoru olmuşdur. Onun tələbələri də öz aktivliyi ilə seçilirlər. Azərbaycan Respublikası səfirliyinin Rusiya Federasiyasında təşkil etdiyi bütün tədbirlərdə fəal iştirak edirlər.

Bella Musayeva apardığı tədqiqatlar və çox illik təcrübələrin nəticəsində rus ədəbiyyatında giriş kursu tədris materialları və qaydalar, 10-dan çox dərsliklər dərc etdirmişdir ki, bu da tələbələr və gənc alimlər üçün əhəmiyyətli mənbəyə çevrilmişdir. Dilin tədrisi metodikasını bilmək işin bir hissəsidirsə, bu bilikləri yaymaq, onu digər ölkələrin alimlərinin nəzərinə çatdlrmaq və təbliğ etmək isə vacibdir. Son illərdə Musayeva Bella dil mühitində Azərbaycan dilinin tədrisi metodikası problemləri ilə yaxından məşğul olmuş və bu mövzu ilə Bakıda, Moskvada, Minskdə və s. ölkələrdə konfranslarda iştirak etmişdir. Rusiyada Heydər Əliyev Fondunun və AMOR təşkilatının maliyyə dəstəyi ilə tələbələri dəfələrlə Bakıya səfər ediblər, elmi konfranslarda çıxış ediblər.

Bella xanım vətənpərvər ziyalı, məsuliyyətli alim və müəllim olmaqla, yanaşı, həm də ölkənin ictimai həyatında aktiv iştieak edən qadınlarımızdan biridir. 2003-2007-ci illərdə Bakı Slavyan Universitetində Yeni Azərbaycan Partiyasının ilk sədri olmuşdur.

Onun elmi yaradıcılığı, ictimai fəaliyyəti ictimaiyyət və dövlət tərəfindən hər zaman qiymətləndirilmişdir. 2009-cu ildə Azərbaycanlıların Mədəniyyət və Həmrəylik Mərkəzi tərəfindən Rusiyada Azərbaycan mədəniyyəti və incəsənətinin inkişafı və təbliğinə görə tərifnaməyə layiq görülmüşdür. 2010-cu ildə Moskva Dövlət Linqvistika Universitetində işlədiyi müddətdə Rusiya Federasiyasında Azərbaycan Respublikasının səfirliyi tərəfindən " Azərbaycan dilinin təbliğinə görə", 2012-ci ildə "Rusiya Federasiyasında gənclər arasında Azərbaycan mədəniyyətinin təbliği və yayılması ucun"Şəhriyar " Birliyinin Fəxri Fərmanı ilə təltif edilmişdir. Əmək veteranıdır. 2015-ci ildə isə Azərbaycan Respublikası Perzidenti cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının “Əməkdar müəllim” fəxri ada layiq görülmüşdür.

Biz də öz növbəmizdə Bella xanıma can sağlığı, uzun ömür,elmi və ictimai fəaliyyətində uğurlar arzulayırıq.

***Həyatını məşələ çevirib, ömrünü vətənə, xalqına xidmətdə görənləri heç vaxt unutmayaq...***

**Zümrüt Həmzət qızı, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Əmək veteranı**



XX əsrin 30 –cu illərində Balakəndə dünyaya göz açan, sadə kəndli ailəsində 9 –cu uşaq olan, bibim Səfiyyə Hacı qızı Dibirova cari il yanvarın 31 –də rəhmətə getsə də, fevralın 1 –də dəfn olundu. Öz vəsiyyəti ilə, bu insanın Balakən məscidinin həyətində keçirilən dəfn mərasiminə insan axını sonsuz idi!!!

"Səfiyyə" ərəbcə "saf" deməkdir. Səfiyyəyə nümunə olan anasının halallıq, zəhmətkeşlik kimi gözəl xüsusiyyətləri ona da xas idi. Onun "Ana" poeması bibimin öz anasına olan məhəbbətini əks etdirir.

Nənəm Əsiyyətin atası Məkkədə həcc ziyarəti zamanı vəfat edib. Qızının arzusu həcc ziyarətində olmaq və atasının da qəbrini ziyarət etmək idi. Uşaqlıq yaddaşımda qalıb ki, 1961 –ci ildə Sov. İKP –nin XXI –ci qurultayına gedən bibimə demişdi -Nə olar, sizin o padşaha (N. S. Xruşşovu nəzərdə tuturdu) de ki, ora getməyimə köməklik etsin. Ömrünün son illərində deyirmiş ki, -Məni təyyarəyə mindirin, oradan keçəndə məni yerə atsınlar.

Nənəmin 26 nəvəsi var idi. O, bizə -nəvələrinə deyərdi, əmanət edərdi ki, ona (Səfiyyəyə) yaxşı baxın, vaxtında ailə qurmadı, qocalığında heç olmasa onu tək qoymayın.

Bibim, özünün də dediyi kimi, "Əmək Haqqı" cədvəlindəki məbləğdən başqa heç yerdən 1 qəpik belə almamışdı, nə rüşvət almışdı, nə də rüşvət vermişdi. İki ünvanda məskunlaşması, kommunal xərclər, tələbələrə yardımı, onu görməyə gələn qonaqlar onun gündəlik qayğılarını təşkil edirdi. 1999 –cu ilin fevral ayında keçirdiyi, 12 saat davam edən ağır beyin əməliyyatı onu sanki, o dünyaya apardı və qaytardı. Hətta həkimlər onun sağ qalacağına ümid olmadığını demişdilər. Böyük Allahın sınağı da böyükdür. 81 yaşında o, xəsarət aldı və 2 il yataq xəstəsi oldu. Gözləri yolda, qulaqları səsdə idi. İndi də o, öz yaxınlarını sınağa çəkirdi. Telefon zəngi, 1 gül və ya 1 kitab hədiyyəsi onun arzusu idi. İki əsri görən bu insanı tanıyanlar onun nə qədər ziyalı, təmiz və saf bir insan olduğunu bilirdilər. Ailə qurmasa, ana səadətinə çatmasa da anaların dərdini dinlədi, onların dərdlərini öz dərdi hesab etdi. O, kişi təbiətli idi, həmişə də qara kostyum geyinirdi, bər –bəzəyi, zinəti sevməzdi. "Milli öndər Heydər Əliyev mənə Prezident təqaüdü verməsəydi nə olardı?" deyirdi. Dərman və vurulan iynələrin xərci az deyildi. Xəstə yatarkən ona qulluq edən Həlimət adlı qadına söz vermişdi ki, zəlzələ zamanı uçmuş evi ilə əlaqədar ona kömək edəcək. İki uşaqla köməksiz qalmış Həlimətə kömək ermək üçün əlaqədar təşkilatlara müraciət edərək, yardım istədi.

Mən bibimlə çox ünsiyyətdə olurdum, həm də onun "mətbuat katibi" idim. Mənə deyirdi, kitabxanamı sənə verirəm ki, məndən sonra onu qoruyasan, mən isə gülərək deyirdim ki, axı mən də yaşlaşmışam, səndən 17 yaş kiçiyəm, kitabxananı bağışlayarıq da, ay Sara (biz ona Sara deyirdik). 2005 –ci ildən bibim haqqında yazmağa başladım. O, bunu biləndə, məndən sonra çap etdir dedi.

Çox minnətdarıq millət vəkilimiz Rəbiyyət xanım Aslanovaya, bibimin yas mərasimində üzünü mənə tutaraq –sən jurnalistsən, bibin haqqında materialları, xatirələri yaz mənə çatdır –dedi. İyunun 19 –nda, kitabın təqdimatında Sona Qazıyeva və Prezident Aparatından gələn rəsmi şəxslər, icra başçıları, ağsaqqallar gözəl çıxışlar etdilər. Bu görüşdən idiyə kimi qürur keçirirəm.

Qələmimin mürəkkəbi qurtarar, amma bibim haqqında nə qədər yazsam qurtarmaz. Gəlin sizli –bizli bibim haqqında bir neçə azərbaycanlının dediklərinə nəzər salaq.

Əhməd Əhmədzadə (nazir) -Dünyada, elə Azərbaycanda da 5 nəfər saf insan varsa, biri də Səfiyyə xanım olar, rəhmətlik suyu da üfürə -üfürə içərdi.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyi ilə yazıçı-jurnalist Sabir Gəncəlinin faşizm üzərində qələbənin 70 illiyinə həsr etdiyi “İgid oğullarla bir cərgədə” adlı ensiklopedik toplusu xalqımıza ən yaxşı töfhəsidir. Bu topluda Böyük Vətən Müharibəsində tarixi qələbənin qazanılmasında 600 mindən çox igid oğullarını, qeyrətli qızlarını düşmənə qarşı döyüşə yola salmış Azərbaycan qadınlarının ön və arxa cəbhədə göstərdikləri fədakarlıq, hünər, qəhrəmanlıq və rəşadət tərənnüm edilmişdir. Kitabın hər bir bölməsi öz tarixiliyi,dolğunluğu, əhatəliyi ilə seçilir. Burada təqdim olunan hər bir material, xüsusilə nadir tarixi fotolar və arxa cəbhə həyatının əks etdirən illüstrasiyalar da diqqəti cəlb edir. Böyük Vətən müharibəsində Azərbaycan oğul və qızlarının faşizmin məhv edilməsində göstərdikləri qəhrəmanlıqlar, onların həyat tərzi və fəaliyyəti gənclərimiz üçün əsl nümunə, vətənpərvərlik məktəbidir.




Ümumiyyətlə, yaşadığı tarixi dövrdən, onun sosial- iqtisadi vəziyyətindən, coğrafi məkandan, irqindən, dilindən, dinindən asılı olmayaraq qadın bəşəriyyətin inkişafının bütün mərhələlərində özünəməxsus aparıcı qüvvə olmuşdur. Azərbaycan qadını çətin, keşməkeşli inkişaf yolu keçmişdir. Tariximizə nəzər salsaq görərik ki, cəmiyyətin inkişafının bütün mərhələlərində qadınlar kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak etmişlər.

Hər bir xalqın tarixində silinməz iz qoymuş görkəmli qadınları vardır. Əsrlər, qərinələr keçir, lakin bu qadınların xidmətləri nəinki unudulmur, hətta gələcək nəsillər üçün örnək olur. Azərbaycan xalqının da tarixində görkəmli qadın şəxsiyyətlər az olmamışdır.

Azərbaycan qadınları Böyük Vətən müharibəsində qəhrəmanlıq göstərmiş, ön və arxa cəbhədə, hətta dövlət işlərində yaxından iştirak etmişlər. Faşizm üzərində qələbədə Züleyxa Seyidməmmədova, Leyla Məmmədbəyova, Sona Nuriyeva və başqalarının özünəməxsus rolu olmuşdur. Müharibə illərində digər bir qadın qəhrəmanımız - gəmi kapitanı Şövkət Səlimova dünyada iki qadın gəmi kapitanından biri olub. II Dünya Müharibəsinin ən dəhşətləri səhifələrindən biri də Leninqrad şəhərinin mühasirəsi olmuşdur. Bu ağır günlərdə Azərbaycan qadınları da mübarizə aparmış və bütün çətinliklərə qalib gəlməyi bacarmışlar.

Çox təəssüflər olsun ki, tarix təkrar olunur. Azərbaycan qadını müasir dövrdə də yenidən müharibə şəraitində yaşayır, vuruşur və mübarizə aparır. Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması nəticəsində onlarla qadınlarımız döyüşərək, şəhid olmuşlar. 400 mindən çox qadın və 300 mindən çox uşaq qaçqın və məcburi kökün düşmüşdür. Bu rəqəmlərin arxasında yüz minlərlə qadının, qızın öz evlərini itirməsi, ailələrin dağılması dayanırdı. Bu gün biz qaçqın və məcburi köçkün, həmçinin şəhid ailəsi olan və müharibənin ağırlığını çiyinlərində daşıyan qadınlarımızın fədakarlığını xüsusi qeyd edirik. Bütün bu çətinliklərə baxmayaraq, köçkün qadınlarımız özlərində mənəvi güc taparaq, başlarına gələn faciələri ürəklərində yaşadaraq gələcəyə ümidlə baxdılar. Azərbaycan Hökuməti həmin qadınların ictimai-siyasi həyata inteqrasiya edilməsi üçün bütün qüvvəsini səfərbər etmişdir. Hazırda bu qadınlar arasında milliət vəkili, müəllimlər, həkimlər, dövlət qulluqçuları, kənd təsərrüfatında çalışanlar vardır.

Azərbaycanda hələ də müharibə vəziyyəti davam edir. Belə bir dövrdə vəzifəmiz Ali Baş Komandanımızın rəhbərliyi ilə ölkəmizin hərbi qüdrətini daha da artırlmasına kömək etməkdir. Biz həmişə ordumuzun yanındayıq. Və erməni faşizmi üzərindəki qələbəmizə tam əminik!

*Geyindiyimiz paltarlara, istifadə etdiyimiz kosmetik vasitələrə, aldığımız ayaqqabılara, görünüşümüzə rəng qatmasında rolu olan aksessuarlara, qoxumuzla tanınmağımızı təmin edən ətirlərə görə, ümumiyyətlə, moda dünyasında seçilməyimizdə köməkçi olduqlarına görə, hamımızın təşəkkür etdiyi şəxslər var. Bu tanınmışlar öz dizaynları ilə dünya şöhrəti qazanmış və adlarını moda dünyasına həkk etmişlər. Gəlin, onların bir qismi ilə qısaca da olsa tanış olaq.*



***Agatha Ruiz de la Prada:*** İspaniyanın məşhur modelyeri Prada kolleksiyalarında rəngli, uşaqca olan, təbiətdən alınmış obyektlərə tez-tez yer verir. Stilistin hazırladığı paltarlar və çantalar geniş bir heyran kütləsinə sahibdir.



***Kristian Dior:“***Qadının seçdiyi ətir onun xasiyyəti haqqında daha çox məlumat verir, nəinki xətti” deyən 1905-ci il təvəllüdlü fransız dizayner dünyanın ən böyük moda evlərindən biri olan Dior-un qurucusudur. İlk kolleksiyasını 1947-ci ildə hazırlayan Dior ona “Corolle” (tac yarpaqları) adını vermişdi. Onun modalar evi İkinci Dünya Müharibəsi zamanı ölkə işğal həyəcanı yaşayan zaman açılmışdı və “Christian Dior Perfume” adlanmışdır. Dior qadınlara topuğadək dar ətəklər və hündürdaban ayaqqabılar geyindirmiş, belin incə görünməsi üçün korsetlə örtməyi təklif etmişdi. Dior müxtəlif məhsulları bir brend adı altında birləşdirmişdi. Bura ətir, geyim, ayaqqabı, qalstuk, bijüteriya, kosmetika, çanta və digərləri daxildir.



***Yves Saint Laurent:*** Laurent 18 yaşında iştirak etdiyi yarışmada Christian Diorun marağını çəkmişdi. Dior markasında staj keçməyə başlayan gənc Laurent Christian Diorun ani ölümündən sonra 3 il markanın baş dizayneri olmuşdu. Hazırladığı ilk kolleksiyada yer verdiyi kloş ətək-pencək kombinasiyaları ilə ad qazanmışdı.



***Kristian Louboutin:*** 1964-ci il təvəllüdlü fransız ayaqqabı dizayneri 1991-ci ildə dikdaban ayaqqabı istehsalına başlamışdı. Qırmızı və yüksək dikdaban ayaqqabıların kişilərin diqqətini daha asan çəkəcəyini söyləyən Louboutinin müvəffəqiyyətli karyerası qırmızı dabanlı ayaqqabılar ilə başlamışdır. Altı qırmızı və parlaq ayaqqabılar 1992-ci ildə dizaynerin imzası halına gəlmişdi. Eyni il qırmızı dabanlı ayaqqabıların patentini alan Louboutin 12 sm və daha yüksək dabanlı stiletto-ların 1990-2000-ci illərdə dəbdə olmasını təmin etmişdi.



***Koko Şanel:*** Yalnız moda dünyasında deyil, bir kino qəhrəmanı olaraq da fenomen olan Şanel ilk mağazasını şapka ilə açmışdı. Məşhur modelyer moda və geyim ilə əlaqədar bildirdiyi fikirləri ilə də məşhurdur. Koko Şanel adı ilə tanınan məşhurun əsl adı isə Qabriel Bonyor Şanel idi. Hal-hazırda ən sanballı, dəbdəbəli moda evi olan Şanel-in mənzil qərargahı Parisin O-dö-Sen departamentində yerləşir."Chanel Evi" qadın geyim və bəzək əşyalarından başqa kişilərin də zövqünü oxşayan geyim, qol saatları, ətir, kəmər və s. kimi aksessuarlarla da məşhurdur.



***Diane von Furstenberg:*** 1946-cı il təvəllüdlü amerikalı moda dizayneri "Wrap dress" kimi qadını çox cazibədar və gözəl göstərdiyi düşünülən paltarın ixtiraçısı kimi tanınır.



***Valentino Garavani:*** 1932-ci ildə İtaliyada dünyaya gələn Valentino Garavani 1959-ci ildə Parisdə moda evi açaraq, moda həyatına ayaq basmışdı. 1965-ci ildə Garavani İtaliyada "Haute Couture"-in dizayneri olaraq ölkəsində özünü isbat etmişdi. Adını daşıyan məşhur İtalyan geyim markası "Valentino"nun sahibidir.



***Pierre Cardin:*** 1922-ci il təvəllüdlü italyan əslli fransız modelyerdir. Geyim və memarlığa olan marağı uşaq yaşında başlayan Pierre Cardin 1936-ci ildə bir dərzinin yanında tikiş öyrənməyə başlamışdı. Ailəsinin 1945-ci ildə Parisə köçməsi ilə birlikdə, dövrün məşhur stilistləri olan Jeanne Paquin, Christian Bernard və Elsa Schiaparelli ilə işləmək imkanı qazandı. 1947-1950 illəri arasında Christian Dior'un yanında öyrəndizayner 1950-ci ildə başlayan "Haute Couture" cərəyanını öz adına açdığı Maison De Couture mağazasında inkişaf etdirmişdi.
Jurnalımızın növbəti nəşrlərimizdə hər bir modelyer, dizayner haqqında ətraflı məlumatlarla qarşınızda olacağıq.

## *Avropa mətbəxinə məxsus olan "Kartoflu balıq" ın reseptini balıqsevərlərə təqdim edirik.*

**Tərkibi:**

- *4 parça pulcuğu az balıq*
- *4 ədəd kartof*
- *2 yemək qaşığı un*
- *2 ədəd yumurta*
- *İstiot*
- *Pul bibər*
- *Duz*
- *Kişniş tozu*
- *3 diş döyülmüş sarımsaq*
- *Duru yağ*



**Hazırlanması:**

Əvvəlcə balıq yuyulur, suyunun bir az süzülməsi üçün gözlənilir, kağız ilə də qurutmaq mümkündür. Balığın böyüklüyündən asılı olaraq ortadan ikiyə yaxud dörd yerə bölmək olar. Duz və ədviyyatla qarışdırıb ağzı qapalı bir qabda soyuducuda gözlənilir. Kartoflar iri rəndədən keçirilir, suyu tamamən sıxılır. Bir qaba yığılıb içinə yumurta, un, duz və azca istiot əlavə edilib qarışdırılır. Balığı əvvəlcə una bulayıb sonra üzərinə kartofu yaxmaq lazımdır. Balığın hər iki tərəfi eyni qaydada kartof ilə örtülür. Sonra bol yağın içində qızardılana kimi bişirilir.

## *"Balqabaq piroqu" resepti*

**Tərkibi:**

- *1 bağlama hazır yağlı xəmir*
- *250-300 q balqabaq*
- *2 x.q. un*
- *100 q sarı kişmiş*
- *2-3 x.q. şəkər tozu*
- *1 ç.q. mixək (üyüdülmüş)*
- *2 ç.q. darçın*
- *2 x.q kərə yağı (marqarin)*



**Hazırlanması:**

Çiy balqabağın qabığı soyulub tumları təmizlənir. Sürtgəcin iri gözündən keçirilir. Sonra şəkər tozu, kişmiş, mixək, darçın və un əlavə edib qarışdırılır. Xəmir iki hissəyə bölünür. Bu arada sobanı yandırıb 250 dərəcəyədək qızdırmaq lazımdır. Sini kərə yağı ilə yağlanır və xəmirin bir hissəsi siniyə qoyulur. Üstünə marqarin yonqarı səpilir (bıçaqla marqarindən az-az kəsib qoyulur). Sonra balqabaqın içini xəmirin üstünə bərabər yaymaq lazımdır. Xəmirin qalanı isə üzərinə qoyulur.20-30 dəqiqə, piroqun üstü qızaranadək bişirilir. Süfrəyə verməzdən əvvəl üstünə şəkər pudrası səpilsə daha ləzzətli görünər.










SEEDS

